USAID
FROM THE AMERICAN PEOPLE

International Foundation
for Electoral Systems

ცესკო
საქართველოს
საარჩევნო
ადმინისტრაცია

საარჩევნო სისტემების
განვითარების, რეფორმებისა და
სწავლების ცენტრი

# MƏNTƏQƏ SEÇKİ KOMİSSİYA ÜZVLƏRİNİN DƏRSLİK TƏLİMATI

## Gürcüstan parlamentinin
## 2 aprel 2022-ci il tarixli təkrar seçkiləri

# MƏNTƏQƏ SEÇKİ KOMİSSİYA ÜZVLƏRİNİN DƏRSLİK TƏLİMATI

MSK-nin 2022-ci il 1 fevral tarixli №13/2022 qərarı ilə təsdiq olunmuşdur

Təqdim edilən dərslik təlimatı Gürcüstan parlamentinin 2 aprel 2022-ci il tarixli təkrar seçkiləri üçün məntəqə seçki komissiyaları üzvlərinin təlim məqsədləri üçün nəzərdə tutulmuşdur. Məntəqə Seçki Komissiyasının səlahiyyətləri və fəaliyyət qaydası ilə bağlı qanunvericiliyin qaydaları ilə tam tanış olmaq məqsədi ilə, Gürcastan Orqanik qanunu "Gürcüstan Seçki Məcəlləsi" və MSK-nin müvafiq hüquqi aktlarına baxın.

# MÜNDƏRİCAT


I HİSSƏ. MƏNTƏQƏ SEÇKİ KOMİSSYASININ TƏRKİBİ VƏ İŞ QAYDASI . . . . . 5

I FƏSİL. MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ KOMPLEKTLƏŞDİRİLMƏSİ QAYDASI . . . . . 6

Məntəqə seçki komissiyasının komplektləşdirilməsi qaydası . . . . . 6

Məntəqə seçki komissiyası üzvünün hüquqi-vəzifəsi. . . . . 6

Məntəqə seçki komissiyası sədrinin/komissiya sədrinin müavininin/komissiya katibinin seçilməsi qaydası. . . . . 6

II FƏSİL. MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ İŞ QAYDASI. . . . . 8

Məntəqə seçki komissiyasının rəhbər şəxslərinin səlahiyyətləri . . . . . 8

Məntəqə seçki komissiyasının kargüzarlıq qaydası . . . . . 9

Məntəqə seçki komissiyasının hüquqi aktları . . . . . 10

Məntəqə seçki komissiyasının iclasında sərəncamın qəbul olunması qaydası . . . . . 10

II HİSSƏ. MƏNTƏQƏ SEÇKİ KOMİSSYASININ SEÇKİQABAĞI DÖVRDƏ FƏALİYYƏTİ. . . . . 11

I FƏSİL. SEÇİCİLƏRİN SİYAHILARI. . . . . 12

Seçicilərin vahid siyahısı və onun dərc olunması qaydası . . . . . 12

Seçicilərin vahid siyahı göstəricilərinin yoxlanılması . . . . . 12

Seçicilərin xüsusi siyahısı . . . . . 12

Seçkilərdə təkərli kürsüdən istifadə edən seçicinin iştirak etməsinin müvəqqədi qaydası . . . . . 13

Aparılası seçki qutusu siyahısının formalaşdırılması qaydası . . . . . 14

Seçici vərəqəsi . . . . . 15

II FƏSİL. SEÇKİ SƏNƏDLƏRİNİN QƏBULU, SƏSVERMƏ BİNASININ TƏŞKİLİ . . . . . 16

Dairə Seşki Komissiyasından seçki sənədlərinin və inventarın qəbulu . . . . . 16

Seçki sənədləri və inventarının qəbul-təhvil protokolu . . . . . 16

Püşkatma binasının təşkili. . . . . 17

III. HİSSƏ. SƏSVERMƏ GÜNÜ MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ FƏALİYYƏTİ . . . . . 18

I FƏSİL. Yeni koronavirus (SARS-CoV-2) səbəb olduğu infeksiyanın (COVID-19) yayılmasının prevensiyası üçün tədbirlər . . . . . 19

Yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, səsvermə binasında nəzərə alınan sanitar-gigiyenik tədbirlər . . . . . 19

Yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, səsvermə binasına daxil olarkən, çıxarkən və binada qalarkən və hərəkət edərkən riaət olunası sanitar-gigiyenik tələblər . . . . . 19

II FƏSİL. SEÇKİ MƏNTƏQƏSİNİN AÇILMASI, SƏSVERMƏYƏ QƏDƏR KEÇİRİLMƏLİ PROSEDURLAR . . . . . 21

Seçki məntəqəsinin açılması. . . . . 21

Səsvermə binasında olmaq hüququna malik şəxslər . . . . . 21

Müşahidəçinin, seçki subyektinin nümayəndəsi və mətbuat və Kütləvi İnformasiyanın digər Vasitəsinin nümayəndəsinin hüquqi vəziyyəti . . . . . 21

Seçki məntəqəsinin açılışından səsvermənin başlanmasınadək həyata keçirilməli prosedurlar . . . . . 22

III FƏSİL. SƏSVERMƏ PROSESİ . . . . . 26

Səsvermənin keçirilməsi . . . . . 26
"Fiziki vəziyyətinə" görə seçici tərəfindən səsvermə prosesi . . . . . 29
Seçki günü səsvermə binasında və onun ətraf ərazısındə asayişin qorunması . . . . . 29
Səsvermə prosesinin müvəqqəti dayandırılması . . . . . 29
Səsvermədə iştirak edən seçicilərin qeydə alınması . . . . . 30
Aparılası seçki qutusu vasitəsilə səsvermə . . . . . 30

IV FƏSİL. SEÇKİ MƏNTƏQƏSİNİN BAĞLANILMASI, SƏSVERMƏNİN NƏTİCƏLƏRİNİN YEKUNLAŞDIRILMASI . . . 33
Seçki məntəqəsinin bağlanması . . . . . 33
Seçki məntəqəsinin səslərin hesablanması proseduru üçün təşkili . . . . . 34
Seçki qutusu açılanadək həyata keçirilməli prosedurallar . . . . . 34
Seçicilərin siyahılarının, korlanmış və istifadə edilməmiş seçki bülletenlərinin möhürlənməsi . . . . . 35
Səslərin sayılma prosesinin audio-video fiksasiyası . . . . . 35
Aparılası seçki qutusunun açılması . . . . . 36
Əsas seçki qutusunun açılması . . . . . 36
Seçki bülletenlərinin çeşidlənməsi . . . . . 37
Seçki bülletenlərinin hesablanması . . . . . 38
Seçki bülletenlərinin möhürlənməsi . . . . . 38
Səsvermə nəticələrinin yekun protokolunun tərtibi . . . . . 38
Səsvermə nəticələrinin yekun protokolunun aşkarlığı . . . . . 40
Qeydiyyat jurnalının bağlanması, səsvermə günün Qeydlər kitabının möhürlənməsi, səsvermə sənədlərinin Dairə Seçki Komissiyasına verilməsi . . . . . 40

**IV. HİSSƏ. SƏSVERMƏ GÜNÜNÜN ƏRİZƏ/ŞİKAYƏTLƏRİ** . . . . . 42
I FƏSİL. SƏSVERMƏ GÜNÜNÜN ƏRİZƏ/ŞİKAYƏTLƏRİNİN QEYDƏ ALINMASI . . . . . 43
SSəsvermə günü ərizə və şikayətlərdə nöqsanların aşkarlanması qaydası . . . . . 43
II FƏSİL. SƏSVERMƏ GÜNÜ ƏRİZƏ/ŞİKAYƏTLƏRƏ REAKSİYA . . . . . 45
Əlavə №1. Seçki komissiyasına təqdim olunmuş ərizə/şikayətin rekvizitləri . . . . . 46
Əlavə №2. Arayış-ərizə/şikayətin Məntəqə seçki komissiyasında qeydiyyatdan keçirilməsi haqqında . . 47
Əlavə №3. Məntəqə seçki komisiyyanın sədrinin səlahiyyətləri . . . . . 48
Əlavə №4. Səsvermə günü Məntəqə seçki komissiyası katibinin səlahiyyətləri . . . . . 61
Əlavə №5. Seçicilər axınını nizamlayan komissiya üzvünün funksiyaları . . . . . 65
Əlavə №6. Seçiciləri qeydə alan komissiya üzvlərinin funksiyaları . . . . . 66
Əlavə №7. Aparılası seçki qutusunu daşıyan komissiya üzvlərinin funksiyaları . . . . . 68
Əlavə №8. Seçki qutusuna və xüsusi zərflərə nəzarət edən komissiya üzvnün funksiyaları . . . . . 70
Əlavə №9. Seçki məntəqəsində foto-video çəkiliş . . . . . 71

# I HİSSƏ

## MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ TƏRKİBİ VƏ İŞ QAYDASI

# I FƏSİL. MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ KOMPLEKTLƏŞDİRİLMƏSİ QAYDASI

## MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ KOMPLEKTLƏŞDİRİLMƏSİI QAYDASI

*(Seçki məcəlləsi - maddə 8.21; maddə 24.1,2,4; maddə 25.14; maddə 29.9; maddə 45.4.a; maddə 196[1].14, maddə 198.6)*

Məntəqə seçki komissiyası 17 üzvdən çox olmayaraq ibarət olur:

- 8 üzvü müsabiqə əsasında Dairə Seçki Komissiyası seçir;
- 9 üzvü partiyalar təyin edirlər.

Məntəqə seçki komissiyası üzvünün səlahiyyət müddəti Məntəqə Seçki Komissiyasının birinci yığıncaq günü başlayır və müvafiq Dairə Seçki Komissiyasında püşkatma nəticələrinin yekun protokolunu tərtib etdikdən sonra dayanır.

Məntəqə Seçki Komissiyası üzvünü səsvermə gününə qədər son 20 gün ərzində (13 mart), səsvermə günü (2 aprel) və səsvermə günün sonrakı günü (3 aprel) çağırmaq qadağandır.

**DİQQƏT!**

Seçki komissiyasının üzvü onu təyin edən/seçən subyektin nümayəndəsi deyildir. O, öz işində müstəqildir və yalnız Gürcüstan Konstitusiyasına, qanuna və müvafiq qanunvericilik aktlara tabedir.

Məntəqə seçki komissiyasının üzvünə seçkiqabağı aqitasiya etməyə və aqitasiyasında iştirak etmək qadağan olunur.

## MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASI ÜZVÜNÜN SƏLAHİYYƏTLƏRİ

*(Məntəqə Seçki Komissiyasının reqlamenti – maddə 5)*

Məntəqə Seçki Komissiyası üzvü müvafiq komissiya üzvü təyin olduğu/seçildiyi andan məcburdur:

- Qanunvericiliklə müəyyən olunmuş qaydada komissiyanın fəaliyyətində iştirak etmək;
- Komissiya üzvünün ixtisasını artırmaq məqsədilə Gürcüstan Seçki administrasiyası/təhsil mərkəzi tərəfindən təşkil edilmiş kurslarda və treninq/seminarlarda iştirak etmək;
- Komissiyanın iclasında və komissiya tərəfindən həyata keçirilisi seçki tədbirlərində iştirak etmək;
- Üzürlü səbəblərə görə iclasda iştirak etmədikdə komissiya sədrinin müavininə və ya komissiya katibinə bu haqqda bildirməli;
- Komissiya Sədri tərəfindən verilmiş öhdəlikləri vaxtında həyata keçirməq.
- Səsvermədən bir gün əvvəl, səsvermə günü və səsvermənin ertəsi günü, həmçinin lazım olduqda məntəqə seçki komissiyası sədrinin göstərişi ilə məntəqə seçki komissiyasında olmaq.

**DİQQƏT!**

Məntəqə Seçki Komissiyası üzvləri tərəfindən qeyd olunan öhdəlikləri yerinə yetirlmədikdə/yaxşı yerinə yetirmədikdə Ali Komissiya tərəfindən intizam xətası kimi müzakirə oluna bilər və onlara qarşı intizam məsuliyyəti daşımaq əsası qoyula bilər.

## MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASI SƏDRİNİN/KOMİSSİYA SƏDR MÜAVİNİNİN/KOMİSSİYA KATİBİNİN SEÇİLMƏSİ QAYDASI

*(Seçki məcəlləsi – maddə 25)*

Məntəqə seçki komissiyasının sədri, məntəqə seçki komissiyası sədrinin müavini, məntəqə seçki komissiyasının katibi məntəqə seçki komissiyasının ilk iclasında, məntəqə seçki komissiyası üzvünün səlahiyyət müddəti, adlı səsvermə ilə,

dairə seçki komissiyası tərəfindən seçilmiş məntəqə seçki komissiyası üzvlərindən Məntəqə Seçki Komissiyası o şərtlə seçir, əgər namizədi, o cümlədən Dairə Seçki Komissiyası tərəfindən seçilmiş məntəqə seçki komissiyası üzvlərinin əksəriyyəti də dəstəkləndi. Məntəqə Seçki Komissiyasının ən azı 2 üzvünün namizədini irəli sürmək hüququ vardır.

**DİQQƏT!**

Məntəqə seçki komissiya sədri /komissiya sədrinin müavini / komissiya katibi olaraq eyni namizəd yalnız iki dəfə adlandırıla bilər.

Məntəqə seçki komissiya sədri / komissiya sədrinin müavini / katibi olaraq adlandırılan namizədin səsvermədə iştirak etmək və öz namizədinin leyhinə səs vermək hüququna malikdir.

Məntəqə seçki komissiyasının iclasında protokol tərtib edilir, onu iclasın sədri və komissiya katibi imzalayırlar. İclasın protokolu iclasdan sonra 1 gün müddətində hazırlanmalı, lakin protokolda iclasın keçirilmə tarixi göstərilməlidir. Məntəqə seçki komissiyası sədrinin / sədr müavininin / komissiya katibinin seçilməsi məntəqə seçki komissiyasının qərarı ilə rəsmiləşdirilir.

Seçki komissiyasının sədri / sədr müavini / komissiya katibi əgər müəyyən edilmiş müddətdə seçilmədikdə, sözügedən vəzifəli şəxsin vəzifəsini o seçilənədək səsvermədə ən çox səs toplayan komissiya üzvü, lakin bərabər səs olduqda – onlar arasında püşk atma ilə təyin olunan şəxs yerinə yetirir.

# II FƏSİL. MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ İŞ QAYDASI

## MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ RƏHBƏR ŞƏXSLƏRİNİN SƏLAHİYYƏTLƏRİ

*(Seçki məcəlləsi - maddə 8.15; maddə 27.1,2,3; Məntəqə Seçki Komissiyasının reqlamenti – maddə 4.1; maddə 9.4)*

**Məntəqə seçki komissiyasının rəhbər şəxsləri aşağıdakılardır:**

- Komissiya sədri;
- Komissiya sədrinin müavini;
- Komissiya katibi;

**Məntəqə seçki komissiyasının sədri**

- Məntəqə seçki komissiyasında tam administrasiya funksiyasını yerinə yetirir;
- Komissiyanın iclasını çağırır və ona rəhbərlik edir;
- Seçki komissiyasının işinə mane olan və qaydanı pozduğu təqdirdə pozan şəxsi inzibati binadan çıxarılması məsələsinə dair sərəncamla qərar qəbul edir;
- Komissiyaya daxil olmuş sənədləri və korrespondensiyaları qəbul edir və paylayır;
- Seçki sənədlərinin və inventarının saxlanılmasına və verilməsinə şəxsən məsuliyyət daşıyır;
- Komissiya sədrinin müavininə, komissiya katibinə və komissiyanın başqa üzvlərinə seçki administrasiyasının reqlamenti haqqında tapşırıqlar verir;
- Səsvermə günü komissiya üzvləri arasında funksiyaların püşkatma yolu ilə bölünməsini təşkil edir;
- Səsvermə günü seçki məntəqəsinin binasının asayişin qorunmasına məsuliyyət daşıyır;
- Səsvermə binasına müvafiq döş nişanı olmayan şəxsləri buraxmamağa borcludur;
- Səsvermənin nəticələri yekunlaşdırılan andan etibarən bütün səsvermə sənədini Ali Dairə Seçki Komissiyasına təqdim edir.
- Gürcüstan seçki qanunvericiliyi ilə verilən digər səlahiyyətləri həyata keçirir.

**Məntəqə seçki komissiyası sədrinin müavini:**

- Komissiya sədrinin vəzifəsini yerinə yetirir, əgər komissiyanın sədri yoxdursa və yaxud o, öz vəzifəsini yerınə yetirə bilmirsə;
- Komissiya sədrinin sərəncamı ilə, komissiya sədrinin ayrı-ayrı səlahiyyətlərini yerinə yetirir (sərəncam ilə verilmiş səlahiyyət çərçivələri və müddəti dəqiq müəyyən olunmalıdır).

**Məntəqə seçki komissiyasının katibi**

- Komissiya iclasının gündəliyini və sərəncamların layihələrini hazırlayır;
- Kütləvi informasiya verilməsinə məsuliyyət daşıyır;
- Komissiya iclaslarının protokollarını, o cümlədən, səsvermə nəticələrinin yekun protokolunu tərtib edir;
- Gürcastan Orqanik qanunu “Gürcüstan Seçki Məcəlləsi” ilə verilmiş digər səlahiyyətləri həyata keçirir.

**Məntəqə seçki komissiyasının iclası açıqdır, orada yalnız iştirak etmək hüququ vardır:**

- MSK-nın və Dairə Seçki Komissiyası üzvlərinin;
- MSK-nın və Dairə Seçki Komissiyası nümayəndələrinin;
- MSK aparatının və müvafiq Dairə Seçki Komissiyasının əməkdaşlarının;
- MSK-da və ya müvafiq seçki komissiyasında akreditə olunmuş media nümayəndələrinin;
- Müvafiq Məntəqə Seçki Komissiyasında seçki subyektlərinin hərəsinin bir nəfər nümayəndəsinin;
- MSK-da və ya müvafiq Dairə Seçki Komissiyasında qeyd olunmuş yerli müşahidəçi təşkilatların hərəsinin bir nəfər müşahidəçisinin;

- MSK-da qeyd olunmuş beynəlxalq müşahidəçi təşkilatların iki nəfərdən çox olmayan nümayəndəsinin (tərcüməçi ilə birlikdə).

**DİQQƏT!**

Komissiyanın işinə maneçilik törədildiyi və asayişin pozulduğu təqdirdə pozan şəxsi (o cümlədən, komissiya üzvünün) seçki komissiyasının iclasından qovmaq məsələsi haqqında seçki komissiyası qərar qəbul edir, bu iclas protokoluna qeyd etdirilir.

Pozan şəxsi seçki komissiyasının iclasından çıxarmaq onun seçki komissiyasının binasından/səsvermə binasından çıxarmaq deməkdir. Əgər pozan şəxs çıxarılma qərarını könüllü olaraq yerinə yetirmirsə, komissiya sədri polisə müraciət edir. Polis şəxsin çıxarılmasına dair qərarı dərhal icra etmək məcburiyyətindədir.

## MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ KARGÜZARLIQ QAYDASI

*(Məntəqə seçki komissiyasının reqlamenti - maddə 11)*

Komissiyada Qeydiyyat jurnalı mövcuddur, onun icrası üçün komissiyanın katibi məsuliyyət daşıyır, lakin komissiya katibi olmadıqda, məntəqə seçki komissiyası sədrinin tapşırığı ilə, məntəqə seçki komissiyasının üzvlərindən biri (komissiyanın səlahiyyətli şəxsi).

Komissiyanın səlahiyyətli şəxsi səsvermə günü istisna olmaqla, iş günü saat 10-dan 18:00-dək komissiyada seçki sənədlərini, ərizələrini, şikayətlərini qəbul edir, verir və onları qeyd edir-qeydiyyatdan keçirir.

Qeydiyyat jurnalı iki hissəyə bölünür: komissiyaya daxil olan və komissiyadan çıxan sənədlər.

### I. Daxil olan sənədlər

Komissiyanın səlahiyyətli şəxsi komissiyaya daxil olan sənədləri (ərizə, şikayət, arayış) dərhal fasiləsiz ardıcıllıqla daxil olma sırasına əsasən jurnalda qeydiyyata almağa borcludur. Hər sənədə müvafiq nömrə veriləcək. Jurnala onun daxil olma tarixi və səhifələrin sayı daxil edilir. Komissiyanın səlahiyyətli şəxsi qeydiyyat jurnalında, ərizəçinin / şikayətçinin şəxsiyyətini, həmçinin digər əlavə məlumatlarıda göstərməyə borcludur. Qeydiyyat jurnalında qeydə alınan bütün sənədlər komissiyanın səlahiyyətli şəxsi tərəfindən komissiya sədrinə təqdim olunur.

**DİQQƏT!**

Sənədi/ərizəni qəbul etdikdən və qeydiyyat jurnalında müvafiq qeydiyyatdan keçirdikdən sonra komissiyanın səlahiyyətli şəxsi ərizəçi/şikayətçiyə yazılı şəkildə arayış (bax əlavə N2) verməyə borcludur, hansına ki, ərizənin/şikayətin qəbul olunduğu tarix və dəqiq vaxt, həmçinin jurnalda ona verilən qeydiyyat nömrəsi də qeyd edilir. Komissiyanın səlahiyyətli şəxsi qeyd edilən arayışı öz imzası ilə təsdiq etməlidir.

### II. Çıxan sənədlər

Komissiyanın səlahiyyətli şəxsi qeydiyyat jurnalında sənədin verildiyini çıxan sənədlər hissəsində qeydə almağa borcludur.

Komissiyadan hər hansı bir sənədin qəbulu ərizəçi / şikayətçi tərəfindən qeydiyyat jurnalında imzalanaraq təsdiqlənir, Komissiyanın səlahiyyətli şəxsi "Sənəd verilib" yazısını yazır və tarixi və dəqiq vaxtı göstərir.

Məntəqə Seçki Komissiyası tərəfindən seçkilər haqqında məlumatı və seçki sənədlərini onların tələb edildiyindən 2 gün müddətində, lakin əgər qeyd olunan məlumatın verilməsi daha çox vaxt tələb edərsə, Gürcüstanın ümumi administrasiya məcəlləsi ilə müəyyən edilmiş qaydada (hüquqi aktlar istisna olaraq, hansıların ki, şikayət müddəti Gürcüstanın Orqanik Qanunu "Gürcüstanın Seçki Məcəlləsi" 77-ci maddəsi ilə müəyyən edilib) verilir.

**DİQQƏT!**

Məntəqə Seçki Komissiyası/komissiya sədrinin sərəncamı və səsvermə günün nəticələrinin yekun protokolunun surətləri tələb olunduğu halda dərhal təqdim edilir.

Qeydiyyat jurnalı səsvermə günündən başqa hər gün saat 18:00-da bağlanır. Qeydiyyat jurnalın hər iki hissəsində, sonuncu qeyddən sonra belə bir qeyd verilir "jurnal bağlanmışdır", sonra tarix və dəqiq vaxt göstərilir. Göstərilən qeydi komissiyanın səlahiyyətli şəxsi öz imzası ilə təsdiq edir. Qeydiyyat jurnalının bağlanmasından sonra həmin tarixdə əlavə hər hansı bir sənədi qeyd etmək qadağandır.

**DİQQƏT!**

Səsvermə günü məntəqə seçki komissiyasının katibi məntəqə seçki komissiyasına ərizələri, şikayətləri Gürcüstan Orqanik Qanunu "Gürcüstan Seçki Məcəlləsi" ilə müəyyən edilmiş qaydada və müddətdə qəbul edir və onları qeyd edir.

Səsvermə günü Qeydiyyat jurnalı bütün səsvermə prosesinin paralelində yazılır. Səsvermə günü bütün prosedurların bitdikdən və müvafiq seçki sənədlərinin qeydiyyatdan keçirdikdən sonra Qeydiyyat jurnalı komissiya katibinin və sədrinin imzalaarı ilə bağlanır və Məntəqə Seçki Komissiyasının möhürü ilə təsdiqlənir.

## MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ HÜQUQİ AKTLARI

*(Seçki məcəlləsi – maddə 30.1.c)*

Məntəqə seçki komissiyasının hüquqi aktları aşağıdakılardır:

- Komissiyanın sərəncamı;
- Komissiya sədrinin sərəncamı;
- Səsvermə nəticələrinin yekun protokolu.

## MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ İCLASINDA SƏRƏNCAMIN QƏBUL OLUNMASI QAYDASI

*(Seçki məcəlləsi –maddə 8.4,5; maddə 25.1; maddə 26.3; maddə 30.4)*

Məntəqə seçki komissiyasının sərəncamlar layihəsini komissiya katibi hazırlayır Komissiyanın sərəncamı komissiyanın iclasında iştirak edənlərin əksəriyyəti ən azı komissiyanın tam tərkibinin üçdə biri (ən azı 6 üzvü) tərəfdar çıxdıqları halda qəbulolunmuş hesab edilə bilər. Səslərin bərabər bölündüyü halda kadr məsələləri üzrə qərar qəbul edilməsi istisna olmaqla, komissiya iclasının sədrinin səsi həlledici hesab oluna bilər (ən azı 9 səs).

**DİQQƏT!**

Məntəqə seçki komissiyasının sədri, məntəqə seçki komissiyası sədrinin müavini, məntəqə seçki komissiyasının katibi məntəqə seçki komissiyası üzvünün səlahiyyət müddəti, adlı səsvermə ilə, dairə seçki komissiyası tərəfindən seçilmiş məntəqə seçki komissiyası üzvlərindən Məntəqə Seçki Komissiyası o şərtlə seçir, əgər namizədi, o cümlədən Dairə Seçki Komissiyası tərəfindən seçilmiş məntəqə seçki komissiyası üzvlərinin əksəriyyəti də dəstəkləndi.

Məntəqə Seçki Komissiyanın sərəncamına komissiya iclasının sədri və komissiyanın katibi imza atır. Komissiyanın sərəncamı ertəsi gün komissiya məntəqəsində asılır.

# II HİSSƏ

## SEÇKİQABAĞI DÖVRDƏ MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ FƏALİYYƏTİ

# I. FƏSİL. SEÇİCİLƏRİN SİYAHILARI

## SEÇİCİLƏRİN VAHİD SİYAHISI VƏ ONUN DƏRC OLUNMASI QAYDASI

*(Seçki məcəlləsi – maddə 8.25; maddə 31.11; maddə 34.1)*

Məntəqə seçki komissiyasına onun birinci yığıncaq günündən geç olmayaraq MSK tərəfindən təsdiqlənmiş seçicilərin vahid siyahısının ictimai məlumat üçün aid olan versiyasını vermək.

**DİQQƏT!**

Məntəqə Seçki Komissiyası seçicilərin siyahıları və onlarla əlaqədar şikayəti daxil etmək qanunla nəzərdə tutulmuş qaydası komissiyanın birinci yığıncaq qünü, Məntəqə Seçki Komissiyanın və səsvermə binalarında nəzərə çarpan yerə vurulmalıdır.

Məntəqə seçki komissiyasına  səsvermə gününə ən azı iki gün qalmış (31 mart) dəqiqləşdirilmiş siyahıların ictimai informasiya üçün mövcud olan son variantları (divar siyahısı fotoşəkillərsiz), lakin səsvermə gününə qədər 12 saatdan gec olmayaraq - seçki komissiyası üçün mövcud olan dəqiqləşdirilmiş siyahıların son variantları (masa siyahısı fotoşəkillərlə) verilməlidir.

**DİQQƏT!**

Divar siyahılarının ilkin versiyası götürülməli və həmin yerdən dəqiqləşdirilmiş versiya yerləşdirilməlidir;

Məntəqə Seçki Komissiyası üzvü tərəfindən masa siyahısını və onun surətinin çıxarması, onun fotovideo çəkilməsi yolverilməzdir, həmçinin seçicilərin masa siyahısında qeyd olunmuş seçicinin məlumatlarını işləmək (o cümlədən toplamaq, yazmaq, saxlamaq), istifadə etmək, aşkarlamaq, vermək və ya yaymaq, qeyd olunan hərəkətlərin həyata keçirilməsi seçki məcəlləsi və MSK-nin hüquqi aktları ilə nəzərdə tutulmuş Məntəqə Seçki Komissiyasının səlahiyyətini həyata keçirmək üçün lazım gəldiyi mühitdən başqa yolverilməzdir.

## SEÇİCİLƏRİN VAHİD SİYAHISINDA GÖSTƏRİCİLƏRİNİN YOXLANILMASI

*(Seçki məcəlləsi - maddə 26.2. b; maddə 31.7)*

Məntəqə seçki komissiyası:

- Seçicilərin vahid siyahısının doğruluğunu yoxlayır və səhvlərin və yaxud dəqiqsizliyin aşkara çıxarıldığı təqdirdə, ertəsi gündən gec olmayaraq, lakin seçkilər günündək ən azı 18 gün qalmış (15 mart), siyahıda dəyişikliklər olunması təklifi ilə Dairə Seçki Komissiyasına müraciət edir;
- Seçicilərin siyahılarla əlaqədar daxil olmuş ərizələri (əlavə edilmiş sənədlərlə - mövcud olduğu halda) dərhal Dairə Seçki Komissiyasına təqdim edir.

## SEÇİCİLƏRİN XÜSUSİ SİYAHISI

*(Seçki məcəlləsi – maddə 31.12; maddə32; maddə 34.2 d)*

Dairə seçki komissiyası  seçki gününə ən geci 3 gün qalmış (30 mart) təyin edir və sərəncam ilə seçicilərin xüsusi siyahısını təsdiqləyir və həmin komissiya sədri və katibinin imzası ilə dərhal müvafiq məntəqə seçki komissiyasına verir. Seçicilərin xüsusi siyahısının ictimai məlumatı üçün aid olunan versiya (divar siyahısı) səsvermə binasında nəzərə çarpan yerə vurulur.

Dairə Seçki Komissiyası Məntəqə Seçki Komissiyasına seçki komissiyasında işləmələrinə görə səsvermə günü öz qeydiyyat yerlərinə görə  seçkilərdə iştirak edə bilməyən seçki administrasiya məmurları haqqında məlumat verir. Xüsusi siyahıda seçicini daxil etmə halında seçicilərin vahid siyahısında onun soyadının kənarında, damada "faktiki vəziyyəti"qeyd olunmalıdır "komissiya üzvü".

Əgər seçici siyahıda qeydiyyatdan keçmək xahişi ilə seçicilərin siyahısının dəqiqliyini təmin edən komissiyaya seçki gününə

ən azı 18 gün qalmış (15 mart) Məntəqə Seçki Komissiyasına seçkilərdə iştirak etmək xahişi ilə müraciət edə bilməmişdirsə (xaricdən gəlmişdir, stasionar müalicə müəssisəsindən çıxmışdır, penitensiyar müəssisədən buraxılmışdır) müvafiq sənədlərin təqdim olunduğu təqdirdə (sərhədi keçmək barədə pasportda qeydiyyat, stasionar müalicə müəssisəsindən arayış, penitensiyar müəssisəsindən buraxılması haqqında arayış) Məntəqə seçki komissiyası onu xüsusi siyahıda qeydə alır və təqdim olunmuş sənədlərin foto surətlərini seçicilərin siyahısına əlavə edir (Seçki məcəlləsi - maddə 31.12).

Əgər, seçici tərəfindən təqdim olunan Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi/pasportunda qeydiyyat ünvanı qeyd olunmayıbsa, Məntəqə Seçki Komissiyasının sədri MSK-nın qaynar xəttinə əlaqə saxlayır.

## SEÇKİLƏRDƏ TƏKƏRLİ KÜRSÜDƏN İSTİFADƏ EDƏN SEÇİCİNİN İŞTİRAK ETMƏSİNİN MÜVƏQQƏTİ QAYDASI

Təkərli kürsüdən istifadə edən seçicilər, majoritar seçki dairənin ərazisindəki hər hansı uyğunlaşdırılmış seçki məntəqəsində seçkilərdə iştirak etməyə səlahiyyətlidirlər, bunun üçün səsvermə günündən ən azı 6 gün əvvəl (27 mart) dairə və ya məntəqə seçki komissiyasına yazılı və ya telefon vasitəsilə şifahi ərizə ilə müraciət etməlidir.

Müvafiq seçki komissiyasının səlahiyyətli şəxsi seçicinin ərizəsini qeydiyyat jurnalında qeyd edir və ərizənin qəbu etməsini imzalayaraq təsdiqləyir. Yazılı ərizədə seçicinin şəxsi nömrəsi göstərilməlidir. Telefonla şifahi ərizə alındıqda, müvafiq seçki komissiyasının səlahiyyətli şəxsi qeydiyyat jurnalında telefon mesajının qəbulunun dəqiq vaxtını, telefon nömrəsini, seçicinin adı, soyadını, onun şəxsi nömrəsini və iştirak etmək istədiyi uyğunlaşdırılmış seçki məntəqəsinin nömrəsini göstərməlidir. Telefonla şifahi ərizəni qəbul dərkən komissiyanın səlahiyyətli şəxsi qeydiyyat jurnalında imzalası ilə təsdiqləyir.

**DİQQƏT!**

Təkərli kürsüdən istifadə edən seçici Məntəqə Seçki Komissiyasına müraciət etməsi halında, Məntəqə Seçki Komissiyası seçici haqqında məlumatı səsvermə gününə qədər (27 mart) 6 gündən gec olmayaraq Dairə Seçki Komissiyasına təqdim etməlidir.

Məntəqə Seçki Komissiyası üzvləri, seçki subyektlərinin nümayəndələri və müşahidəçilər təkərli kürsüdən istifadə edən seçicilərin uyğunlaşdırılmış seçki məntəqəsində səs vermək tələbinin əsaslığını yoxlamaq və səsvermə gününə qədər istənilən vaxt Məntəqə Seçki Komissiyası qarşısında bu seçicilərin müvafiq xüsusi siyahıya daxil edilməsi məsələsini qaldırmaq hüququna malikdirlər.

Dairə Seçki Komissiyası müvafiq Məntəqə Seçki Komissiyalarından alınan, o cümlədən seçicilərin müvafiq xüsusi siyahıya daxil edilməsinin məqsədəuyğunluğ məsələsi barədə əldə edilmiş məlumatlar və həmçinin, mövcud məlumatlar əsasında səsvermə günündən 3 gün gec olmayaraq (30 mart), uyğunlaşdırılmış seçki məntəqələrinin seçicilərinin xüsusi siyahısını müəyyənləşdirir və sərəncamla təsdiq edir, həmin komissiya sədrinin və katibin imzaları ilə dərhal müvafiq Məntəqə Seçki Komissiyasına təhvil verir (ümumi məlumat üçün versiyanı (divar siyahısı)).

**DİQQƏT!**

Uyğunlaşdırılan seçki məntəqəsində seçicilərin xüsusi siyahısının Dairə Seçki Komissiyası tərəfindən Məntəqə Seçki Komissiyasına təqdim edilən ictimai məlumat üçün mövcud olan versiyası (fotoşəkil olmadan) dərhal Məntəqə Seçki Komissiyasının (səsvermə) binasında görünən yerə vurulmalıdır.

Səsverməyə qədər ən geci 12 saat, Dairə seçki komissiyası müvafiq Məntəqə Seçki Komissiyasına uyğunlaşdırılmış seçki məntəqəsinin seçicilərinin xüsusi siyahısının (masa siyahısı) seçki komissiyasına nəzərdə tutulmuş versiyasını təqdim edir.

Uyğunlaşdırılmış seçki məntəqəsinin seçicilərinin xüsusi siyahısına Vahid Seçici Siyahısında olduğu kimi eyni seçici məlumatları daxil edilir və əlavə olaraq bu seçicinin Vahid Seçici Siyahısında sıra nömrəsi qeyd edilir.

Uyğunlaşdırılmış seçki məntəqəsinin seçicilərinin xüsusi siyahısına təkərli kürsdən istifadə edən seçicini daxil edərkən, müvafiq Dairə Seçki Komissiyası, məntəqə seçki komissiyasına, həmin məntəqədə xüsusi siyahıda qeydiyyata alınan seçici barədə məlumat verir. Belə halda, Məntəqə Seçki Komissiyası seçicilərin vahid siyahısında seçicinin soyadının

kənarındakı "faktiki vəziyyəti" sütununa "təkərli kürsü istifadəçisidir" yazısını yazır. Qeyd Məntəqə Seçki Komissiyası sədrinin və komissiya katibinin imzaları ilə təsdiqlənir.

## APARILASI SEÇKİ QUTUSU SİYAHISININ FORMALAŞMASI QAYDASI

*(Seçki məcəlləsi - maddə 33; maddə 34; maddə 66.6)*

Aparılası seçki qutusu siyahısının formalaşmasına görə Məntəqə seçki komissiyası məsuliyyət daşıyır. Aparılası seçki qutusunun siyahısı vahid və xüsusi siyahıları əsasında tərtib olunur.

Seçicini aparılası seçki qutusu siyahısına daxil edirlər, əgər:

- Sağlamlıq vəziyyəti ilə əlaqədar səsvermə binasına gedə bilməyirsə (bu cür seçicilərin sayı seçki məntəqəsində vahid siyahıda mövcud olan seçicilərin 3 faizindən artıq olmamalıdır. Qeyd olunan sayın doldurulmasından sonra Məntəqə seçki komissiyasının sədri hər bir yeni daxil olan ərizə barədə dərhal Dairə Seçki Komissiyasına məlumat verməyə və müvafiq göstərişlər gözləməyə borcludur);
- Seçki məntəqəsinin ərazisindədir, lakin çətin gedilısi yerdədir (belə halda Dairə Seçki Komissiyası ilə məsləhətləşmə aparmaq tövsiyə edilir);

**DİQQƏT!**

Seçici səsverməyə ən azı 2 gün qalmış (30 mart) aparılası seçki qutusu vasitəsilə səs vermək tələbi ilə, yazılı və ya telefon vasitəsilə şifahi ərizə ilə Məntəqə seçki komissiyasına müraciət edir;

Seçicinin yazılı ərizəsində seçicinin şəxsi nömrəsi qeyd olunmalıdır. Bu ərizənin qəbul olunmasını komissiya katibi Qeydiyyat jurnalında imzası ilə təsdiq edir.

Komissiyanın katibi seçicinin telefon vasitəsilə şifahi ərizəsini qəbul etdiyi halda Qeydiyyat jurnalında telefon məlumatının daxil olmasının dəqiq vaxtını, telefon nömrəsini, seçicinin adını, soyadını, onun şəxsi nömrəsini və aparılası seçki qutusunun çatdırılacağı ünvanıqeyd edir. Telefon vasitəsilə şifahi ərizəni komissiya katibi Qeydiyyat jurnalında imzası ilə təsdiq edir.

Əgər həmin ünvan seçicinin qeydiyyatda olduğu Seçki məntəqəsinin ərazinə daxil deyilsə, ona məlumat verilir ki, qeyd olunan məntəqənin aparılası seçki qutusu siyahısına daxil edilməyəcəkdir.

- Müalicə olunmaq üçün xəstəxanada və ya başqa stasionar müalicə müəssisəsində yatır və orada seçkiməntəqəsi açılmır (Məntəqə seçki komissiyası səsvermə günü stasionar/müalicə idarəsində olan seçicibarəsində informasiyanı Dairə Seçki Komissiyasına səsvermə gününə ən azı 2 gün qalmış verməlidir);
- İnzibati həpsxanadadır
- Həbsxanadadır.
- Hərbi xidmətçidir, dövlət sərhədində yerləşmiş hərbi hissədə vəyaxud sərhəd polisinin altbölməsində qulluq edir, hansı ki, seçki məntəqəsindən uzaqda yerləşir;
- Gürcstan Müdafiə Nazirliyinin, Gürcüstan Daxili İşlər Nazirliyinin, Gürcüstanın Ədliyə Nazirliyinin sisteminə daxil olan dövlət altqurumları müəssisəsinin – xüsusi penitensiyar xidmətin, Gürcüstanın Dövlət Mühafizə Xİdmətinin, Gürcüstanın Çağırış Xidmətinin və Dövlət Müdafiəsinin Xüsusi Xidmətinin Hərbi və xüsusi rütbə malik olan şəxsdir, onun iş vəziyyəti və ya sağlamlıq vəziyyətinə görə qeydiyyat yerindən fərqli ünvanda olmağını tələb edir, hansı ki, digər seçki dairəsinə aiddir;
- Ədliyə Nazirliyinin sisteminə daxil olan dövlət altqurumları müəssisəsində– xüsusi penitensiyar xidmətində xidmət edir və iş vəziyyətinə görə iş yerini tərk edə bilməyir;

**DİQQƏT!**

Aparılası seçki qutusunun siyahısında daxil olunansı seçicilər haqqında məlumat dərhal səsvermə binasında nəzərə çarpan yerə vurulmalıdır.

Aparılası seçki qutusunun siyahısında (masa siyahısında) seçicinin eynən o göstəriciləri daxil edilir, hansı ki, seçicilərin vahid siyahısında mövcuddur, fotoşəkildən başqa və onun sıra nömrəsi vahid və ya xüsusi siyahıda əlavə qeyd edilir.

Aparılası seçki qutusunun siyahısı ictimai informasiya üçün təyin edilən versiya (seçicinin şəxsi nömrəsindən başqa həmin məlumatların qeyd ediləcəyi  divar siyahısı və masa siyahısı) elə tərtib edilən andan səsvermə binasında nəzərə çarpan yerdən asılmalıdır.

Aparılası seçki qutusunun siyahısı (divar və masa) Məntəqə Seçki Komissiyasının sədri və komissiya katibinin imzası ilə təsdiq olunur.

**DİQQƏT!**

Aparılası seçki qutusunun siyahısına seçicini daxil etdiyi halda seçicilərin vahid və xüsusi siyahısında onun soyadının kənarında, damada "faktiki vəziyyət" qeyd olunmalıdır "aparılası qutu", lakin vahid sihayının divar və masa versiyasında, müvafiq səhifəsində Məntəqə Seçki Komissiyasının sədri və komissiya katibi imza atır;

Məntəqə seçki komissiyasının üzvlərinin, seçki subyektləri nümayəndələrinin vəmüşahidəçilərin aparılası seçki qutusu vasitəsilə səsvermək tələbinin əsaslı olmasını və səsvermə gününədək istənilən vaxt Məntəqə seçki komissiyasının qarşısında bu şəxslərin aparılası seçkiqutusu siyahısına daxil edilməsinin məqsədəuyğunluğu məsələsini qoymaq hüququ vardır. Qeyd edilən məsələ ilə əlaqədar qərarı Məntəqə Seçki Komissiyası qəbul edir.

## SEÇİCİNİN KARTI

*(Seçki məcəlləsi - maddə 35).*

Məntəqə Seçki Komissiyası seçki məntəqəsinin ərazisində qeydə alınmış və seçicilərin vahid siyahısına daxil edilmiş bütün seçicilərə seçki gününə ən geci 2 gün qalmış (31 mart) Dairə Seçki Komissiyasından qəbul etdiyi seçici vəsiqəsini vermək səlahiyyətinə malikdir.

Seçicilərə paylanılmamış vəsiqələri  Məntəqə Seçki  Komissiyası üzvləri komissiyanın katibinə qaytarmalıdırlar.

**DİQQƏT!**

Seçici vəsiqəsinin qəbul olunmaması səsvermədə iştirak etmək hüququnun məhdudlaşdırılması  üçün əsas deyildir.

# II. FƏSİL. SEÇKİ SƏNƏDLƏRİNİN QƏBULU, SƏSVERMƏ BİNASININ TƏŞKİLİ

## DAİRƏ SEÇKİ KOMİSSİYASINDAN SEÇKİ SƏNƏDLƏRİNİN VƏ İNVENTARIN QƏBULU

Məntəqə seçki komissiyası səsverməyə hazırlıq və onun keçirilməsi məqsədilə Dairə Seçki Komissiyasından alır:

**Seçki sənədlərini:**

- Seçicilərin vahid siyahısının son versiyasını (divar və masa);
- Seçicilərin xüsusi siyahısı (divar və masa);
- Aparılası seçki qutusu siyahısının (divar və masa) blanklarını;
- Seçici vəsiqəsi;
- Seçki bülletenlərinin bloknotları;
- Xüsusi zərfləri;
- Səsvermə gününün qeydlər kitabını (zonar keçirilmiş kitab);
- Nəzarət vərəqlərini;
- Səsvermə nəticələrinin yekun protokol və düzəliş protokol formalarını;
- Səsvermə nəticələrin nümayiş protokolunu.

**Seçki inventarını:**

- Əsas və aparılası şəffaf seçki qutularını;
- Seçki qutularının möhürlərini;
- Seçki qutularının kəsiyinin möhürləri;
- Səsvermə kabinalarını (lazımı gəldikdə MİM şəxslər üçün adaptasiya olunmuş səsvermə kabinəsi);
- Markirovka mayesini və markirovkanı yoxlayan xüsusi avadanlığı (ultrabənövşəyi fənər);
- Məntəqə seçki komissiyasının xüsusi möhürünü;
- Qeydiyyatçıların xüsusi möhürlərini (qeydiyyatçıların sayına uyğun olaraq);
- Surətçıxarma maşınını;
- Portativ kompüterlərini (mümkün olduqda);
- Mürəkkəb yastıqcaları;
- Böyüdücü linza zəif görən seçici üçün və xüsusi çərçivə kor seçicilər üçün.

**Digər seçki materiallarını:**

- Namizədlərin siyahıları;
- Seçki bülleteninin doldurulması üzrə təlimatı;
- Bülletenin hansı halda batil hesab edilməsi barədə qanundan çıxarışı;
- Seçki sənədlərinin qablaşdırıldığı zərfləri və s.

## SEÇKİ SƏNƏDLƏRİ VƏ İNVENTARININ QƏBUL-TƏHVİL PROTOKOLU

*(Seçki məcəlləsi – maddə 27.1.d; maddə 63.9,10).*

Məntəqə Seçki Komissiyasının sədri Dairə seçki komissiyasından seçki sənədlərinin/inventarın qəbulunda məsuliyyət daşıyan şəxsdir. Seçki bülletenlərinin, xüsusi zərflərin, komissiyanın möhürlərinin, yekun protokolunun və digər seçki sənədlərinin saxlanılmasına və təyinatına görə paylanmasına görə şəxsən məsuliyyəti daşıyır.

**DİQQƏT!**
Dair Seçki Komissiyası Məntəqə Seçki Komissiyasına səsvermə başlayana kimi saat 12-dən gec olmayaraq seçki komissiyası üçün mövcud olan dəqiqləşdirilmiş siyahıların son versiyalarını, seçki bülletenlərini və xüsusi zərfləri verir.

Dairə Seçki Komissiyası tərəfində Məntəqə Seçki Komissiyası üçün seçki bülletenlərini və xüsusi zərfləri verərkən qəbul-təhvil qktı iki dənə tərtib olunur və qeyd edilir:

- Onları təhvil verən və qəbul alan komissiyanın adları;
- Xüsusi zərflərin sayı;
- Bülletenlərin növləri;
- Bülletenlərin bloknotlarının sayı (onların nömrələri və bülletenlərin nömrələrini göndərməklə);
- Onları təhvil verən və qəbul alan şəxslərin kimliyi.

**DİQQƏT!**
Qəbul-təhvil aktını qeyd edənədək qəbul edici və təhvil verən şəxslər seçki bülletenlərinin rekvizitlərinin düzgünlüyünü və seçki bülletenlərinin və xüsusi zərflərin saylarının qəbul-təhvil aktda daxil olunan məlumatlara uyğun olduğunu yoxlayır. Bundan sonra seçki bülletenləri yenidən möhürlənir, bunu tərəflər imzaları ilə təsdiqləyir.

Qəbul-təhvil protokolunu seçki sənədlərini verən və qəbul edən şəxslər imzalayırlar. Aktın bir nüsxəsi Dairə Seçki Komissiyasında qalır, digəri Məntəqə Seçki Komissiyasına verilir. Qəbul-təhvil aktını Məntəqə Seçki Komissiyasının katibi Qeydiyyat jurnalının daxil olan sənədlər hissəsində qeydə alır.Qəbul-təhvil aktı ictimai məlumatdır.

## SƏSVERMƏ BİNASININ TƏŞKİLİ

*(Seçki məcəlləsi - maddə 58.4,5)*

Səsvermə prosedurlarını keçirmək üçün Məntəqə seçki komissiyasının üzvləri qanunla müəyyən olunmuş qaydalara əməl etməklə, seçkilərə ən azl bir gün qalmış (1 aprel) səsvermə binasını təşkil etməyə məcburdurlar. Məntəqə seçki komissiyası təşkil etməlidir:

- Seçicilərin qeydiyyat masalarını;
- Xüsusi zərflər üçün masa (seçki qutusuna yaxın yerləşdirilməlidir);
- Quraşdırılmış və möhürlənməmiş seçki qutuları.
- Hər 500 nəfər seçiciyə ən azı bir səsvermə kabinəsi.

Səsvermə binasında şəffaf seçki qutusu nəzərəçarpan yerdə elə qoyulmalıdır ki, seçici heç bir maneə olmadan ona yaxınlaşsın və zərfi qutuya atdıqdan sonra seçki məntəqəsini dərhal tərk etsin.

Seçki məntəqəsində nəzərəçarpan yerdən asılmalıdır:

- Seçicilərin vahid siyahısının ictimai informasiyası üçün təyin olunan versiya (divar siyahısı);
- Seçicilərin xüsusi siyahısının (olduğu halda) ictimai informasiyası üçün təyin olunan versiya (divar siyahısı);
- Aparılası seçki qutusunun siyahısının (olduğu halda) ictimai informasiyası üçün təyin olunan versiya (divar siyahısı);
- Namizədlərin siyahıları;
- MSK tərəfindən müəyyən olunmuş seçki bülletenlərinin doldurulması qaydası;
- Bülletenin hansı halda batil hesab olunması barədə qanundan çıxarış;
- Səsvermə nəticələrinin nümayiş protokolu.

**DİQQƏT!**
Əgər seçki bülletenində daxil olan seçki subyekti, hansı ki, seçkilərdə iştirak etmir, bu haqqda ərizə səsvermə binasında və gizli səsvermə kabinəsində nəzərə çarpan yerdə dərc edilməlidir.

# III HİSSƏ

## SƏSVERMƏ GÜNÜ MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASININ FƏALİYYƏTİ

# I FƏSİL. YENİ KORONAVİRUS (SARS-COV-2) SƏBƏB OLDUĞU İNFEKSİYANIN (COVID-19) YAYILMASININ PREVENSİYASI ÜÇÜN TƏDBİRLƏR

## YENİ KORONAVİRUS SƏBƏB OLDUĞU İNFEKSİYANIN YAYILMASININ PREVENSİYASI MƏQSƏDİ İLƏ, SƏSVERMƏ BİNASINDA KEÇİRİLƏSİ SANİTARİYA-GİGİYENİK TƏDBİRLƏR

Seçki məntəqəsinin açılmasından əvvəl və səsvermə nəticələrinin yekunlaşdırma prosesi başa çatdıqdan sonra səsvermə binasının təmizlənməsi və dezinfeksiyaedici məhlulla işlənilməsi təmin olunmalıdır.

Səsvermə binasının girişinə dezobariyer (kollektiv mühafizə vasitələri) və əl dezinfeksiyası üçün lazım olunan məhlul (səsvermə binasına girərkən və ya çıxarkən əli dezinfeksiya etmək məqsədi ilə) yerləşdirilməlidir.

Səsvermə günü ərzində səsvermə binasında tez-tez toxunulan səthlərin (o cümlədən qapı tutacaqları, iş masaları və s.) müvafiq qaydada təmizlənməli/dezinfeksiya edilməli və mütəmadi olaraq səsvermə binasının təbii havalandırılmalıdır.

Səsvermə günü üçün, səsvermə binasında olmaq hüququ olan bütün şəxslər tərəfindən istifadə edilən birdəfəlik salfetlər və ya digər istifadə olunan gigiyenik tullantılar üçün qapalı konteyner yerləşdirilməlidir.

Səsvermə günü səsvermə binası (fərdi qoruyucu vasitələrlə təchiz olunmuş) xidmətçi ilə təmin edilməlidir.

## YENİ KORONAVİRUS SƏBƏB OLDUĞU İNFEKSİYANIN YAYILMASININ PREVENSİYASI MƏQSƏDİ İLƏ, SƏSVERMƏ BİNASINA DAXİL OLARKƏN, ÇIXARKƏN VƏ BİNADA QALARKƏN VƏ HƏRƏKƏT EDƏRKƏN RİAƏT OLUNASI SANİTAR-GİGİYENİK TƏLƏBLƏR

Seçki binasında olma hüququ olan şəxs, termoskrininq (temperatur yoxlama) və dezinfeksiyaedici məhlulla əlini təmizləmədən səsvermə binasına buraxılmamalıdır. Seçicilərə qarşı termoskrininq olmur.

Komissiya üzvlərinin birinə göstəriş verin ki, səsvermə binasının girişində, daxil olan şəxslərin sağlamlıq vəziyyətini yoxlamaq məqsədilə, səsvermə binasında olma hüququ olan şəxslərin termoskrininqin keçirilməsini təmin etsin. Qızdırma - 37 ° C və ya 37 ° C-dən çox temperatur müəyyən olduqda, şəxs temperatur nəzarətinə məruz qalır (5 dəqiqəlik fasilələrlə). Təkrar qızdırma müəyyən olunduğu halda, şəxs seçki binasına buraxılmayacaq. Komissya katibinə qızdırma halları müəyyən edildikdə, Məntəqə Seçki Komissiyasının qeydlər jurnalına qeyd etməsini göstəriş verin.

Əgər səsvermə binasında olan şəxslərin təkrar termoskrininqə ehtiyac varsa və nəticədə qızdırma bildirilirsə, qızdırması olan şəxsə səsvermə binasını tərk etmə təlimatını verin. Əgər bu şəxs könüllü olaraq səsvermə binasını tərk etmə təlimatına əməl etmədikdə, Məntəqə Seçki Komissiyası bu şəxsin səsvermə binasından çıxarılması barədə müəyyən olunmuş qaydada qərar qəbul edir. Komissiya katibi qızdırma müəyyən olunduğu halda Məntəqə Seçki Komissiyasının qeydlər jurnalına qeyd edir.

**DİQQƏT!**

- ✓ Əgər partiya tərəfindən təyin olunan Məntəqə Seçki Komissiyası üzvünün hərarəti aşkar olunarsa, qeyd olunan məlumatı dərhal yuxarı Dairə Seçki Komissiyasına bildirilir, lakin Dairə Seçki Komissiyası tərəfindəm – Gürcüstan Mərkəzi Seçki Komissiasına və Məntəqə Seçki Komissiası üzvünü təyin edən partiyaya.
- ✓ Əgər hərarəti aşkar olunduğu səbəbdən, səsvermə binasına buraxılmadıqda və yaxud səsvermə binasını partiyanın təyin etdiyi Məntəqə Seçki Komissiyasının üzvü tərk etdikdə, partiyanın onun yerinə Məntəqə Seçki Komissiyasının digər üzvünü təyin etmək hüququ var (Yeni üzvə funksiyanın həvalə edilməsi məsələsinə Məntəqə Seçki Komissiyasının sədri qərar verir).
- ✓ Əgər hərarəti aşkar olunduğu səbəbdən, seçki subyektinin nümayəndəsi səsvermə binasına buraxılmadıqda və yaxud səsvermə binasını tərk etdikdə, seçki subyektinin digər nümayəndəsini dərhal təyin etmək hüququ var.
- ✓ Hərarəti aşkar olunduğu səbəbdən, partiya tərəfindən təyin olunan Məntəqə Seçki Komissiyasının yeni üzvü, seçki subyektinin yeni nümayəndəsi səsvermə binasına Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi, Gürcüstan vətəndaşının pasportunu təqdim etdikdə və müvafiq elektron proqramda təyin olunduğu barədə məlumatı yoxladıqdan sonra buraxılacaq.

Səsvermə binasında olma hüququ olan şəxs maskasız səsvermə binasına buraxılmayacaqdır. Beləliklə, səsvermə binasında olmaq yalnız maskanı istifadə edərək mümkündür

**DİQQƏT!**

- ✓ Sağlamlıq vəziyyətinə görə maska taxmaqda çətinlik çəkən şəxsə maskadan istifadə etməsi tələb olunmur, (o cümlədən, xroniki obstruktiv ağciyər xəstəliyi, bronxial astma, tənəffüs çatışmazlığı nəticəsində yaranan ürək-damar xəstəlikləri, autizm spektrinin pozulması və/və ya inkişaf anomaliyaları və ya qüsurlarına görə) maskanı istifadə etməkdə çətinlik çəkir, hansı ki, tibbi / həkimin arayışı və ya xəstəliklər haqqında hər hansı bir təsdiqləyən sənədlə təsdiq olunur (o cümlədən, tibbi-sosial ekspertiza aktından çıxarış, sağlamlıq vəziyyəti haqqında arayış (Forma №IV- 100 / a və s.)).
- ✓ Maska taxma qaydaları pozulduqda, komissiya sədri pozan şəxsə xəbərdarlıq verir. Əgər xəbərdarlığa baxmayaraq, şəxs qanunvericiliklə müəyyən olunmuş maskanı taxma qaydasını pozmağa davam edərsə, komissiya sədri ona, səsvermə binasını tərk etməsinə göstəriş verir. Əgər pozan şəxs səsvermə binasını tərk etmə barəsində göstərişi könüllü əməl etmədikdə, Məntəqə Seçki Komissiyası səsvermə binasından onun xaric edilməsinə dair qərar qəbul edir. Komissiyanın katibi pozan şəxs haqqında məlumatı Məntəqə Seçki Komissiyasının qeydlər jurnalında qeyd edir.

Səsvermə günü məntəqə seçki komissiyasının üzvləri şəxsi qoruyucu vasitələrdən (maska, qoruyucu üz sipəri və birdəfəlik əlcəklər) istifadə etməklə seçki binasında işlərini həyata keçirəcəklər.

# II FƏSİL. SEÇKİ MƏNTƏQƏSİNİN AÇILMASI, SƏSVERMƏYƏ QƏDƏR KEÇİRİLMƏLİ OLAN PROSEDURLAR

## SEÇKİ MƏNTƏQƏSİNİN AÇILMASI

*(Seçki məcəlləsi – maddə 61.1)*

Seçki məntəqəsi səsvermə günü saat 7-də açılır.

**DİQQƏT!**

Əgər həmin vaxtadək komissiya üzvlərinin sayı doqquzdan az olarsa, bu haqda informasiya dərhal yuxarı Dairə Seçki Komissiyasına ötürülməli, bu komissiya isə dərhal müvafiq qərar qəbul etməlidir.

Məntəqə seçki komissiyasının üzvləri səsvermə günü ərzində onlar üçün ayrılmış xüsusi formalar gəzdirməyə borcludurlar. Qeyd edilən tələbin yerinə yetirilməməsi yuxarı seçki komissiyası tərəfindən intizamı pozmaq kimi qiymətləndirilməli, bu inzibati məsuliyyətin həvalə olunmasının əsasıdır.

## SƏSVERMƏ BİNASINDA OLMAQ HÜQUQUNA MALİK ŞƏXSLƏR

*(Seçki məcəlləsi - maddə 8.16,17; maddə 39.3,6; maddə 42.1, 5; maddə 44.1, 5)*

Səsvermə binasında olmaq hüququna malikdirlər:

- Məntəqə seçki komissiyasının üzvləri;
- Yuxarı seçki komissiyalarının üzvləri/nümayəndələri;
- Müvafiq Məntəqə Seçki Komissiyasında qeydiyyatda olan eyni seçki subyektlərinin nümayəndələri 1 nümayəndəsindən çox olmayaraq
- Qeydiyyatdan keçmiş yerli müşahidəçi orqanını müşahidəçiləri (eyni yerli müşahidə təçkilatının 1 müşahidəçisindən çox olmayaraq);
- Qeydiyyatdan keçmiş beynəlxalq təşkilatın müşahidəçiləri (eyni beynəlxalq təşkilatın 2 müşahidəçisindən çox olmayaraq (onlarla birlikdə tərcüməçi də ola bilər);
- Medianın akreditə olunmuş nümayəndələri (Mətbuatın və Kütləvi informasiyanın digər eyni vasitəsinin eyni 2 nümayəndəsindən çox olmayaraq).

**DİQQƏT!**

*Səsvermə binasında olmaq hüququna malik hər bir şəxs mütləq özünün kimliyi və statusunu qeyd edən nişanı taxmalıdır (vəsiqə).*

*Seçki subyektinin nümayəndəsi seçki subyektini yalnız qeydiyyatda olan seçki komissiyası ilə münasibətdə təqdim edir.*

## MÜŞAHİDƏÇİNİN, SEÇKİ SUBYEKTİNİN NÜMAYƏNDƏSİNİN VƏ MƏTBUAT VƏ KÜTLƏVİ İNFORMASİYANIN DİGƏR VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNİN HÜQUQİ VƏZİYYƏTİ

*(Seçki məcəlləsi – maddə 8.25; maddə 41; maddə 42.5)*

Müşahidəçi, seçki subyektinin nümayəndəsi səsvermə günü seçki məcəlləsinin 41-ci maddəsi ilə müəyyən edilmiş səlahiyyətlərdən istifadə edir, o cümlədən onun **hüququ vardır:**

- Səsvermə günü istənilən vaxt səsvermə binasında olmaq, məhdudiyyət olmadan seçki məntəqəsinin ərazisində hərəkət etmək və sərbəst şəkildə, heç bir maneə olmadan səsvermə prosesinin bütün mərhələlərini istənilən yerdən müşahidə etmək;

- Səsvermə günü şikayətlərin qeydiyyatı prosesinə müşahidə etsin;
- Səsvermə günü istənilən vaxt təmsil etdiyi təşkilatın qeydiyyatdan keçmiş başqa nümayəndəsini əvəz etmək (movcud olduğu təqdirdə).

Müşahidəçinin, seçki subyektinin nümayəndəsinin, mətbuat və Kütləvi İnformasiyanın digər Vasitələrinin nümayəndəsinin **hüququ yoxdur**:

- Seçki komissiyasının funksiyalarına və fəaliyyətinə müdaxilə etmək;
- Seçicinin öz iradəsini sərbəst ifadə etməsinə təsir göstərmək;
- Seçicidə hər hansı bir seçki subyektinin xeyrinə və yaxud əksinə təbliğat aparmaq;
- Hər hansı bir seçki subyektinin rəmz və nişanını gəzdirmək;
- Səsvermə günü döşnişanı olmadan səsvermə binasında olmaq;
- Gürcastan Orqanik qanunu "Gürcüstan Seçki Məcəlləsi"-nin digər tələblərini pozmaq.

**DİQQƏT!**

Müşahidəçi, seçki subyektinin nümayəndəsi, mediya və Kütləvi İnformasiya Vasitələrinin nümayəndəsi səsvermə kabinasının və yaxud seçicilərin masa siyahısının çəkilişindən başqa seçki prosesi üçün maneçilik törətmədən səsvermə binasında fotovideo çəkiliş edə bilər.

Müşahidəçin, seçki subyektinin nümayəndəsin, mətbuat və Kütləvi İnformasiyanın digər Vasitələrinin nümayəndəsi tərəfindənseçicilərin masa siyahısında qeyd olunmuş seçicinin malumatlarını işləmək yolverilməzdi (o cümlədən toplamaq, yazmaq, saxlamaq), istifadə etmək, aşkarlamaq, vermək və ya yaymaq; onların seçicilərin masa siyahılarında seçicilərin qeydə alınması, seçki bülletenlərinin verilməsi və onların təsdiqlənməsi prossesinə müşahidə etmək hüquqları var.

## SEÇKİ MƏNTƏQƏSİNİN AÇILIŞINDAN SƏSVERMƏNİN BAŞLANMASINADƏK HƏYATA KEÇİRİLMƏLİ OLAN PROSEDURLAR

*(Seçki məcəlləsi - maddə 61; maddə 62;)*

Seçki məntəqəsinin açılmasından səsvermənin başlanmasınadək prosedurlar aşağıdakı ardıcıllıqla həyata keçirilir:

**I** Seçki məntəqəsi açılan kimi səsvermə gününün Qeydlər kitabı da açılır.

Məntəqə Seçki Komissiyası sədri, seçki məntəqəsi açılan kimi, səsvermə gününün Qeydlər kitabını Məntəqə Seçki Komissiyasının katibinə verir. Komissiyanın katibi, komissiyanın sədri ilə birlikdə, səsvermə gününün bütün seçki prosedurunu və onların həyata keçirilməsi vaxtını göstərməyə borcludur.

Səsvermə günü komissiya katibi Qeydlər kitabının birinci səhifəsinə, seçki məntəqəsini açdıqda səsvermə binasında olan komissiyanın bütün üzvlərinin ad və soyadlarını əlavə edir (onları təmsil etdikləri subyekti göstərməklə), həmçinin səsvermə binasında olmaq hüququna malik bütün digən şəxslərin ad və soyadlarını (onların təmsil etdikləri təşkilat və ya seçki subyektini göstərməklə) və onları imza ilə təsdiqləyir.

Səsvermə günü komissiya katibi Qeydlər kitabının 2-ci səhifəsində, həmçinin lazım olduqda 10- cu və sıradakı səhifələrə də seçki məntəqəsinin açılışından sonra səsvermə binasında olan komissiya üzvünün, səsvermə binasında olmaq hüququna malik bütün digər şəxslərin göstəricilərini, onların seçki binasına daxil olma vaxtını qeyd etməklə onları imzası ilə təsdiqlədir.

**II** Məntəqə Seçki Komissiya sədri komissiyanın xüsusi möhürünün və qeydiyyatçının möhürlərinin yerləşdirildiyi möhürlənmiş zərfin bütövlüyünü yoxlayır və onu açır (möhürün nömrəsini komissiya katibi səsvermə günün Qeydlər kitabında göstərir).

**III** Məntəqə Seçki Komissiya sədri komisiya üzvlərinin funksiyalarının bölüşdürülməsi üzrə püşk atır.

Məntəqə seçki komissiyası üzvləri arasında bölüşdürülməli olan funksiyalar:

- Seçicilərin qeydiyyatı üzrə komissiya üzvü (hər 300 seçiciyə ən azı bir qeydiyyatçı);

- Aparılası seçki qutusunu daşıyan 2 komissiya üzvü (lazım gəldiyi təqdirdə);
- Seçici axınının tənzimlənməsi üzrə komissiya üzvü;
- Seçki qutusuna və xüsusi zərflərə nəzarət üzrə komissiya üzvü.

**DİQQƏT!**
Komissiya sədri/komnissiya sədrinin müavini/ komissiya katibi püşkatmada iştirak etmirlər.

Məntəqə Seçki Komissiya sədri püşkatmanı keçirənə qədər Məntəqə Seçki Komissiyanın üzvlərinin sayını bölüşdürüləsi funksiyanın sayına müqayisə etməlidir.

Əgər püşkatma keçirilən zaman iştirak edən komissiya üzvlərinin sayı bölüşdürülməli funksiyalardan:

- **1 nəfər az olarsa,** seçiciləri qeydə alan komissiya üzvlərinin sayı azaldılır;
- **2 nəfər az olarsa,** seçicilərin Qeydiyyatçı komissiya üzvlərinin sayı azalır, komissiyanın sədr müavini seçicilərin axınınn tənzimləyiçi komissiya üzvünün funksiyasını yerinə yetirir;
- **3 nəfər az olarsa,** seçicilərin Qeydiyyatçı komissiya üzvlərinin sayı azalır, komissiyanın sədr müavini seçicilərin axınınn tənzimləyiçi komissiya üzvünün funksiyasını yerinə yetirir, lakin komissiya sədri seçki qutusuna və xüsusi zərflərə nəzarət edən komissiya üzvünün funksiyasını yerinə yetirir.

İlk növbədə, Məntəqə Seçki Komissiyasının sədri komissiya üzvlərindən qeydiyyatçı komissiya üzvü seçmək üçün püşk atır (hər 300 seçiciyə bir qeydiyyatçı).

**DİQQƏT!**
Qeydiyyatçı komissiya üzvü seçmək üçün nəzərdə tutulmuş püşk atmada partiya tərəfindən təyin olunmuş üzvlər iştirak etmirlər.

**Məntəqə seçki komissiyasının sədri:**

- Püşkatmada iştirak edən komissiya üzvlərinin sayına görə eyni formada və eyni növdə olan vərəqlər hazırlayır;
- Açılanası saya uyğun olaraq vərəqdə eyni yazı qələmi ilə funksiyanın adını - "Qeydiyyatçı" yazır;
- Püşkatma vərəqlərərini komissiyanın xüsusi möhürü ilə təsdiq edir;
- Püşkatma vərəqlərini elə qatlayır ki, mətni oxumaq mümkün olmasın və masanın üzərinə yerləşdirir;

Püşkatmada iştirak edən komissiya üzvləri növbə ilə püşkatma vərəqlərini götürürlər. Nəticələri komissiya katibi tərəfindən səsvermə günü Qeydlər kitabının 3 -cü səhifəsinə daxil edilir (komissiya üzvləri funksiyanın verildiyini imzalayaraq təsdiqləyir).

**DİQQƏT!**
Əgər püşkatmada iştirak edən Dairə Seçki Komissiyası tərəfindən seçilmiş üzvlərin sayı püşkatma ilə seçilmiş seçicilərin qeydiyyatçı komissiya üzvlərinin sayına uyğun olarsa, püşk atma keçirilmir və Dairə Seçki Komissiyası tərəfindən seçilən komissiya üzvlərinə avtomatik olaraq seçicilərin qeydiyyatçı komissiya üzvünün funksiyası veriləcəkdir.

Əgər püşkatmada iştirak edən Dairə Seçki Komissiyası tərəfindən seçilmiş üzvlərin sayı püşk atma ilə seçiləsi seçicilərin qeydiyyatçı komissiya üzvlərinin sayından çox olarsa, onda seçicilərin qeydiyyatçıları püşkatma yolu ilə müəyyən edilir.

Əgər püşkatmada iştirak edən Dairə Seçki Komissiyası tərəfindən seçilmiş üzvlərin sayı püşk atma ilə seçiləsi seçicilərin qeydiyyatçı komissiya üzvlərinin sayından az olarsa, püşkatma keçirilmir, Dairə Seçki Komissiyası tərəfindən seçilən komissiya üzvlərinə avtomatik olaraq seçicilərin qeydiyyatçı komissiya üzvünün funksiyası verilir və Məntəqə Seçki Komissiyasının sədri seçicilərin qeydiyyatçısı komissiya üzvünün funksiyasının yerinə yetirilməsini Məntəqə Seçki Komissiyasının digər üzvü/üzvlərinə təlimat edir.

Bundan sonra Məntəqə Seçki Komissiyasının sədri komissiya üzvləri arasında aparılası seçki qutunu aparan komissiyanın 2 üzvünü seçmək üçün püşkatma keçirir.

**Məntəqə Seçki Komissiyanın sədri:**

- Püşkatmada iştirak edən komissiya üzvlərinin sayına müvafiq olaraq eyni formalı və eyni növ vərəqlər hazırlayır;
- 2 vərəqdə eyni yazı vasitəsilə funksiyaların adlarını - "aparılası seçki qutunu daşıyan" yazır;
- Püşkatma vərəqlərərini komissiyanın xüsusi möhürü ilə təsdiq edir;
- Püşkatma vərəqlərərini elə qatlayırki, mətni oxumaq mümkün olmasın və masanın üzərinə yerləşdirir;

Püşkatmada iştirak edən komissiya üzvləri növbə ilə püşkatma vərəqlərini götürürlər.

**DİQQƏT!**

Əgər püşkatma ilə seçilmiş aparılası seçki qutunu daşıyan komissiya üzvü, ona verilən funksiyanı yerinə yetirməkdən imtina edərsə, komissiya üzvlərinin digər funksiyalarının (axın tənzimləyicisi, seçki qutusu və xüsusi zərflərin nəzarətçisi) paylanması üçün keçiriləcək növbəti püşkatmada iştirak etmək hüququnu itirər. Qeyd olunan komissiya üzvünə funksiya verilməsi məsələsi Məntəqə Seçki Komissiyasının sədri tərəfindən həll edilir.

Komissiyanın katibi püşkatma nəticələrini Qeydlər kitabının 3-cü səhifəsinə daxil edir. (Komissiya üzvləri imzaları iləfunksiyanın şamil edilməsini təsdiq edirlər).

Ayarılası seçki qutunu daşıyan komissiya üzvləri müəyyən edildikdən sonra Məntəqə Seçki Komissiyasının sədri qalan funksiyaları paylamaq üçün növbəti püşkatma keçirəcək.

**Məntəqə Seçki Komissiyanın sədri:**

- Komissiya üzvlərinin sayına müvafiq olaraq eyni formalı və eyni növ vərəqlər hazırlayır;
- Vərəqi eyni yazı vasitəsilə funksiyaların adlarını - "axının tənzimləyicisi", "seçki qutunu və xüsusi zərflərin nəzarətçisi" yazır;
- Püşkatma vərəqlərərini komissiyanın xüsusi möhürü ilə təsdiq edir;
- Püşkatma vərəqlərərini elə qatlayırki, mətni oxumaq mümkün olmasın və masanın üzərinə yerləşdirir;

Püşkatmada iştirak edən komissya üzvləri püşkatma vərəqlərini növbə ilə götürürlər. Komissiyanın katibi püşkatma nəticələrini Qeydlər kitabının 3-cü səhifəsinə daxil edir (komissiya üzvləri imzaları ilə funksiyanın verilməsini təsdiq edirlər).

Komissiya üzvünə püşkatma yolu ilə həvalə olunmuş funksiyanın müvəqqəti olaraq komissiyanın başqa

üzvünə verilməsi yalnız komissiya sədrinin icazəsi ilə ola bilər ki, bunu da komissiyanın katibi səsvermə gününün Qeydlər kitabının 5-ci səhifəsində qeyd edir. Komissiya üzvü imzası ilə funksiyanın ötürülməsini təsdiq edir.

Əgər komissiyanın hər hansı bir üzvü komissiyaya püşkatma proseduru başa çatdıqdan sonra gələrsə, ona funksiyanın verilməsi məsələsini Məntəqə seçki komissiyasının sədri, ona əmək haqqı verilməsi məsələsini isə Dairə Seçki Komissiyası həll edir.

**IV** Məntəqə Seçki Komissiyanın sədri siyahılara əsasən seçicilərin sayını, həmçinin daxil olmuş seçki bülletenlərinin və xüsusi zərflərin sayını elan edir. Komissiya katibi xüsusi zərfin sayından başqa qeyd olunan məlumatları səsvermə günün qeydlər jurnalına və səsvermə nəticələrinin nümayiş protokoluna daxil edir. Nümayiş protokoluna və səsvermə günün qeydlər jurnalına, xüsusi zərfə seçicilərin sayı səsvermə günü bitdikdən sonra daxil olunur.

**V** Məntəqə Məntəqə Seçki Komissiyanın sədri əsas və aparılası seçki qutularını yoxlayır və fərdi nömrəyə malik möhürlə möhürləyir. Komissiya katibi möhürlərin nömrələrini səsvermə günün qeydkər jurnalına daxil edir.

**VI** Məntəqə Seçki Komissiyanın sədri materialları komissiya üzvünə verir.

**Məntəqə seçki komissiyasının sədri seçicilərin qeydiyyatçı komissiya üzvlərinə verir:**

- Əlifba əsasında sıralanmış seçicilərin vahid siyahısını. O, həmçinin seçicilərin xüsusi siyahısını qeydiyyatçılardan birinə verir (əgər o mövcuddursa);
- Seçki bülletenlərinin bir bloknotunu (bloknotun övvəraqinə komissiya sədri və qeydiyyatçı komissiya üzvü imza atır. Qeydiyyatçı hər bir bloknotda bülletenin sayının düzgünlüyünü yoxlamalıdır);
- Markirovka mayesini.
- Qeydiyyatçıların möhürlərini (möhürlərin nömrələri püşkatma günü Qeydlər kitabının 3-cü səhifəsində göstəriləcəkdir)

**DİQQƏT!**

Məntəqə Seçki Komissiyasının sədri masada düzülmüş siyahılara uyğun olaraq hər bir qeydiyyat masasına seçicilərin soyadlarının əlifba sırası ilə ardıcıllığı vurmalıdır.

Yeni koronavirusun səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, qeydiyyatçıların masasına seçicilər üçün fərdi istifadə olunması görə nəzərdə tutulan qələmlər qoyulmalıdır

Əgər Qeydiyyatçının möhürü lazımı saydan az olarsa və ya möhür zədələnibsə, Komissiya sədrinin qərarı ilə Qeydiyyatçıların sayı azalır.

Məntəqə Seçki Komissiyanın sədri seçicilərin axınını tənzimləyən komissiya üzvünə markirofkanı yoxlayan ultrabənövşəyi fənəri verir.

Məntəqə Seçki Komissiyanın sədri seçki qutusuna və xüsusi zərflərə nəzarət edən komissiya üzvünə əsas seçki qutusunu və xüsusi zərfləri təqdim edir.

Komissiya üzvlərinə materiallar təqdim edildikdən sonra, səsvermə başlananadək Məntəqə Seçki Komissiya sədri və komissiya katibi yoxlama vərəqlərini birinci seçici barəsində göstəricilərdən başqa doldururlar. Yoxlayış vərəqini Məntəqə Seçki Komissiyasının bütün iştirak edən üzvü imzalayır.

Birinci seçici gələn kimi seçici qeydiyyatdan keçir və seçki bülletenini götürür. Komissiyanın katibi onun barəsində göstəriciləri (adı, soyadı və Gürcüstan vətəndaşının şəxsi nömrəsi) yoxlama vərəqinə daxil edir və seçiciyə imzalatdırır.

Məntəqə Seçki Komissiya sədri yoxlama vərəqinin bir nüsxəsini əsas seçki qutusuna, ikinci nüsxəsini isə aparılası seçki qutusuna atır (mövcud olduğu təqdirdə), lakin üçüncü nüsxəsini isə seçki qutularında mövcud olan yoxlama vərəqləri ilə sonrakı müqayisə məqsədilə saxlayır.

Yoxlama vərəqinin göstəriciləri səsvermə günü Qeydlər kitabının 4-cü səhifəsinə daxil edilir.

**DİQQƏT!**

Birinci seçici qeydiyyatdan keçdikdən sonra Məntəqə Seçki Komissiyasının sədri Dairə Seçki Komissiyasına qutunun/qutuların möhürlənməsi və yoxlama vərəqinin qutuya/qutulara atılması barədə məlumat verir.

# III FƏSİL. SƏSVERMƏ PROSESİ

## SƏSVERMƏNİN KEÇİRİLMƏSİ

*(Seçki məcəlləsi - maddə 60; maddə 64; maddə 65)*

Səsvermə səsvermə günü (2 aprel) saat 08:00-dan saat 20:00-dək keçirilir.

Səsvermə proseduru aşağıdakı qayda və ardıcıllığa əməl edilməklə keçirilir:

**I** Səsvernə otağına daxil olan kimi seçici, axını tənzimləyən şəxsin yanına gedir və markirovka yoxlanılması prosedurundan keçir.

**Seçici axınını tənzimləyicisi:**

- Seçki məntəqəsinə daxil olan seçicilərin axınını tənzimləyir (Yeni koronavirusun səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, seçicilər arasında təhlükəsiz məsafənin riayətini təmin edir (mümkün olduğu təqdirdə)).
- Seçicidən Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstan vətəndaşının pasportunu təqdim etməsini və yoxlama prosesi zamanı maskanı müvəqqəti olaraq çıxarmasını xahiş edir;
- Ultrabənövşəyi fənərlə, seçicinin markirovkadan keçib-keçmədiyini yoxlayır;

**DİQQƏT!**

Əgər markirovkanı yoxlayan xüsusi qurğu aşkar etsə ki, seçici artıq markirovka olunub, ona səsvermədə iştirak etmək qadağan olunur, lakin onun kimliyi isə Qeydlər kitabına daxil edilir.

Əgər seçici Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi və ya Gürcüstan vətəndaşının pasportunu təqdim edərkən müvəqqəti olaraq maskasını çıxarmırsa, o, seçki məntəqəsinə buraxılmayacaq.

- Seçiciyə göstəriş verir ki, seçicilər siyahısında onun soyadının birinci hərfinin və seçici nömrəsi göstərildiyi qeydiyyat masasına yaxınlaşsın.

**DİQQƏT!**

Əgər qeydiyyat masasının yanında iki nəfərdən çox seçici durursa, səsvermə otağına növbəti seçicinin daxil olmasını müvvəqqəti yubandırır;

**II** Seçici seçicilərin qeydiyyatçısının yanında qeydiyyatdan keçir.

**Seçicilərin qeydiyyatçısı:**

- Seçicidən Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstan vətəndaşlığı pasportunu təqdim etməsini xahiş edir;

**DİQQƏT!**

Əgər vahid siyahıda seçici haqqında məlumat tapılmadısa Seçki Məntəqəsində elektron siyahıların mövcud olduğu təqdirdə, göstəricilərin yoxlanılmasında məsuliyyət daşıyan şəxs seçicini elektron siyahıda axtarmaq və onun qeydiyyatda olduğu məntəqə haqqında məlumat verməyə borcludur. Məntəqədə elektron siyahıların mövcud olmadığı təqdirdə, göstəricilərin yoxlanılmasına məsuliyyət daşıyan şəxs seçici haqqında məlumat almaq üçün Dairə Seçki Komissiyası və yaxud da MSK-nın qaynar xətti ilə əlaqə saxlamalıdır.

Vahid siyahıda “xaricdə yerləşir” və yaxud “konsulluq qeydiyyatındadır” statusa malik olan seçici, səsvermədə ümumi qaydada iştirak edir.

- Təqdim edilən sənəddə qeyd edilən seçicinin qeydiyyat məlumatlarını və seçicilərin siyahısında olan

məlumatlara uyğun olaraq yoxlayır. Bu səbəbdən seçicidən müvəqqəti olaraq maskasını çıxarmağı xahiş edir. Seçici seçkilərdə iştirak edir, əgər seçicilərin müvafiq siyahısında Gürcüstan vətəndaşının şəxsi nömrəsi, cinsiyyəti və fotoşəkillə birlikdə, tamamilə aşağıda göstərilən məlumatlardan 3-nə uyğun olarsa:

- ✓ Adı;
- ✓ Soyadı;
- ✓ Doğum tarixi (gün, ay, il);
- ✓ Ünvanı (Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi və ya agentliyin məlumat bazasına görə, həmçinin xaricdə qeyd olunan yeri də daxil olur);

- ▶ Təqdim edilən sənəddə/ və seçicilərin siyahısında olan fotoşəkillərin və seçicinin üzünün bir-birinə uyğunluğunu yoxlayır.

**DİQQƏT!**

Seçici maskasını çıxartmadıqda, onun seçkilərdə iştirak etmək hüququ yoxdur və ona seçki bülleteni verilməyəcək.

Əgər seçicilər haqqında məlumatlar yoxlandıqda məlum olsa ki, təqdim edilən sənədlərdə qeyd edilən seçicinin qeydiyyat məlumatları (fotoşəkildən başqa) seçicilərin siyahısında olan məlumatlarla uyğundur, ancaq seçicilər qeydiyyatçısı hesab etsə ki, bu seçicinin təqdim etdiyi sənədin surəti seçicilərin siyahısında olan fotoşəkillə uyğunlaşdırmır, bu halda o Məntəqə Seçki Komissiya sədrinə müraciət edir, hansı ki, aşağıda göstərilən prosesləri həyata keçirdikdən sonra səsvermədə iştirak etmək üçün ona icazə verir.

Əgər məntəqə seçki komissiyasının sədri qeyd edlən uyğunsuzluğu təsdiq edirsə, Məntəqə Seçki Komissiyasının katibi səsvermə günü Qeydiyyat kitabında nəzərdə tutulan səhifədə uyğunsuzluğunu, seçicinin adını, soyadını və seçicilər siyahısında onun sıra nömrəsini qeyd edir. Bu qeyd Məntəqə Seçki Komissiya sədri və komissiya katibi tərəfindən imza ilə təsdiqlənəcək.

Əgər Məntəqə Seçki Komissiya sədri qeyd olunan uyğunsuzluğu təsdiq etməzsə, seçicinin qeydiyyatçısının səsvermə günü Qeydiyyat kitabında nəzərdə tutulan səhifədə öz şəxsi fikrini qeyd etmək hüququ vardır.

Qeyd edilən hallarda Məntəqə Seçki Komissiya katibi təqdim edilən sənədin fotosurətini qeydiyyat kitabına əlavə edir və onu imzası ilə təsdiqləyir.

- ▶ Seçicilərin siyahısında seçici barəsində göstəricilərin uyğunluğu təsdiq edildiyi təqdirdə, onun markirovkasını həyata keçirir (penitensiar müəssisələrində, xəsətəxanalarda və başqa stasionar müalicə müəssisələrində (xəstəyə qarşı) markirovka edilmir);

**DİQQƏT!**

Markirovka sağ əlin başbarmağın və ya işarə barmağın dırnağına edilir, əgər qeyd olunan hərəkəti etmək mümkün olmayır – sağ əlin digər barmaqlarına, lakin əgər buna mümkün olmursa, həmin qayda ilə sol ələ edilir;

Markirovka prosedurundan imtina olunduğu təqdirdə seçicinin səsvermədə iştirak etmək hüququ yoxdur və ona seçki bülleten verilmir.

- ▶ Seçicilərin vahid siyahısının müvafiq qrafasında imza atır;
- ▶ Seçiciyə göstəriş verin ki, yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, seçki bülletenin qəbul etməsini qeydiyyatçının masasında yerləşdirilən fərdi istifadə etmək üçün nəzərdə tutulmuş qələmlə seçicilərin siyahısında imza atsın. Seçiciyə izah etsin ki, həmin qələmlə gizli səsvermə kabinəsində seçki bülleteni doldurarkən istifadə etməlidir və səsvermədən sonra istifadə etdiyi qələmi səsvermə binasında yerləşdirilən xüsusi konteynerə qoysun. Sonra seçici seçki bülleteninin qəbul etəsini imzası ilə təsdiq edir.

**DİQQƏT!**

Əgər səsvermə prosesində bəlli olsa ki, seçici seçki siyahısında digər seçicinin soyadının qrafasında imza atıb, bu zaman seçici soyadının ardınca həmin qrafada imza atmalı. Qeyd olunan haqqında isə seçicilərin Qeydiyyatçı izahat yazmalıdır (seçicinin vahid siyahısında sıra nömrəsini, ad və soyadını qeyd etməklə).

- Seçki bülleteninin verilməsi zamanı onun arxa səhifəsində müvafiq qrafada imza atır və bülleteni xüsusi möhürlə təsdiqləyir.

**DİQQƏT!**

Seçicilərin qeydiyyatçısının funksiyasının başqasına verildiyi təqdirdə, qeydiyyatçı siyahılarda seçicilərin imzaları və onun tərəfindən verilmiş bülletenlərin sayını yenidən saymağa borcludur (komissiya sədrinə təhvil verilmiş korlanmış bülletenlər daxil olmaqla) və nəticələri sədrə bildirir; Məlumatlar arasında uyğunluq olmadığı halda, izahat yazmalıdır.

**III** Səsvermə kabinəsinə daxil olur və seçki bülletenini doldurur. Seçici bülletenini doldurarkən başqa şəxsin iştirakı qadağandır.

**DİQQƏT!**

Əgər seçici seçki bülletenini müstəqil surətdə doldura bilmirsə, onun kömək üçün istənilən, komissiya üzvlərindən, seçki subyektlərinin nümayəndələrindən, namizədlərdən və müşahidəçilərdən başqa, onun üçün arzuedilən şəxsi (müvafiq seçki məntəqəsinin digər seçicisi) kömək üçün səsvermə kabinasına dəvət etmək hüququ vardır.

Əgər seçicinin və ya Məntəqə Seçki Kommisiyası üzvünün seçki bülleteni və ya xüsusi zərfi korlansa, onlar bu haqda komissiya sədrinə bildirməlidirlər. Komissiya sədrinin tapşırığı ilə seçicinin qeydiyyatcısı seçicinin korlanmış seçki bülletenini /xüsusi zərfi yenisi ilə dəyişməyə məcburdur. Komissiya sədri seçicinin yanında korlanmış seçki bülletenin/xüsusi zərfin küncünü kəsir "xarab olub" yazır və imzalayır. Komissiya sədri korlanmış bülleteni ayrı saxlayır.

**IV** Seçici ayrıca duran masaya yaxınlaşır, seçki qutusu və xüsusi zərflərin nəzarətçisinin göstərişi ilə xüsusi zərfi müstəqil götürür və seçki bülletenini ona yerləşdiriri.

**Seçki qutusu və xüsusi zərflərin nəzarətçisi** seçicinin əlində yalnız bir zərf olduğuna əmin olduqdan sonra, seçki qutusunun kəsiyini açır və seçiciyə xüsusi zərfi seçki qutusuna atmağı işarə edir.

**V** Seçici xüsusi zərfi seçki qutusuna atır.

**DİQQƏT!**

**Seçki qutusunun yanına eyni vaxtda bir nəfərdən çox seçicinin getməsi yolverilməzdir. Müşahidəçinin, seçki subyekti nümayəndəsinin seçki qutusuna, seçki qutusuna xüsusi zərflərin atılmasını müşahidə etmək hüququ vardır.**

**VI** Xüsusi zərfi seçki qutuya atdıqdan sonra seçici seçki binasını tərk edir.

Yeni koronavirusun səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, səsvermə binasının çıxışında seçicilər üçün əllərin təmizlənməsinə görə dezinfeksiyaedici maye ilə təmin olunmalıdır.

## "FİZİKİ VƏZİYYƏTİNƏ" GÖRƏ SEÇİCİ TƏRƏFİNDƏN SƏSVERMƏ PROSESİ

*(Gürcüstan Mərkəzi Seçki Komissiyasının 2012-ci il 21 iyun tarixli №20/2012 qərar)*

Fiziki vəziyyətinə, əsasən də yuxarı ətraf orqanları olmadığına görə səsvermə prosedurunu müstəqil şəkildə yerinə yetirə bilməyən (markirovka, seçki bülletenini alarkən imza edilməsi, seçki bülletenini seçki qutusuna atılması) seçici, aşağıdakı prosedurlar nəzərə alınmaqla səsvermədə iştirak edir:

- Seçici markirovka yoxlanışı və markirovka prosedurundan keçmir;
- Seçicilərə seçki bülleteni verilərkən seçiciləri qeydə alan seçicilərin vahid siyahısında "Seçicinin imzası" qrafasında "Fiziki vəziyyət" adlı qeyd yazır və bunu şəxsi imzası ilə təsdiq edir;
- Seçicinin kömək üçün komissiya üzvlərindən, seçki subyektlərinin nümayəndələrindən, namizədlərdən və müşahidəçilərdən başqa, istənilən şəxsə kömək üçün müraciət etmək hüququ vardır;
- Qeyd olunan seçicinin əvəzinə, onun iştirakı ilə, onun tərəfindən seçilmiş şəxs seçki bülletenini səsvermə kabinəsində bülleteni doldurduqdan sonra xüsusi zərfə qoyur və sonra seçki qutusuna atır.

## SEÇKİLƏR GÜNÜ SƏSVERMƏ BİNASININ VƏ ONUN ƏTRAF ƏRAZİSİNİN ASAYİŞİNİN QORUNMASI

*(Seçki məcəlləsi - maddə 59)*

Seçkilər günü səsvermə binasının asayişinin qorunmasına Məntəqə Seçki Komissiya sədri məsulliyyət daşıyır. Məntəqə Seçki Komissiya sədri tərəfindən səsvermə binasında asayışı qorumaq məqsədilə qəbul olunmuş qərarların yerinə yetirilməsi seçki komissiyasının üzvləri üçün, səsvermə binasında olmaq hüququna malik bütün şəxslər və seçicilər üçün məcburidir.

Səsvermə işinə mane olunduğu və asayış pozulduğu halda Məntəqə Seçki Komissiyasının hüququ vardır ki, asayişi pozan şəxsi komissiyanın yerləşdiyi binadan çıxarsın. Asayişi pozan şəxs binadan çıxarıldığı təqdirdə müvafiq protokol tərtib olunur, ona komissiyanın sədri və üzvləri imza atırlar. Faktla əlaqədar Qeydlər kitabında müvafiq qeyd olunur. Əgər pozan şəxs çıxarılma qərarını könüllü olaraq yerinə yetirmirsə, komissiya sədri polisə müraciət edir. Polis şəxsin çıxarılmasına dair qərarı dərhal icra etməkməcburiyyətindədir.

### DİQQƏT!

Silahlı şəxslərin səsvermə binasına daxil olması qadağandır.

Əgər səsvermə binasında və ya onun ətrafındakı ərazidə səsvermənin keçirilməsinə və yaxud seçki sənədlərinin təhlükəsiz yerdəyişməsinə təhlükə yaranarsa, bu zaman Məntəqə Seçki Komissiya sədrinin tələbi ilə polis işçiləri çağırılır. İctimai qaydanın pozulmasının qarşısının alındığı təqdirdə və Məntəqə Seçki Komissiya sədrinin tələbi ilə polis işçiləri səsvermə binasını və onun ətraz ərazisini tərkedirlər.

Səsverə binasının ətraf ərazisində, lakin səsvermə binasında deyil, polis işçiləri Məntəqə Seçki Komissiyasının sədrinin tələbi ilə və onun razılığı olmadıqda da ola bilər, əgər bu ictimai qaydanın pozulmasının qarşısını almaq və yaxud qorumaq üçün mütləq lazımdırsa. Bu cür vacibliyin aradan qaldırılması ilə polis işçisi məntəqə seçki binasının ətraf ərazisini tərk etməlidirlər.

## SƏSVERMƏ PROSESİNİN MÜVƏQQƏTİ DAYANDIRILMASI

Səsvermə zamanı səsvermə binanın bağlanması, səsverməni birimək və ya dayandırmaq qadağandır. Əgər hər hansı bir vəziyyət səsvermə prosesinin gedişinə maneçilik törədirsə, Məntəqə Seçki Komissiyasının sədri dərhal bu barədə Dairə Seçki Komissiyasına məlumat verməli və müvafiq göstərişlər gözləməlidir.

## SƏSVERMƏDƏ İŞTİRAK EDƏN SEÇİCİLƏRİN QEYDƏ ALINMASI

*(Seçki məcəlləsi - maddə 65.6)*

### TÖVSİYƏ OLUNUR!

Seçicilərin qeydiyyatçılar saat 10:00, 12:00, 15:00 və 17:00-da səsvermə prosesinə mane olmadan, həmçinin funksiyanın müvəqqəti verildiyi halda, seçicilərin siyahılarında seçicilərin imzalarının sayını (onlar tərəfindən yazılmış izahatda qeyd olunmuş göstəriciləri nəzərə alaraq) və onlar tərəfindən verilmiş seçki bülletenlərin sayını (komissiya sədrinə təhvil verilmiş korlanmış bülletenlər nəzərə alınmaqla) saysınla. Verilmiş seçki bülletenlərin sayını müəyyən etmək komissiya sədrindən alınmış seçki bülletenlərinin sayına qeydiyyatçıda qalan seçki bülletenlərinin sayına müqayisə etməklə mümkündür.

Seçicilərin Qeydiyyatçıları sayılmış məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə komissiya sədrinə bildirməlidirlər:

**Verilmiş seçki bülletenlərinin sayına** — **Korlanmış seçki bülletenlərinin sayını** = **Seçicilərin imzalarının sayı**

Əgər göstəricilər arasında fərq aşkar edilərsə, qeydiyyatçı dərhal izahat yazmalıdır (orada göstərilən məlumatları səsvermə günün yekun protokolunda nəzərə almaq məqsədilə).

Məntəqə Seçki Komissiya katibi seçicilər siyahısına seçkilərdə iştirak edən seçicilərin imzalarının sayını saat 12:00-da və saat 17:00-dakı vəziyyətinə əsasən səsvermə nəticələrinin nümayiş protokollarında, səsvermə gününün Qeydlər kitabına daxil edir və bu barədə Dairə Seçki Komissiyasına məlumat verir.

## APARILASI SEÇKİ QUTUSU VASİTƏSİ İLƏ SƏSVERMƏ

*(Seçki məcəlləsi – maddə 64.5; maddə 65.3; maddə 66)*

Aparılası seçki qutusunun vasitəsilə səsvermə seçkilər günü saat 09:00-dan saat 19:00-dək keçirilir. Səsvermə başa çatıdqdan sonra seçki qutusunun xüsusi zərflərin atılması üçün olan kəsiyi dərhal möhürlənir. Aparılası seçki qutusu ən geci saat 20:00-dək seçki məntəqəsinə qaytarılmalıdır.

Səsvermə binasında olmaq hüququna malik şəxslərin öz arzularına müvafiq olaraq, aparılası seçki qutularının vasitəsilə səsvermə prosedurunu müşahidə etmək hüququ vardır. Aparılası seçki qutusu vasitəsilə səsvermə zamanı avtomobildən istifadə edildiyi təqdirdə, Məntəqə Seçki Komissiyası avtomobildə səsvermə binasında iştirak etmək hüququna malik şəxslərdən səs vermə yolu ilə müəyyənləşdirilmiş 2 müşahidəçi üçün yer ayırmağa borcludu.

Məntəqə seçki komissiyasının sədri aparılası seçki qutusunu daşıyıcı olan komissiya üzvlərinə verir:

- Yoxlama vərəqəsinin yerləşdirildiyi möhürlənmiş aparılası seçki qutusunu;
- Aparılası seçki qutusunun siyahısını;
- Xüsusi zərfləri (aparılası seçki qutusunun siyahısında seçicilərə uyğun olaraq);
- Seçicilərin qeydiyyatçısı tərəfindən imzalanmış və qeydiyyatçının möhürü ilə təsdiq edilmiş lazımi sayda seçki bülletenləri.
- Seçicilər üçün fərdi istifadəs edilməsinə görə nəzərdə tutulmuş qələmlər (aparılası seçki qutusunun siyahısında mövcud olan seçicilərə görə).
- Aparılası seçki qutunun kəsiyinin möhürlənməsi üçün möhür.

Komissiya katibi səsvermə günü Qeydlər kitabının 4-cü səhifəsinə aparılası seçki qutusunu aparan komissiya üzvlərininə verilən bülletenlərin və xüsusi zərflərin sayını, həmçinin aparılası seçki qutusunun seçki məntəqəsindən aparıldığı vaxtı daxil edir.

**DİQQƏT!**
Aparılası seçki qutunu aparan Məntəqə Seçki Komissiyasının üzvləri və müşahidəçilər aparılası seçki qutu ilə səsvermə prosessində maska, qoruyucu üz sipəri, əlcəklər və əlin dezinfeksiya edici məhlulla təchiz olunmalıdırlar.

**Aparılası seçki qutunu aparan komissiya üzvü:**

- Seçicidən Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstan vətəndaşlığı pasportunu təqdim etməsini xahiş edir;
- Təqdim edilmiş sənəddə qeyd olunmuş qeydiyyat məlumatlarını və aparılası seçki qutusunun siyahısında mövcud olan göstəricilərə uyğun olaraq yoxlayır.

**DİQQƏT!**
Aparılası seçki qutusu vasitəsilə səsvermədə iştirak edən seçiciyə qarşı markirovka istifadə edilmir.

- Aparılası seçki qutusunun siyahısının müvafiq qrafasında imza atır, lakin sonra seçici seçki bülletenin götürülməsini imzası ilə təsdiqləyir.

**DİQQƏT!**
Əgər səsvermə prosesində bəlli olsa ki, seçici aparılası seçki qutusunun siyahısında digər seçicinin soyadının qrafasında imza atıb, bu zaman seçici soyadının ardınca həmin qrafada imza atmalı. Qeyd olunan haqqında isə seçicilərin Qeydiyyatçı izahat yazmalıdır (seçicinin aparılası seşki qutusunun siyahısında sıra nömrəsini, ad və soyadını qeyd etməklə).

- Seçici gizlilik prinsipini qorumaqla seçki bülleteni doldurur;

**DİQQƏT!**
Əgər seçici bülleteni/bülletenləri müstəqil surətdə doldura bilmirsə, onun kömək üçün istənilən, komissiya üzvlərindən, seçki subyektlərinin nümayəndələrindən, namizədlərdən, seçki subyektinin nümayəndəsi, mediya və kütləvi informasiyanın digər vasitələrinin nümayəndələri və müşahidəçilərdən başqa, onun üçün arzuedilən şəxsi (müvafiq seçki məntəqəsinin digər seçicisi) kömək üçün dəvət etmək hüququ vardır.

Əgər seçicinin və ya aparılası seçki qutunu aparan komissiya üzvü seçki bülletenini və yaxud xüsusi zərfi korlasa, komissiya üzvü seçiciyə korlanmış seçki bülletenini /xüsusi zərfi yenisi ilə dəyişməyə məcburdur.

- Seçici xüsusi zərfi götürür və ona seçki bülletenini yerləşdirir;
- Aparılası seçki qutusunu aparan komissiya üzvü seçicinin əlində yalnız bir zərf olduğuna əmin olduqdan sonra, seçki qutusunun kəsiyini açır və seçiciyə xüsusi zərfi seçki qutusuna atmağı işarə edir.

**DİQQƏT!**
Əgər aparılası seçki qutusunun möhürü pozulubsa, aparılası seçki qutusunu aparan komissiya üzvləri dərhal komissiyanın sədrinə bildirməlidirlər, izahat tərtib edib səbəbi göstərməklə və birgə olan şəxslərə birlikdə imza atmalıdırlar.

Aparılası seçki qutusunu aparan komissiya üzvləri səsvermə binasına qayıtdıqdan sonra, Məntəqə Seçki Komissiyasının katibinə istifadə olunmamış/korlanmış seçki bülletenləri və xüsusi zərfləri verməlidirlər.

**DİQQƏT!**

Komissiya katibi aparılası seçki qutusunun siyahısında mövcud olan imzaların, istifadə edilməmiş və ya korlanmış seçki bülletenlərin və xüsusi zərflərin sayının düzgünlüyünü yoxlayır. Qeyri-dəqiqlik aşkar olduqda aparılası seçki qutunu aparan komissiya üzvləri səbəbi göstərməklə izahat yazmalıdırlar.

İzahatda qeyd olunan məlumatlar səsvermə nəticələrinin yekun protokolunun məlumatlarında nəzərdə tutulmalıdır.

Komissiyanın katibi seçicilərin imzalarının sayını aparılası qutunun siyahısında, istifadə olunmamış seçki bülletenlərinin sayını, həmçinin seçki məntəqəsinə aparılası seçki qutunun gətirilmə vaxtını Qeydlər kitabına daxil edir.

Komissiyanın sədri istifadə olunmamış/korlanmış bülletenləri və zərflərin küncünü kəsir, korlanmışdır yazır və imzası ilə təsdiqləyir.

# IV FƏSİL. SEÇKİ MƏNTƏQƏSİNİN BAĞLANMASI, SƏSVERMƏNİN NƏTİCƏLƏRİNİN YEKUNLAŞDIRILMASI

## SEÇKİ MƏNTƏQƏSİNİN BAĞLANMASI

*(Seçki Məcəlləsi – maddə 65.8)*

Saat 20:00-da seçki başa çatır və seçki binası bağlanır.

Bu vaxta qədər növbədə durmuş seçicilər səs verə bilərlər. Məntəqə seçki komissiyası sədrinin tapşırığı ilə, komissiya üzvlərindən biri növbədə durmuş seçicilərin soyadları və adlarını qeydə alır və onların sayını Məntəqə Seçki Komissiya sədrinə bildirir, lakin komissiya katib isə onların sayını Qeydlər kitabına daxil edir. Sonuncu seçki səs verdikdən sonra səsvermə bitmiş elan edilir, bundan sonra seçki komissiyası seçki qutusunun kəsiyini möhürləyir.

Məntəqə Seçki Komissiya sədri səslər hesablanarkən səsvermə binasında olmaq hüququna malik şəxslərdən başqa, bütün şəxslərin seçki məntəqəsini tərk etməsini təmin etməlidir.

Məntəqə Seçki Komissiya katibi səsvermə gününün Qeydlər kitabının 26-cı və 27-ci səhifəsinə səslər hesablanan zaman səsvermə binasında olan bütün şəxslərin ad və soyadını (onları seçən/təyin edən subyektləri göstərməklə), həmçinin səsvermə binasında olma hüququ olan bütün digər şəxsin ad və soyadını (onların təqdim etdikləri təşkilatı və yaxud seçki subyektini göstərməklə) və onların imzası ilə təsdiqlədir.

**DİQQƏT!**
Səsvermə binası bağlandıqdan sonar, səsvermə binasına daxil olmaq və səsvermə binasını tərk etmə hüququ səsvermə binasında olma hüququ olan şəxslərin var.

Səsvermə başa çatdıqdan sonra, püşkatma başlayana kimi Məntəqə seçki komissiyanın sədri seçicilərin hər bir qeydiyyatçısına, seçiciləirin siyahısında seçicilərin imzalarının sayını (onlar tərəfindən yazılmış izahatda qeyd olunan məlumatı nəzərə alaraq) və onlar tərəfindən verilmiş seçki bülletenlərin sayını (komissiya sədrinə verilmiş korlanmış seçki bülletenlərin sayını əlavə etməklə) saymaq vacibdir.

Seçicilərin Qeydiyyatçıları sayılmış məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə komissiya sədrinə bildirməlidirlər:

**Verilmiş seçki bülletenlərinin sayına** – **Korlanmış seçki bülletenlərinin sayını** = **Seçicilərin imzalarının sayı**

**DİQQƏT!**
Əgər məlumatlar arasında fərqlik aşkar olunarsa, seçicilərin qeydiyyatçısı yenidən saymalı və sayı dəqiqləşdirməlidir. Əgər məlumatlar arasında yenidən fərqlik aşkar olunarsa, seçicilərin qeydiyyatçısı izahat yazmalıdır (səbəbi göstərilməklə).

Qeydiyyatçıların izahatlarında (mövcud olduğu təqdirdə) verilmiş göstəricilər səsvermə nəticələrinin yekun protokolunun tərtibi zamanı nəzərə alınmalıdır.

Yuxarıda göstərilən məlumatlar məlum olduqdan sonra, vacibdir ki, qeydiyyatçılar həmçinin səsvermədə iştirak edən seçicilərin bərabərlik məlumatlarını bütün növ siyahıda saysınlar. Komisiya sədri məlumatları Dairə Seçki Komissiyasına verir.

## SEÇKİ MƏNTƏQƏSİNİN SƏSLƏRİN HESABLANMASI PROSEDURU ÜÇÜN TƏŞKİLİ

*(Seçki məcəlləsi – maddə 67.1,2; maddə 68.3)*

Komissiyanın sədri səsvermə binasında olmaq hüququna malik şəxslərin iştirakı ilə komissiya üzvlərindən püşkatma yolu ilə dörd sayıcı seçir, müşahidəçilər isə öz tərkiblərindən,qarşılıqlı razılaşma əsasında iki nəfərdən çox olmamaq şərtilə nəzarətçi seçirlər. Əgər müşahidəçilər öz aralarında razılığa gələ bilmirlərsə, onlardan iki nəzarətçini püşkatmayolu ilə komissiyanın sədri seçir.

Sayıcıların aşkar edilməsi üçün komissiya sədri:

- Komissiya üzvlərinin sayına müvafiq olaraq eyni vərəqlər hazırlayır;
- Vərəqlər üzərində eyni rəngli qələmlə funksiyaların “Birinci sayıcı”, “İkinci sayıcı”, “Üçüncü sayıcı”, “Dördüncü sayıcı”, “Beşinci sayıcı” adlarını yazır;
- Püşkatma vərəqlərini komissiyanın xüsusi möhürü ilə təsdiq edir;
- Püşkatma vərəqləri elə qatlayır ki, onlarda mətni oxumaq mümkün olmasın və masanın üzərinə qoyur.

Püşkatmada iştirak edən komissiya üzvləri püşkatma vərəqlərini götürürlər. Komissiyanın katibi püşkatmanın nəticələrini Qeydlər kitabının 3-cü səhifəsinə daxil edir (komissiya üzvləri imzaları ilə funksiyaların verilməsini təsdiqləyirlər).

Komissiyanın sədri püşkatma yolu ilə 2 nəfərdən çox olmayaraq, nümayəndə seçir, bunlar isə komissiya üzvlərindən püşkatma yolu ilə seçilmiş sayıcılarla birlikdə əsl və yaxud batil olunmuş seçki bülletenlərinin hesablanması prosesində iştirak edirlər.

**DİQQƏT!**

Seçki subyektlərinin nümayəndələri olan, təyin olunmuş komissiya üzvləri tərəfindən püşkatma yolu ilə seçilmiş sayıcılar, püşkatmada iştirak etmirlər.

Komissiyanın sədri və sayıcılar seçki məntəqəsini səslərin sayılması proseduru üçün elə hazırlayırlar ki:

- Sayıcılar masanın bir tərəfində yer tutsunlar (yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, sayıcılar masalar arxasında elə yerləşməlidirlər ki, bir-birilərinə üzbəüz olmasınlar);
- Komissiyanın sədri bütün sayıcıları görə bilsin;
- Püşkatma ilə seçilən iki nümayəndə və iki müşahidəçi sayıcıların yanında yer tutsunlar (bir müşahidəçi ikinci sayıcının yanında durur, lakin ikinci – üçüncü sayıcının);
- Səsvermə binasında olmaq hüququna malik digər şəxslər masadan (sayıcılardan) iki metr aralıda yeri elə tutmalıdırlar ki, bülletenlərin sayılma və çeşidlənmə prosesini görə bilsinlər.

Komissiyanın sədri sayıcıların masalarına aparmalıdır:

- Seçicilərin vahid siyahısını, seçicilərin xüsusi siyahısını və aparılası seçki qutusunun siyahısını (mövcud olduğu təqdirdə);
- İstifadə olunmamış seçki bülletenlərini;
- Korlanmış seçki bülletenləri;
- Əsas və daşınan seçki qutularını;
- Müqayisə etmək üçün saxlanılmış yoxlama vərəqini.

## SEÇKİ QUTUSU AÇILANADƏK HƏYATA KEÇİRİLƏSİ PROSEDURLAR

(*Seçki məcəlləsi – maddə 67.3)*

Sayıcılar səsvermədə iştirak edən seçicilərin ümumi sayını ardıcıllıqla sayırlar:

- Seçicilərin vahid siyahısı əsasında;
- Seçicilərin xüsusi siyahı əsasında (mövcud olduğu təqdirdə);

- Aparılası seçki qutusunun siyahısı əsasında (mövcud olduğu təqdirdə).

Məntəqə Seçki Komissiya katibi nəticələri (qeydiyyatçı tərəfindən yazılmış izahatda göstərilmiş məlumatları nəzərə alaraq) dərhal səsvermə nəticələrinin nümayiş protokoluna və səsvermə günün Qeyd kitabına daxil edir.

## SEÇİCİLƏRİN SİYAHILARININ, KORLANMIŞ VƏ İSTİFADƏ EDİLMƏMİŞ SEÇKİ BÜLLETENLƏRİNİN MÖHÜRLƏNMƏSİ

*(Seçki məcəlləsi –maddə 67.4,5-5¹, 9)*

Komissiyanın katibi istifadə edilməmiş bülletenlərin kənarlarını kəsir, sonra ayrı-ayrılıqda paketlərə yerləşdirir:

- Seçicilərin vahid siyahısını;
- Seçicilərin xüsusi siyahısını (mövcud olduğu təqdirdə);
- Aparılası seçki qutusunun siyahısını (mövcud olduğu təqdirdə);
- İstifadə olunmamış seçki bülletenlərini;
- Korlanmış seçki bülletenlərini;
- Qeydiyyatçıların möhürlərini.

Hər bir paketin üzərində seçki dairəsinin adı və nömrəsi, seçki məntəqəsinin adı və nömrəsi, seçki sənədlərinin növü və sayı göstərilməlidir. Paketlər möhürlənir, möhür zolağında sayıcı və komissiyanın sədri imza atırlar.

Qeyd edilən prosedur bitdikdən sonra Məntəqə Seçki Komissiyasının katibi seçicinin üzünün və təqdim etdiyi sənədlə/ seçici siyahısında olan fotoşəkil ilə bir-birinə uyğun gəlmədiyi halda, eləcədə səsvermə günü qeydiyyat kitabı üçün əlavə olunan sənədlərinin sayını qeyd edir (məlumatları Qeydlər kitabına qeyd edir). Komissiyasının katibi qeyd edilən sənədi möhürləyir, möhürlənmiş zərfdə seçki məntəqəsinin adını, nömrəsini, sənədlərin adını göstərir və imzalayır.

**DİQQƏT!**

Məntəqə seçki komissiyasının sədri seçki sənədlərinin və seçki inventarının möhürlənməsi üçün müəyyən olunmuş tələblərə əməl edilməməsinə görə məsuliyyət daşıyır.

## SƏS SAYILMA PROSESİNİN AUDİO-VİDEO FİKSASİASI

Məntəqə Seçki Komissiyası seçki qutusunun / qutularının açıldığı andan, seçki bülletenlərinin dəstəsinin möhürlənməsi anı daxil olmaqla, səslərin hesablanması prosesinin fiksasiyasını (bundan sonra "fiksasiya") təmin etməlidir.

Məntəqə Seçki Komisissiyasının sədri səs sayılma prosesinin və seçki bülletenlərinin yerləşdirildiyi yerin tam görünməsi üçün video çəkiliş vasitəsinin yerləşdirilməsini təmin etməyə məcburdur.

Səsvermə binasında video çəkən cihazın lazımı qaydada istifadə edilməsi və səs sayılma prosesinin video qeyd edilməsini partiyalar tərəfindən təyin olunmuş Məntəqə Seçki Komissiyası üzvlərindən, (hansılar ki, Gürcüstan parlamentinin parlament çoxluğuna daxil olmayırlar) Dairə Seçki Komissiyası tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydaya uyğun olaraq, püşkatma yolu ilə təyin olunmuş məntəqə seçki komissiyasının üzvü təmin edir.

Püşkatma ilə müəyyən edilmiş Məntəqə Seçki Komissiyasının üzvü səsvermə günü ona həvalə olunmuş funksiyanı yerinə yetirməkdən imtina edərsə və ya səsvermə günü səsvermə binasına gəlməzsə, video çəkən cihazın lazımı qaydada istifadə edilməsi və səs sayılma prosesinin video qeyd edilməsini Məntəqə Seçki Komissiyasının sədri və ya onun təyin etdiyi məntəqə seçki komissiyası üzvü təmin edir.

**DİQQƏT!**

Məntəqə Seçki Komissiyasının sədri (və ya zərurət yarandıqda Məntəqə Seçki Komissiyasının sədr müavini) video çəkmə cihazının lazımı qaydada istifadəsinə və seçki bülletenlərin sayılması prosesinin video qeydinin zədələnməsini və ya silinməsini qorumağa məsuliyyət daşıyır.

Video çəkən cihazının düzgün və texniki cəhətdən düzgün işləməsini təmin etmək üçün MSK-nın Seçki İnformasiya Texnologiyaları Departamentinin əməkdaşları və dairə seçki komissiyalarının texniki heyəti, səsvermə binalarında səs sayılma prosesində iştirak etmək səlahiyyətinə malikdirlər və lazım gəldikdə məntəqə seçki komissiyalarına texniki yardım göstərəcəklər.

Video çəkən cihazının texniki nasazlığı və ya zədələnməsi halında səs sayma prosesi dayandırılmır.

## APARILASI SEÇKİ QUTUSUNUN AÇILMASI

*(Seçki məcəlləsi –maddə 68.1,2,4)*

Komissiya ilk növbədə aparılası seçki qutusunu açır. Komissiyanın sədri, komissiya üzvlərinin və səsvermə binasında olmaq hüququna malik şəxslərin iştirakı ilə seçki qutusunun möhürünün bütövlüyünü yoxlayır.

**DİQQƏT!**

Əgər möhürün bütövlüyünün pozulduğu aşkar edilərsə, lakin komissiyası belə hesab edərsə ki, bu qanunun tələblərini pozmağa səbəb olmamışdır, komissiyanın sərəncamı ilə səsvermə nəticələrinin yekunlaşdırılması proseduru davam etdirilir (qeyd olunan fakt dərhal Dairə Seçki Komissiyasına bildirilir). Əks təqdirdə, seçki qutusu möhürlənir və Məntəqə Seçki Komissiyanın sərəncamı ilə birlikdə dərhal Dairə Seçki Komissiyasına təqdim olunur.

Sayıcılar aparılası seçki qutusunda olan xüsusi zərfləri masanın üzərinə yerləşdirirlər, bundan sonra isə:

- Aparılası seçki qutusunda yoxlama vərəqinin mövcudluğunu yoxlayırlar;
- Aparılası seçki qutuda mövcud olan yoxlama vərəqini komissiyada müqayisə məqsədilə saxlanılmış yoxlama vərəqəsi ilə tutuşdururlar;
- Əgər pozuntu aşkar edilməzsə, komissiyanın sədri sayıcılara xüsusi zərfləri aparılası qutuya müvəqqəti qaytarmaq göstərişini verir.

**DİQQƏT!**

Əgər aparılası seçki qutusunda yoxlama vərəqi aşkar edilməsə və ya o müqayisə üçün saxlanılmış yoxlama vərəqindən əsaslı surətdə fərqlənərsə, aparılası qutuda aşkar edilmiş bütün xüsusi zərflər və bülletenlər paket halında bağlanır və “Batildir” yazılır. Seçki məntəqəsində səsvermə və səslərin sayılma prosedurları başa çatdırıldıqdan sonra sənədlər Yuxarı Dairə Seçki Komissiyasına təqdim edilir.

## ƏSAS SEÇKİ QUTUSUNUN AÇILMASI

*(Seçki məcəlləsi –maddə 68.1,2,5)*

Komissiya sədri, komissiya üzvlərinin və səsvermə binasında olmaq hüququna malik şəxslərin iştirakı ilə seçki qutusunda möhürün bütövlüyünü yoxlayır.

**DİQQƏT!**

Əgər möhürün bütövlüyünün pozulduğu aşkar edilərsə, lakin komissiyası belə hesab edərsə ki, bu qanunun tələblərini pozmağa səbəb olmamışdır, komissiyanın sərəncamı ilə səsvermə nəticələrinin yekunlaşdırılması proseduru davam etdirilir (qeyd olunan fakt dərhal Dairə Seçki Komissiyasına bildirilir). Əks təqdirdə, seçki qutusu möhürlənir və Məntəqə Seçki Komissiyanın sərəncamı ilə birlikdə dərhal Dairə Seçki Komissiyasına təqdim olunur.

**Sayıcılar:**

- Əsas seçki qutusunda mövcud olan xüsusi zərfləri və seçki bülletenlərini masanın üzərinə düzürlər;
- Əsas seçki qutusunda yoxlama vərəqinin mövcudluğunu yoxlayırlar və onu komissiyada müqayisə məqsədilə saxlanılmış yoxlama vərəqi ilə tutuşdururlar.

**DİQQƏT!**

Əgər yoxlama vərəqləri arasında fərqlik aşkar edilərsə və ya əsas seçki qutusunda yoxlama vərəqi aşkar edilməzsə, bütün xüsusi zərflər və seçki bülletenləri qablaşdırılır və möhürlənir, müvafiq protokol tərtib olunur və dərhal Dairə Seçki Komissiyasına verilir.

Əgər hər bir şey qaydadadırsa, sayıcılar bir-birinə əsas və aparılası seçki qutusundan götürülən xüsusi zərfləri qatır və seçki bülletenlərini saymağa başlayırlar.

Seçki bülletenlərinin sayma prosesini başlayana qədər komissiya sədri yoxlama vərəqlərini möhürləyir. Möhürlənmiş paketə seçki məntəqəsinin adını, nömrəsini, sənədin növünü qeyd edir və imza atır.

## SEÇKİ BÜLLETENLƏRİNİN ÇEŞİDLƏNMƏSİ

*(Seçki məcəlləsi- maddə 69.1,3,5)*

**Birinci sayıcı:**

- Xüsusi zərfdən seçki bülletenləri çıxarır;
- Seçki bülletenlərinin düzgünlüyünü yoxlayır;
- Kimə səs verildiyini elan edir;
- Seçki bülletenini subyektlərə görə ikinci və üçüncü sayıcıya verir;
- Batil sayılmış seçki bülletenləri, şübhəli hesab olunan seçki bülletenləri və müəyyən olunmamış nümunənin bülletenlərini dördüncü sayıcıya verir;
- Xüsusi zərfləri ayrıca qoyur.

**DİQQƏT!**

Səslərin sayılması prosesi gedən seçki məntəqəsində birinci sayıcı xüsusi zərfdən götürülmüş seçki bülletenini əlində elə tutmağa borcludur ki, video qeyd edən ciyaz seçki bülleteninin öz vərəqinin fiksasiyasını edə bilsin.

**Sayıcılar ayrı-ayrılıqda düzürlər:**

- Hər bir seçki subyektinə verilmiş səslərə uyğun olaraq bülletenləri;
- Batil hesab olunmuş bülletenləri;
- Şübhəli hesab olunan bülletenləri.

**DİQQƏT!**

Əgər xüsusi zərfdə eyni tipli birdən çox seçki bülleteni və ya seçki bülleteni seçki qutusunda xüsusi zərf olmadan aşkar olunarsa, Dairə Seçki Komissiyası tərəfindən seçki qanunvericiliyi ilə müəyyən edilmiş hallarda seçki məntəqəsinin nəticələrini yenidən saymaq üçün sayıcılar belə bir bülletenin arxasına batil hesab olunması barədə əsas yazmalıdırlar («daha çox seçki bülleteni», «zərfsiz»).

**Müəyyən olunmuş nümunənin seçki bülleteni yalnız o halda batil hesab oluna bilər, əgər:**

- Xüsusi zərf müəyyən olunmuş nümunədən deyilsə;
- Xüsusi zərfdə birdən çox və eyni növdə olan seçki bülleteni aşkar edilmişdirsə;
- Seçki bülleteni seçki qutusunda xüsusi zərf olmadan aşkar edilmişdirsə;
- Seçki bülleteni seçicilərin qeydiyyatçısının imzası və yaxud qeydiyyatçının möhürü ilə təsdiqlənməyibsə;
- Seçicinin hansı seçki subyektinə səs verdiyini müəyyənləşdirmək mümkün olmursa;
- Seçki bülleteni başqa seçki məntəqəsinə mənsubdursa (belə bülletenlər ayrıca paketə toplanır və onların miqdarı yalnız Qeydlər kitabında göstərilir, qeyd edilən göstəricilər yekun protokoluna daxil edilmir).

Seçki bülletenlərinin çeşidlənməsi başa çatdırıldıqdan sonra komissiya şübhəli sayılan bülletenlərin həqiqiliyi məsələsini müzakirə edir və püşkatma ilə həll edir. Qərar səs çoxluğu ilə qəbul edilir. Səslərin bərabərliyi halda komissiya sədrinin səsi həlledicidir. Həqiqi hesab edilmiş seçki bülletenlərini komissiyanın sədri həqiqi büllütenlər dəstinə (seçki subyektlərinə verilmiş səslərə əsasən), batil hesab olunmuş seçki bülletenlərini isə batil hesab edilmiş seçki bülletenləri dəstinə əlavə edir.

## SEÇKİ BÜLLETENLƏRİNİN HESABLANMASI

*(Seçki məcəlləsi – maddə 69.8,9)*

Bülletenlər çeşidləndikdən sonra komissiya sədri sayıcılara göstəriş verir ki, hesablasınlar:

- Batil hesab olunmuş bülletenləri;
- Hər bir seçki subyektinə verilmiş səsləri.

**DİQQƏT!**

Seçki subyektinə mənsub hər 10 seçki bülleteni metal sıxıcı ilə sıxılır və tam, eləcə də tam olmayan hər bir dəstin üzərində bağlanmış seçki bülletenlərinin sayı yazılmalıdır.

Komissiyanın sədri hər bir seçki subyektinin topladığı səslərin sayını elan edir və komissiya katibi ilə birlikdə məlumatların düşğünlüyünü yoxlayır. Alınan nəticələri komissiya katibi səsvermə günün Qeydlər kitabına və səsvermə nəticələrinin nümayiş protokoluna daxil edir.

## SEÇKİ BÜLLETENLƏRİNİN MÖHÜRLƏNMƏSİ

*(Seçki məcəlləsi –maddə 69.6,9)*

Seçki bülletenləri sayıldıqdan sonra komissiyanın sədri sayıcılara ayrı-ayrı zərflərdə möhürlənmək üçün göstəriş verir:

- Batil olunmuş seçki bülletenləri (onlara “batildir” sözü yazılır);
- Seçki subyektinə məxsus olan seçki bülletenlərinin dəstləri.

**DİQQƏT!**

Hər bir seçiki subyektinə məxsus olan seçki bülletenlərinin paketinin üzərinə Dairə və Məntəqə Seçki Komissiyanınnın adı və nömrəsi, subyektin göstəriciləri (adı/adı və soyadı) və seçki bülletenlərinin sayı yazılmalıdır. Batil seçki bülletenlərinin paketinin üzərinə Dairə və Məntəqə Seçki Komissiyanınnın adı və nömrəsi, seçki bülletenlərinin sayı yazılmalıdır. Möhürlənmiş zərfə sayıcılar və komissiyanın sədri imza atırlar.

Bu tələblərin yerinə yetirilməməsinə görə məntəqə seçki komissiyasının sədri məsuliyyət daşıyır.

## SƏSVERMƏ NƏTİCƏLƏRİNİN YEKUN PROTOKOLUNUN TƏRTİBİ

*(Seçki məcəlləsi –maddə 70-71)*

Məntəqə Seçki Komissiyasının səsvermə nəticələrinin yekun protokolunda çap forması ilə aşağıdakı məlumat əks olunub:

- Seçkilərin adı və səsvermənin tarixi;
- Seçki dairəsinin nömrəsi və adı;
- Seçki məntəqəsinin nömrəsi;
- Əsas seçki məntəqəsində asılmış yaradılmış seçki məntəqəsinin nömrəsi (mövcud olduğu təqdirdə) istisna olmaqla;
- N1 qrafada – vahid siyahıda seçicilərin sayı;
- N2 qrafada – alınan seçki bülletenlərinin sayı;
- Seçki subyektlərinin adı (sıra nömrəsini göstərməklə).

Səslərin sayılma prosesi bitdikdən sonra, komissiya katibi komissiya sədri ilə razılaşma əsasında səsvermə nəticələrinin yekun protokolunu doldurur və aşağıdakı məlumatı əlavə edir:

- N3 qrafada – xüsusi siyahıda seçicilərin sayı;
- N4 qrafada – bütün növdə (vahid, xüsusi/aparılası seçki qutusunun siyahısı) olan seçicilərin siyahılarında saat 12:00-da və saat 17:00-da seçkilərdə iştirak edən seçicilərin imzalarının sayını;
- N5 qrafada – seçkilərdə iştirak edən seçicilərin ümumi sayını (bütün növlü siyahıda imzaların cəmini, seçicilərin qeytiyyatçılarının izahatlarında əks olunan göstəriciləri nəzərə alaraq (mövcud olduğu təqdirdə));
- N6 qrafada – batil hesab olunan seçki bülletenlərinin sayı;
- Seçki subyektləri üçün verilmiş səslərin sayı;

**DİQQƏT!**

N3, N4, N5, N6 qrqafalarda, həmçinin subyektlər üçün verilmiş səslərin sayının qrafalarında verilmiş dördbəndli damalardan dördüncü (sonuncu) damada katib təkliklər sırasının rəqəmini, üçüncü damaya – onluqlar sırasının rəqəmini, ikinci damaya – yüzlüklər sırasının rəqəmini, birinci damaya – minliklər sırasının rəqəmlərini daxil etməlidir;

Əgər müvafiq məlumatlar qrafasında boş dama/damalar qalarsa, komissiya katibi boş dama/damalara ”X” nişanını qeyd etmək arzu edilir.




- Qeydiyyatçıların möhürlərinin və komissiyanın möhürünün nömrəsi.

Məntəqə Seçki Komissiyanın bütün üzvü  səsvermə nəticələrinin yekun protokolunu imzalamağa məcburdur, bununla onların seçki məntəqəsində olmaları təsdiqlənir. Əgər Məntəqə Seçki Komissiyanın üzvü, ona daxil olunan məlumatlarla razılaşmırsa, onun protokola yazılı şəkildə fərqli fikirini əlavə etmək hüququ var (səsvermə nəticələrinin  yekun protokolunun xüsusi qrafasında məlumat qeyd olunmalıdır, hansınla ki, komissiya üzvü razılaşmır, onu imzası ilə təsdiqləyir). Fərqli fikir bildirdikdə Məntəqə Seçki Komissiya üzvü səsvermə nəticələrinin  yekun protokolunu, komissiya üzvünün imzası üçün nəzərdə tutulmuş qrafada imzalamağa məcburdur.

**DİQQƏT!**

Məntəqə Seçki Komissiyası tərəfindən tərtib edilmiş səsvermə nəticələrinin yekun protokolu, məntəqə seçki komissiyası üzvlərinin əksəriyyəti tərəfindən imzalanarsa hüquqi qüvvəyə malikdir.

Səsvermə nəticələrinin yekun protokolunda həmçinin onun tərtib olunma tarixi və vaxtı (saat və dəqiqə) qeyd olunmalıdır. Səsvermə nəticələrinin yekun protokolu Məntəqə Seçki Komissiyanın xüsusi möhürü ilə təsdiqlənir. Komissiyasının katibi səsvermə nəticələrinin yekun protokolunu Qeydiyyat jurnalının verilmiş sənədlər hissəsində qeydiyyatdan keçirir.

**DİQQƏT!**

Səsvermə  nəticələrinin yekun protokolunda daxil olunmuş məlumatları dəyişmək qadağandır.

Əgər səsvermə nəticələrinin yekun protokolunun N3, N4, N5, N6 qrafalarında, həmçinin həmçinin namizədlər üçün verilmiş səslərin sayının qrafalarında məlumatların daxil edərkən səhvə yol verilərsə, səhvi

düzəltdikdə səsvermə nəticələrinin yekun protokolunda müvafiq məlumatların kənarında "düzəldilib" yazısı yazılır və düzəliş protokolu tərtib olunur.

Komissiya katibi düzəliş protokolunu komissiya sədrinin razılığı əsasında tərtib olunur, ona aşağıdakı məlumatları daxil edir:

- Seçki dairəsinin nömrəsi və adı;
- Seçki məntəqəsinin nömrəsi;
- Səsvermə nəticələrinin yekun protokolunda düzəliş daxil olan müvafiq qrafasının nömrəsini; Bu qrafada düzəliş olan rəqəm və onun yerinə yazılmalı olan rəqəm;
- Seçki subyektinin adı/namizədin adı və soyadı, hansının kənarında məlumatlarda düzəliş olur;
- Bu qrafada düzəliş olan rəqəm və onun yerinə yazılmalı olan rəqəm;

Seçki komissiyasının iştirak edən bütün üzvü düzəldilmiş protokola imza atmağa məcburdular. Düzəldilmiş protokola seçki komissiyasının möhürü ilə möhürlənir. Komissiya katibi düzəliş protokolunu Qeydlər jurnalında verilmiş sənədlərin hissəsində və Qeydlər kitabında qeyd edir. Düzəldilmiş protokol səsvermə nəticələrinin yekun protokoluna əlavə olunacaq.

**DİQQƏT!**

Məntəqə Seçki Komissiyasının möhürünü möhürlədikdən və bütün komissiya üzvləri tərəfindən imzaladıqdan sonra səsvermənin nəticələrinin yekun protokoluna dəyişiklik edilməsi barədə protokol tərtib etmək qadağandır.

Əgər səsvermə nəticələrinin yekun protokolunu doldurarkən səhvə yol verilərsə, qeydiyyatçıların möhürlərinin nömrəsi, komissiya möhürünün nömrəsi, səsvermə nəticələrinin yekun protokolunun tərtib olunma tarixi/vaxtı daxil etməklə, və ya səsvermə nəticələrinin yekun protokolu komissiyanın xüsusi möhürü ilə təsdiqlənməyib və bu forma ilə onun fotosurəti verilib, komissiya üzvü izahat yazmalıdır.

## SƏSVERMƏ NƏTİCƏLƏRİNİN YEKUN PROTOKOLLARININ AŞKARLIĞI

*(Seçki məcəlləsi – maddə 2.h [5]; maddə 8.14; maddə 71.8)*

Komissiya səsvermə nəticələrinin yekun protokolunun surətlərini kütləvi tanışlıq üçün asmalıdır. Məntəqə Seçki Komissiya səsvermə nəticələrinin yekun protokolunun və düzəliş protokolunun (mövcud olduğu təqdirdə) surətini, komissiya üzvlərinin əlavə olunmuş fərqli fikirlərini (mövcud olduğu təqdirdə), tələb olunduğu təqdirdə seçki binasında olmaq hüququna malik bütün şəxslərə dərhal ötürür.

Səsvermə nəticələrinin yekun protokolunun və düzəliş protokolunun (mövcud olduğu təqdirdə) surəti komissiyanın möhürü və komissiya sədrinin və katibinin imzası ilə təsdiq edilməlidir. Surətlərin götürülməsini götürən şəxs Qeydlər kitabında imzası ilə təsdiq edir.

Səsvermə nəticələrinin yekun protokolu/düzəliş protokolu ilə əlaqədar lar komissiya üzvlərinin izahatları (belәsinin mövcudluğu təqdirdə), tələb olunma əsasında Dairə Seçki Komissiyası tərəfindən tələb olunduqdan 2 gün müddətində verilir.

## QEYDİYYAT JURNALININ, SƏSVERMƏ GÜNÜ QEYDLƏR KİTABININ MÖHÜRLƏNMƏSİ, SƏSVERMƏ SƏNƏDLƏRİNİN DAİRƏ SEÇKİ KOMİSSİYASINA VERİLMƏSİ

*(Seçki məcəlləsi –maddə 62.11; maddə 71.12,13)*

Bütün prosedurlar başa çatdırıldıqdan sonra komissiyanın Qeydiyyat jurnalı və qeydlər kitabı bağlanır, komissiyanın katibi və sədri ona imza atırlar və Məntəqə Seçşki Komissiyasının möhürü ilə təsdiq edilir.

**Komissiya möhürləyir:**

- Seçkilər günü Qeydlər kitabını, qeydiyyat jurnalını və ərizə/şikayətləri;
- Məntəqə seçki komissiyasının xüsusi möhürünü (Komissiya möhürünü möhürlənmiş zərfinə komissiyanın bütün üzvləri imza atırlar).

**DİQQƏT!**

Səsvermənmə nəticələrinin yekun protokolu və Qeydiyyat jurnalı möhürlənmir.

Komissiyanın səlahiyyətli üzvləri Dairə Seçki Komissiyasında inventarı və seçki sənədləri qutusunu/kisəsini verirlər, hansında ki, möhürlənmiş seçki sənədləri yerləşdirilir və ondan kənar:

- Səsvermə nəticələrinin yekun protokolu, düzəliş protokolu (mövcud olduğu təqdirtə) və fərqli fikiri (mövcud olduğuy təqdirdə);
- Qeydiyyat jurnalını və Məntəqə Seçki Komissiya üvlərinin izahatlarını (mövcud olduğu təqdirtə);
- Ərizələr/ şikayətlər və səsvermə günün Qeydlər kitabının möhürlənmiş zərfini.

**DİQQƏT!**

Səslərin sayılması prosesinin fiksasiyası həyata keçirilən seçki məntəqəsində, Məntəqə Seçki Komissiyasının sədri seçki sənədləri ilə birlikdə video çəkən cihazı səs sayılma prosesinin video qeydi ilə birlikdə Dairə Seçki Komissiyasına təhvil verməlidir.

Seçki inventarı və seçki sənədlərinin verilməsi ilə əlaqədar qəbul-təhvil aktı tərtib olunur. Qəbul-təhvil aktını seçki sənədlərini verən və alan şəxslər imzalayırlar, bundan sonra isə hər birinə aktın bir nüsxəsi verilməlidir.

# IV HİSSƏ

## SƏSVERMƏ GÜNÜNÜN ƏRİZƏ VƏ ŞİKAYƏTLƏRİ

# FƏSİL I. SƏSVERMƏ GÜNÜNÜN ƏRİZƏ/ ŞİKAYƏTLƏRİNİN QEYDƏ ALINMASI

*(Seçki məcəlləsi – maddə 61.5; maddə 62.10; maddə 72.1; maddə 73)*

Məntəqə Seçki Komissiyalarında partiyanın/seçki blokunun/seçicilərin təşəbbüs qrupunun nümayəndəsinin və müşahidəçinin hüququ vardır:

- Ərizəni/şikayəti Məntəqə Seçki Komissiya sədrinə, onun müavininə və yaxud komissiyanın katibinə vernək (Əlavə №1);
- Səsvernə günü seçki proseduru ilə əlaqədar etiraz, şikayətlər və qeydlər Qeydlər kitabında əks olunmalıdır (10-cu və növbəti səhifələrdə).

**DİQQƏT!**

Səsvermə binasında olmaq hüququna malik şəxslərə Qeydlər kitabına etiraz, qeyd və ya şikayət daxil etməyə heç kəsin mane olmaq hüququ yoxdur.

Səsvermə günün Qeydlər kitabına qeyd daxil edən şəxs öz soyadını, adını və (Gürcüstan vətəndaşının qeydiyyatı vəsiqəsi üzrə) ünvanını göstərməyə borcludur.

Seçki məntəqəsində seçki prosesinin pozulması barəsində ərizə/şikayət pozuntuyu nəzərə aldığı anda tərtib olunmalıdır, səsvermə günü saat 7-dən qutuyu açana kimi, lakin ərizə/ şikayəti səsi saydıqdan və səsvermə nəticələrinin yekunlaşdırma prosedurları zamanı törədilən pozuntu haqqında və səsvermə nəticələrinin yoxlanılması və ya batil hesab edilmə tələbi ilə tərtib olunmalıdır qutunun açılmasından səsvemə nəticələrinin yekun protokolunu tərtib edilənə kimi.

Məntəqə Seçki Komissiya katibi, ərizə/şikayəti qeydiyyat jurnalının daxil olan sənədlər hissəsində qeydiyyata alır, həmçinin qeydlər kitabında və ərizəçi/şikayətçiyə ərizə/şikayətin verilmə tarixi, vaxtı və qeydiyyat nömrəsi qeyd olunan arayış verir. Arayışı komissiyanın katibi öz imzası ilə təsdiq edir (Əlavə №2).

**DİQQƏT!**

Əgər səsvermə binasında olmaq hüququna malik olan şəxslər şikayətlərin qeydə alındığı zaman pozuntuları aşkar ediblərsə, bu şikayətin qeydə alınması ilə əlaqədar qərarı komissiya qəbul edir.

## SƏSVERMƏ GÜNÜ ƏRİZƏ/ ŞİKAYƏTLƏRDƏ NÖQSANLARIN AŞKARLANMASI QAYDASI

*(Seçki məcəlləsi – maddə 72.2; maddə 74.2,3,4,5; Gürcüstan Mərkəzi Seçki Komissiyanın 2012-ci il 2 mart tarixli # 8/2012 qərar)*

Məntəqə seçki komissiyasının katibi, komissiyanın sədri və ya komissiya sədrinin müavini ərizə-şikayəti təqdim edənin nöqsanını aşkar edir və onu aradan qaldırmaq üçün münasib vaxt müəyyənləşdirir, əgər ərizə/şikayətdə qeyd olunmayıb:

- Ərizə/şikayətin tərtib edildiyi tarix və vaxtı;
- Ərizəçinin/şikayətçinin adını, soyadını və qeydiyyatda olduğu yeri;
- Seçki məntəqəsinin nömrəsini;
- Şahid olduğu təqdirdə - adını, soyadını və qeydiyyat yerini.

Ərizəçinin müəyyən edilmiş vaxtda nöqsanı analoji ərizə/şikayət təqdim etmək yolu ilə düzəltmək və yaxud yeni ərizə vermək hüququ vardır (burada onun nöqsanlarının aşkar edildiyi göstəricilər qeydə alınır). Komissiyanın katibi Qeydlər jurnalında "nöqsan" qeydini göstərir. Həmin yazının qarşısında ərizəni/ şikayəti təqdim edən şəxs və komissiyanın müvafiq rəhbər şəxsi imza atır.

**DİQQƏT!**

Nöqsanın doldurma vaxtı tərəflərin razılığı əsasında müəyyənləşdirilir. Nöqsanın doldurulma müddəti barədə tərəflər arasında narazılıq baş verdiyi təqdirdə, vaxtı, ərizə/şikayəti qəbul edən şəxs tərtib edir.

Nöqsanın doldurulması təqdirdə  komissiya katibi, komissiya sədri və yaxud komissiya sədrinin müavini Qeydiyyat jurnalındda "Doldurulub" yazır və nöqsanın doldurulmasının dəqiq vaxtını göstərir. Qeydin qarşısında ərizə/ şikayəti təqdim edən şəxs və komissiyanın müvafiq rəhbər şəxsi imza atır.

**DİQQƏT!**

Müəyyən olunmuş vaxtda nöqsanın doldurulmaması təqdirdə ərizə/şikayət müzakirə olunmur.

# FƏSİL II. SƏSVERMƏ GÜNÜ ƏRİZƏ/ŞİKAYƏTLƏRƏ REAKSİYA

*(Seçki məcəlləsi – maddə 72.3; maddə 73.3; maddə 74.5; Gürcüstan Mərkəzi Seçki Komissiyanın 2012-ci il 2 mart tarixli №8/2012 qərar)*

Məntəqə Seçki Komissiya sədri/komissiya ərizə/şikayətə dərhal müvafiq reaksiya göstərməyə və mövcud olan pozuntuyu aradan qaldırmağa məcburdur. ərizə/şikayətdə qeyd olunan pozuntunu aradan qaldırdıqda səsvermə nəticələrin yekun protokolunda komissiya katibi "pozuntu aradan qaldırılıb" yazır və dəqiq vaxtını qeyd edir.

Əgər Məntəqə Seçki Komissiya sədri/komissiya pozuntunu aradan qaldıra bilmərsə və ya digər forma ilə ərizə/şikayətə reaksiya göstərməkdən imtina edərsə, müşahidəçi/seçki subyektinin nümayəndəsinin və ya həmin müşahidəçi təşkilatın digər müşahidəçi/seçki subyektinin nümayəndəsinin seçki məntəqəsinin açılışında (saat 07:00-dan) seçki qutusu açılanadək aşkar olunan pozuntunu müvafiq Dairə Seçki Komissiyasında (Dairə Seçki Komissiyası pozuntunu aradan qaldırmaq üçün müvafiq ölçülər götürməyə məcburdur).

Əgər Məntəqə Seçki Komissiya sədri/komissiya pozuntunu aradan qaldıra bilmərsə və ya digər forma ilə ərizə/şikayətə reaksiya göstərməkdən imtina edərsə, hansı ki, səslərin sayılması və səsvermə nəticələrinin yekun prosedurları zamanı həyata keçirilən pozuntulara aiddir, müşahidəçi/seçki subyektinin nümayəndəsinin və ya həmin müşahidəçi təşkilatın digər müşahidəçi/seçki subyektinin nümayəndəsinin Məntəqə Seçki Komissiya/Məntəqə Seçki Komissiya sədrinin hərəkəti müvafiq Dairə Seçki Komissiyasında 2 təqvim gün ərzində şikayət etməyə (Dairə Seçki Komissiyasıərizə/şikayəti qəbul etdikdən 4 təqvim gün ərzində müzakirə edir) hüququ var.

Təqdim olunmuş ərizə/şikayət müzakirə edilmir və Məntəqə Seçki Komissiyasının sədri ərizə/şikayətin müzakirə olunmamış saxlandığı barədə sərəncam verir, əgər:

- Ərizə/şikayət hüququ olmayan şəxs tərəfindən tərtib edilmişdirsə;
- Ərizə/şikayətdə pozuntunun məğzi və onun törədildiyi vaxt qeyd edilməmişdirsə;
- Ərizə/şikayət qanunla nəzərdə tutulmuş vaxtın və qaydanın pozulması ilə təqdim edilmişdirsə;
- Təqdim edilmiş ərizə/şikayətdəki nöqsan müəyyən olunmuş vaxtda düzəldilməmişdirsə.

## ƏLAVƏ #1

# Məntəqə Seçki Komissiyasına təqdim olunmuş ərizə/şikayətin rekvizitləri

Ərizə/şikayətdə qeyd edilir:

- Ərizənin/şikayətin tərtib edilməsi tarixi və vaxtı*;
- Ərizəçinin/şikayəçinin adı, soyadı və qeydiyyat yeri*;
- Seşki məntəqəsinin nömrəsi *;
- Şahidin olduğu təqdirdə - onun adı, soyadı və qeydiyyat yeri *;
- Pozuntunun məğzi və onun törədildiyi vaxt **;
- Pozuntunun müəyyənləşdirildiyi təqdirdə, müəyyənləşdirilməsi mümkün olan göstəricilər **;
- Pozuntuya yol verənin izahatı (onun mövcudluğu təqdirdə)**;
- Ərizəçinin/şikayətçinin əlaqə telefonunun (yaşadığı yerin və ya mobil telefonunun) nömrəsi***;
- Eləcə də ərizəçinin/şikayətçinin faksı və elektron poçtunun ünvanı (mövcud olduqları təqdirdə) ***;
- Digər əlavə məlumatlar.

* Qeyd edilən rekvizitlərin göstərilməməsi ərizə/şikayətin nöqsanının müəyyənləşdirilməsi əsasını, nöqsanların aradan qaldırılmadığı təqdirdə isə onun müzakirə olunmamış saxlanmasının əsasını qeyri-dəqiq və ya natamam təşkil edir.

** Qeyd edilən rekvizitlərin göstərilməməsi nöqsanın müəyyənləşdirilməsindən kənar ərizə/şikayətin müzakirə olunmamış saxlanmasının əsasını.

*** Qeyd edilən rekvizitlərin qeyri-dəqiq və ya natamam göstərilməməsi ərizə/şikayətin nöqsanının müəyyənləşdirilməsi və müzakirə olunmamış saxlanmasının əsası ola bilməz, lakin tərəfin şikayətinin müzakirəsinə qayıtmağın qeyri-mümkünlüyünün səbəbi ola bilər..

## ƏLAVƏ #2

**№ “......”........................Seçki dairəsi**

**№ ”.........”..............................Məntəqə Seçki Komissiyası**

**ARAYIŞ**

Ərizə/şikayətin Məntəqə Seçki Komissiyasında qeydiyyatdan keçirilməsi haqqında

Nümunə

Ərizə/şikayətin qəbul edilmə tarixi: ...............................................................

Ərizə/şikayətin qəbul edilmə vaxtı. ...............................................................

Ərizə/şikayətin qeydiyyat nömrəsi: ...............................................................

Komissiyanın katibi/komissiyanın səlahiyyətli şəxsi: ........................................

/ İmza /

## ƏLAVƏ #3

### Məntəqə Seçki Komissiya sədrinin səlahiyyətləri

**1. Məntəqə Seçki Komissiyanın iclası ilə bağlı səlahiyyətlər:**

- Məntəqə Seçki Komissiyanın iclasını çağırırsınız;
- Məntəqə Seçki Komissiyanın iclaslarına rəhbərlik edirsiniz.

**2. İnzibati vəzifələr:**

- Komissiya sədrinin müavininə, komissiya katibinə və komissiyanın başqa üzvlərinə tapşırıq verə bilərsiniz;
- Səlahiyyət çərçivəsində əmr vermək hüququna maliksiz;
- Mərtəqə Seçki Komissiyasına daxil olan sənədləri və Məntəqə Seçki Komissiyasının adına gəlmiş korrespondensiyanı qəbul edir və öz qətnamənizlə bölüşdürürsünüz;
- Dairə Seçki Komissiyası qarşısında sənədlər, inventar və başqa materialların qəbul edilməsində, saxlanılması və təyinatına uyğun verilməsində məsuliyyət daşıyırsınız.
- Kütləviliyi təmin etmək məqsədilə nəzərə alın ki, məntəqədə nəzərəçarpan yerdən asılmalıdır:
  - ☐ Komissiyasının kontakt telefon nömrəsi və başqa rekvizitləri;
  - ☐ Məntəqə Seçki Komissiyasının fəaliyyətinə aid seçki administrasiyasının hüquqi aktları;
  - ☐ Məntəqə Seçki Komissiyasının və komissiya sədrinin sərancamları;
  - ☐ Seçicilərin vahid siyahısının ictimai məlumat üçün mövcud olan versiyası (divar siyahısı fotoşəkillərsiz), seçicilərin siyahısına dəyişikliklər daxil etmənin və qeyri-dəqiqlikləri şikayət etmək qaydası və müddəti.

**DİQQƏT!**

Səsvermə günününə qədər ən geci iki gün qalmış dəqiqləşdirilmiş siyahıların son versiyası – ictimai informasiya üçün mövcud olunan – divar siyahısı sizə təqdim olunacaq.

İctimai məlumat üçün ayrılmış divar siyahısının ilkin versiyasını götürməli və dəqiqləşdirilmiş siyahını eyni yerdən asmalısınız.

**3. Yeni koronavirus (SARS-CoV-2) səbəb olduğu infeksiyanın (COVID-19) yayılmasının prevensiyası məqsədi ilə, səsvermə binasında keçirilәsi sanitariya-gigiyenik tədbirlər:**

- Seçki məntəqəsinin açılmasından əvvəl və səsvermə nəticələrinin yekunlaşdırma prosesi başa çatdıqdan sonra səsvermə binası təmizlənməli və dezinfeksiyaedici məhlulla işlənilməlidir;
- Səsvermə günü ərzində səsvermə binasında tez-tez toxunulan səthlərin (o cümlədən qapı tutacaqları, iş masaları və s.) müvafiq qaydada və çirklənməsinə əsasən hər 3 saatdan bir təmizlənib dezinfeksiyası təmin edilməlidir. Bu məqsədlər üçün səsvermə günü səsvermə binaları fərdi qoruyucu vasitələrlə təchiz olunmuş təmizləyicilərlə təmin edilməlidir: birdəfəlik tibbi maska, xüsusi qalın əlcəklər (çoxdəfəlik), qoruyucu üz sipəri;
- Səsvermə günü üçün, səsvermə binasında olmaq hüququ olan bütün şəxslər tərəfindən istifadə edilən birdəfəlik salfetlər və ya digər istifadə olunan gigiyenik tullantılar üçün içində birdəfəlik plastik torba olan qapalı konteyner yerləşdirilməlidir. Tullantılar üçün mövcud olan torbanın götürülməsi və idarə edilməsi üçün birdəfəlik əlcəklərdən istifadə edilməli, lakin bu tullantıların vaxtında atılması təmizləyici tərəfindən təmin edilməlidir;
- Səsvermə günü, periyodik olaraq, gündə bir neçə dəfə, səsvermə binalarının təbii ventilyasiyası aparılmalıdır.

## Səsvermədən bir gün əvvəl (1 aprel) Məntəqə Seçki Komissiya sədrinin səlahiyyətləri

**1. Səsvermə binasının təşkili ilə əlaqədar səlahiyyətlər:**

- Səsvermə binasının təşkili üçün məsuliyyət daşıyırsınız. Nəzərə alın:
  - ☐ Yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, səsvermə binasının girişinə dezobariyer (kollektiv mühafizə vasitələri) və əl dezinfeksiyası üçün lazım olunan ən azı 70%-li alkoqol tərkibli əli təmşləmək məhlul (səsvermə binasına girərkən və ya çıxarkən əli dezinfeksiya etmə məqsədi ilə) yerləşdirilməlidir.
  - ☐ Seçicilərin qeydə alınması üçün yer ayrılmalı və qeydiyyatçıların sayına müvafiq olaraq masalar yerləşdirilməlidir;
  - ☐ Səsvermə binasında hər 500 seçici üçün ən azı bir səsvermə kabinələri quraşdırılmalıdır, (lazım olduğu təqdirdə MİM olan seçicilər üçün adaptasiya olunmuş səsvermə kabinası nəzərə alınmalıdır);

**Nəzərə alın!**

Yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə:

  - ✓ Gizli səsvermə kabinələri aşağıdakı şəkildə düzəldilməlidir: səsvermə kabinəsi bir tərəfdən açıq olmalı (seçicilər üçün giriş) və açıq tərəf səsvermənin gizlilik prinsipini pozmamaq üçün səsvermə binasının divarına tərəf yönəldilməlidir;
  - ✓ Səsvermə binasında konteyner yerləşdirilməlidir, ona seçici səs verdikdən sonra istifadə etdiyi qələmi yerləşdirəcək.
  - ☐ Şəffaf seçki qutusu nəzərə çarpan yerdə qoyulmalıdır;
  - ☐ Xüsusi zərflər üçün seçki qutusunun yaxınlığında masa yerləşdirilməlidir;
  - ☐ Fotovideo çəkiliş üçün yer ayırmalıdır (fotovideo çəkiliş yeri – yazısını vurmaq məqsədəyönlüdür).

- Səsvermə binasında nəzərə çarpan yerdə asılmalıdır:
  - ☐ Virusun yayılmasının prevensiya tədbirləri barədə məlumat;
  - ☐ Seçicilərin vahid siyahısının ictimai informasiya üçün olan versiyası (divar siyahısı);
  - ☐ Seçicilərin xüsusi siyahısının (mövcud olduğu təqdirdə) ictimai informasiya üçün olan versiyası (divar siyahısı);
  - ☐ Aparılası seçki qutusunun siyahısının (mövcud olduğu təqdirdə) ictimai informasiya üçün olan versiya (divar siyahısı);
  - ☐ Namizədlərin siyahıları;
  - ☐ Səsvermə təlimatı və MSK tərəfindən müəyyən olunmuş seçki bülleteninin doldurulması qaydası;
  - ☐ Hansı bülletinin batil hesab olunması barədə qanundan çıxarış;
  - ☐ Səsvermə nəticələrinin nümayiş protokolu.
  - ☐ Əgər seçki bülletenınə daxil olan hər hansı bir seçki subyekti seçkilərdə artıq iştirak etmirsə, qeyd olunan haqqında səsverə binasında və gizli səsvermə kabinasində ərizə

**2. Seçki sənədlərinin qəbulu ilə əlaqədar səlahiyyətlər:**

**Yadınızıda saxlayın**: Dairə Seçki Komissiyası seçkilərin başlanmasına ən azı 12 saat qalmış Məntəqə seçki komissiyasına seçki komissiyaları üçün nəzərdə tutulmuş dəqiqləşdirilmiş siyahıların son versiyalarını, seçki bülletenlərini və xüsusi zərfləri verir. Təhvil alarkən verilmiş seçki bülletenlərinin və xüsusi zərflərin miqdarını qəbul-təhvil protokoluna daxil edilmiş göstəricilərlə müqayisə edin. Yoxlayın ki, bülletendə sizin seçki məntəqəsinin və seçki dairəsinin nömrəsi olsun.

## Səsvermə günü (2 aprel)
## Məntəqə Seçki Komissiya sədrinin səlahiyyətləri

Yeni koronavirus (SARS-CoV-2) səbəb olduğu infeksiyanın (COVID-19) yayılmasının prevensiyası məqsədi ilə, səsvermə binasına daxil olarkən, çıxarkən və binada qalarkən və hərəkət edərkən riaət olunası sanitar-gigiyenik tələblər:

- Səsvermə günü Məntəqə Seçki Komissiya üzvləri fərdi qoruyucu vasitələrlə təmin olunmalıdırlar: maska, qoruyucu üz sipəri və birdəfəlik əlcəklərlə.
- Seçki binasında olma hüququ olan şəxs, termoskrininq (temperatur yoxlama) və dezinfeksiyaedici məhlulla əlini təmizləmədən səsvermə binasına buraxılmamalıdır. Seçicilərə qarşı termoskrininq olmur.
- Komissiya üzvlərinin birinə göstəriş verin ki, səsvermə binasının girişində, daxil olan şəxslərin sağlamlıq vəziyyətini yoxlamaq məqsədilə, səsvermə binasında olma hüququ olan şəxslərin termoskrininqin keçirilməsini təmin etsin. Qızdırma - 37°C və ya 37°C-dən çox temperatur müəyyən olduqda, şəxs temperatur nəzarətinə məruz qalır (5 dəqiqəlik fasilələrlə). Təkrar qızdırma müəyyən olunduğu halda, şəxs seçki binasına buraxılmayacaq. Komissya katibinə qızdırma halları müəyyən edildikdə, Məntəqə Seçki Komissiyasının qeydlər jurnalına qeyd etməsini göstəriş verin.
- Əgər səsvermə binasında olan şəxslərin təkrar termoskrininqə ehtiyac varsa və nəticədə qızdırma bildirilirsə, qızdırması olan şəxsə səsvermə binasını tərk etmə təlimatını verin. Əgər bu şəxs könüllü olaraq səsvermə binasını tərk etmə təlimatına əməl etmədikdə, Məntəqə Seçki Komissiyası bu şəxsin səsvermə binasından çıxarılması barədə müəyyən olunmuş aqaydada qərar qəbul edir. Komissiya katibinə qızdırma müəyyən olunduğu halda Məntəqə Seçki Komissiyasının qeydlər jurnalına qeyd etməyə göstəriş verin.

**Nəzərə alın!**

- ✓ Əgər partiya tərəfindən təyin olunan Məntəqə Seçki Komissiyası üzvünün hərarəti aşkar olunarsa, qeyd olunan məlumatı dərhal yuxarı Dairə Seçki Komissiyasına bildirin.
- ✓ Əgər hərarəti aşkar olunduğu səbəbdən, səsvermə binasına buraxılmadıqda və yaxud səsvermə binasını tərk etdikdə, partiyanın onun yerinə Məntəqə Seçki Komissiyasının digər üzvünü təyin etmək hüququ var. Yeni üzvə funksiyanın həvalə edilməsi məsələsinə Məntəqə Seçki Komissiyasının sədri qərar verir.
- ✓ Əgər hərarəti aşkar olunduğu səbəbdən, seçki subyektinin nümayəndəsi səsvermə binasına buraxılmadıqda və yaxud səsvermə binasını tərk etdikdə, seçki subyektinin digər nümayəndəsini təyin etmək hüququ var.
- ✓ Hərarəti aşkar olunduğu səbəbdən, partiya tərəfindən təyin olunan Məntəqə Seçki Komissiyasının yeni üzvü, seçki subyektinin yeni nümayəndəsi səsvermə binasına Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi, Gürcüstan vətəndaşının pasportunu təqdim etdikdə və müvafiq elektron proqramda təyin olunduğu barədə məlumatı yoxladıqdan sonra buraxılacaq.

- Nəzarət edin ki, səsvermə binasında olma hüququ olan şəxs maskasız səsvermə binasına buraxılmasın və səsvermə binasında yalnız maskanı istifadə edərək olsun.

**Nəzərə alın!**

- ✓ Sağlamlıq vəziyyətinə görə maska taxmaqda çətinlik çəkən şəxsə maskadan istifadə etməsini tələb etməyin, hansı ki, tibbi / həkimin arayışı və ya xəstəlikləri təsdiqləyən hər hansı bir sənədlə (məs., Forma № IV-100/a və s.) təsdiq olunur.
- ✓ Maska taxma qaydaları pozulduqda, pozan şəxsə xəbərdarlıq verin. Əgər xəbərdarlığa baxmayaraq, şəxs qanunvericiliklə müəyyən olunmuş maskanı taxma qaydasını pozmağa davam edərsə, səsvermə binasını tərk etməsinə göstəriş verin. Əgər pozan şəxs səsvermə binasını tərk etmə barəsində göstərişi könüllü əməl etmədikdə, Məntəqə Seçki Komissiyası səsvermə binasından onun xaric edilməsinə dair qərar qəbul edir. Komissiyanın katibi pozan şəxs haqqında məlumatı Məntəqə Seçki Komissiyasının qeydlər jurnalına qeyd etməlidir.

**saat 07:00-08:00**

- ☐ Saat 07:00 seçki məntəqəsini açın, telefonla Dairə Seçki Komissiyasına seçki məntəqəsinin açılması və komissiya üzvlərinin kvorumu barədə (9 üzv) məlumat verir.

---

- ☐ Səsvermə gününün Qeydlər kitabını, Qeydiyyat jurnalını, səsvermə nəticələrinin yekun protokolunu və nümayiş protokolunu (nəzərə çarpan yerdən asılır) katibə verin.

---

- ☐ Səsvermə binasında olmaq səlahiyyətinə malik şəxslərin akreditasiya vərəqlərini yoxlayın (şəxsiyyət vəsiqəsi ilə güvvədədir). Yadda saxlayın, səsvermə binasında olmaq hüququ yalnız qanunla müəyyən olunmuş müvafiq səlahiyyətli şəxslərin var.
- ☐ Hamının gözü qarşısında komissiyanın xüsusi möhürünün və qeydiyyatçıların möhürlərinin yerləşdiyi zərfin bütövlüyünü yoxlayın və onu açın. Komissiya katibi möhürün nömrəsini səsvermə günün Qeydlər kitabının 9-cu səhifəsinə daxil edir.

---

- ☐ Funksiyaları komissiya üzvləri arasında bölüşdürmək üçün püşkatma keçirin (komissiya sədri, komissiya sədrinin müavini, komissiyanın katibi püşkatmada iştirak etmir).

  Əvvəlcə qeydiyyatçı komissiyasının üzvlərini (hər 300 seçiciyə ən azı bir qeydiyyatçı) müəyyən etmək üçün bir püşkatma keçirin. Seçici qeydiyyatçısı komissiya üzvünün müəyyən edilməsi üçün keçirilən püşkatmada partiya tərəfindən təyin olunan komissiya üzvləri, iştirak etmirlər. Komissiyanın katibi püşkatmanın nəticələrini səsvermə günü qeydiyyat kitabının 3-cü səhifəsinə yazır.

**Diqqət!**

Əgər püşkatmada Dairə Seçki Komissiyası tərəfindən seçilmiş komissiya üzvlərinin sayı püşkatma ilə müəyyən olunası seçicilərin qeydiyyatçı komissiya üzvlərinin say uyğun gələrsə, püşk atmaq keçirilməyəcək və Dairə Seçki Komissiyası tərəfindən seçilən komissiya üzvləri avtomatik olaraq seçicilərin qeydiyyatçısı komissiya üzvünün funksiyası veriləcək.

Əgər Dairə Seçki Komissiyası tərəfindən püşkatmada iştirak edən komissiya üzvlərinin sayı, püşkatma ilə müəyyən olunmuş seçicilərin qeydiyyatçısı komissiya üzvlərinin sayından çox olarsa, seçicilərin qeydiyyatçıları püşkatma yolu ilə müəyyən olunurlar.

Əgər Dairə Seçki Komissiyası tərəfindən püşkatmada iştirak edən komissiya üzvlərinin sayı, püşkatma ilə müəyyən olunmuş seçicilərin qeydiyyatçısı komissiya üzvlərinin sayından az olduğu ortaya çıxsa, püşkatma keçirilməyəcək, Dairə Seçki Komissiyası tərəfindən seçilən komissiya üzvlərinə avtomatik olaraq seçicilərin qeydiyyatçısı vəzifəsi veriləcək və Məntəqə Seçki Komissiyasının sədri seçicilərin qeydiyyatçısı komissiya üzvünün funksiyasını yerinə yetirmək üçün Məntəqə Seçki Komissiyasının digər üzvünə / üzvlərinə həvalə edir.

---

- ☐ Aparılası seçki qutusunu daşıyacaq 2 seçki komissiya üzvünü müəyyənləşdirmək üçün növbəti püşkatma keçirin. Komissiyanın katibi püşkatmanın nəticələrini səsvermə günü qeydiyyat kitabının 3-cü səhifəsinə yazır.

  Yadda saxlayın ki, püşkatma ilə seçilmiş aparılası seçki qutunu aparan komissiya üzvü onun üçün verilmiş vəzifənni yerinə yetirməkdə imtina edərsə, o komissiya üzvlərinin digər funksiyaların bölüşdürülməsi üçün keçirilən növbəti püşkatmada iştirak etmə hüququnu da itirir.

---

- ☐ Komissiyası üzvləri arasında qalan funksiyaların (seçicilər axınının nizamlayıcısı, seçki qutusuna və zərflərə nəzarət komissiya üzvləri) bölüşdürülməsi üçün növbəti püşkatma keçirin. Komissiya katibi püşkatma nəticələrini səsvermə günün Qeydlər kitabının 3-cü vərəqinə daxil edir.

---

- ☐ Seçicilərin vahid siyahısında, xüsusi siyahıda və aparılası seçki qutunun siyahısında (mövcud olduğu təqdirdə) seçicilərin sayını elan edin. Komissiyanın katibi məlumatları səsvermə günün Qeydlər kitabının 7-ci səhifəsində və səsvermə nəticələriin nümayiş protokolunda (nümayiş protokolunda və

səsvermə günün Qeydlər kitabında xüsusi siyahıda seçicilərin sayı səsvermə bitdinkdən sonra daxil edilir) qeyd edir.

- ☐ Alınmış seçki bülletenlərinin və xüsusi zərflərin sayını elan edin. Komissiyanın katibi alınan bülletenlərin sayını nümayiş protokollarında və səsvermə günün Qeydlər kitabının 7-ci vərəqinə daxil edir.
- ☐ Yoxlayın ki, seçki qutuları boşdur. Əsas və aparılası seçki qutularını fərdi nömrəyə malik möhürlə möhürləyin. Komissiyanın katibi seçki qutunun möhürünün nömrələrini və möhürlənmə vaxtını səsvermə günün Qeydlər kitabının 4-cü vərəqinə daxil edir.
- ☐ Hər bir qeydiyyatçıya verin: 300 seçicidən ibarət olan siyahı (seçicilərin xüsusi siyahısını qeydiyyatçılarından birinə verin), seçki bülleteninin bir bloknotunu, markirovka mayesini, qeydiyyatçının möhürünü. Komissiyanın katibi qeydiyyatçıların möhürlərinin nömrələrini səsvermə günün Qeydlər kitabının 3-cü vərəqinə daxil edir.

**Nəzərə alın!**

- ✓ Qeydiyyatçıların masasına yaxın qeydiyyatçıların masasında düzülmüş siyahılara uyğun olaraq soyadlarının əlifba sırası (məsələn, "a" - "d") və seçicilərin nömrələrinin ardıcıllıqla (məsələn, "1" - "300") asılmalıdır.
- ✓ Yeni koronavirusun səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, qeydiyyatçıların masasına seçicilər üçün fərdi istifadə olunmasına görə nəzərdə tutulan qələmlər qoyulmalıdır.
- ✓ Qeydiyyatçılar bloknotda seçki bülletenlərinin sayının düzgünlüyünü yoxlamalıdırlar, bundan sonra qeydiyyatçılarla birlikdə seçki bülletenlərinin bloknotunun ilkvərəqində movcud olan təhvil-təslim aktına imza atmalısız.
- ✓ Əgər, qeydiyyatçıların möhürü lazımı saydan az olarsa və yaxud möhür zədələnibsə, qeydiyyatçıların sayını azaldın.
- ✓ Qeydiyyatçıların masasının birinə zəif görən seçicilər üçün böyüdücü linza və həmçinin kor seçicilər üçün xüsusi çərçivə yerləşdirin (mövcud olduğu halda).

- ☐ Axının nizamlayıcısına markirovkanı yoxlayan ultrabənövşəyi fənər verin.
- ☐ Seçki qutusuna və zərflərə nəzarət edən komissiya üzvünə xüsusi zərflər və əsas seçki qutusunu təhvil verin;
- ☐ Komissiya üzvlərinə materialların verilməsindən dərhal sonra, səsvermə başlananadək komissiya katibi ilə birlikdə (birinci seçicinin göstəricilərindən başqa) yoxlama vərəqlərinin özünün surətini çıxaran formanı doldurun. Diqqət yetirin ki, komissiyanın bütün üzvləri yoxlama vərəqinə imza atsınlar.

**Saat 08:00-dan**

☐ Seçki məntəqəsinə birinci seçici gələn kimi qeydiyyatdan keçir və seçki bülleteni/büllenetləri götürür. Bundan sonra komissiya katibinə göstəriş verin ki, birinci seçicinin göstəricilərini (adı, soyadı və Gürcüstan vətəndaşının şəxsi nömrəsini) yoxlama vərəqinə daxil etsin və birinci seçiciyə imzalatdırsın. Komissiya katibi birinci seçicinin göstəricilərini səsvermə günün Qeydlər kitabına 4-cü vərəqinə daxil edir.
Yoxlama vərəqinin bir nüsxəsini əsas seçki qutusuna, ikinci nüsxəsini aparılası seçki qutusuna (onun mövcudluğu təqdirdə) yerləşdirin, lakin üçüncü nüsxəsini saxlayın.

☐ Birinci seçici qeydiyyatdan keçdikdən sonra Dairə Seçki Komissiyasına telefon vasitəsilə əsas seçki qutunsunun və aparılası seçki qutusunun (mövcud olduğu təqdirdə) möhürlənməsi, yoxlama vərəqənin/vərəqlərinin müvafiq seçki qutusu/qutularına atılması və səsvermənin başlanması haqqında məlumat verin.

Səsvermə prosesin gedişi zamanı nəzərə alın:

- Seçici seçicilərin axınını tənzimləyən komissiya üzvü üçün Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstann vətəndaşının pasportunu təqdim etdiyi zaman müvəqqəti olaraq maskanı çıxartmağa məcburdur.

**DİQQƏT!**
Əgər seçici maskanı çıxartmayırsa, o səsvermə binasına buraxılmayacaqdır.

- Əgər markirovkanı yoxlayan xüsusi alət aşkar edər ki, seçici artıq markirovka edib, ona səsvermədə iştirak etmək qadağan ediləcək. Komissiya katibi seçicinin kimliyini səsvermə günün Qeydlər kitabının 4-cü vərəqinə daxil edir.
- Seçici seçicilərin qeydiyyatçısı komissiya üzvü tərəfindən Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstan vətəndaşının pasportunda qeyd olunan seçicinin qeydiyyat məlumatlarını seçicilərin siyahısında mövcud olar məlumatların uyğunluğunu yoxlanıldıqda müvəqqəti olaraq maskanı çıxartmağa məcburdur.

**DİQQƏT!**
Əgər seçici maskanı çıxartmayırsa, ona seçki bülleteni verilməyəcəkdir.

- Seçisi səsvermədə iştirak edir, əgər seçicinin müvafiq siyahısında Gürcüstan vətəndaşının şəxsi nömrəsi, cinsi və foto şəkli ilə siyahıda olan məlumatlarla üçü tam uyğun gəlirsə (adı, soyadı, doğum tarixi, ünvanı).
- Əgər seçicinin qeydiyyatçısı seçicinin üzünü təqdim olunan sənədlərdə və ya seçicilərin siyahısında olan fotoşəkilini bir-birinə uyğun gəlmədiyini hesab edərsə, o qeyd olunanın uyğun olmadığını təsdiq etmək üçün sizə yaxınlaşmalıdır.

**DİQQƏT!**
✓ Əgər uyğunsuzluğu təsdiq edərsizsə, komisiya katibinə səsvermə günün qeydlər kitabına müvafiq qeyd etməsini söyləyin (seçicinin adını, soyadını və seçicinin siyahısında onun sıra nömrəsini qeyd etməklə). Bu qeydi komissiya katibi ilə birlikdə imzanızla təsdiq edin. Komissiya katibi qeydioyyat kitabına onun imzası ilə təsdiq olunan seçici tərəfindən təqdim olunan fotosurətini əlavə etməlidir.
✓ Əgər uyğunsuzluğu təsdiq etməsəniz, seçicinin qeydiyyatçısının səsvermə günü Qeydlər kitabına öz fərqli fikrini daxil etməyə hüququ var. Komissiya katibi səsvermə günü Qeydlər kitabına müvafiq qeyd etməlidir (seçicinin adını, soyadını və seçicinin siyahısında onun sıra nömrəsini qeyd etməklə). Bu qeydi komissiya katibi ilə birlikdə imzanızla təsdiq edin. Qeydiyyatçı və komissiya katibi bu qeydi imzaları ilə təsdiq etməlidirlər. Komissiya katibi səsvermə günün Qeydlər kitabına onun imzası ilə təsdiq olunan seçici tərəfindən təqdim olunan fotosurətini əlavə etməlidir.
✓ Yuxarıda qeyd olunan prosesi yerinə yetirdikdən sonra seçiciyə səsvermədə iştirak etmə hüququnu verin.

- Əgər seçici proseduru keçməkdən imtina edərsə, səsvermədə iştirak etmə hüququnu verməyin.
- Əgər səsvermə prosesində aşkar olsa ki, seçici seçki siyahısında digər seçicinin soyadının kənar qrafada imza atıb, bu cür halda imza atılan seçicinin soyadının qrafasında imza atmalıdır. Həmçinin qeydiyyatçıya bu barədə izahat (seçicinin adını, soyadını və seçicinin siyahıdakı sıra nömrəsini göstərməklə) yazmasını bildirin.
- Əgər seçici və ya Məntəqə Seçki Komissiyanın üzvü tərəfindən bülleten korlanarsa, onda seçicilərin qeydiyyatçısına tapşırıq verin ki, seçicinin seçki bülletenini yenisi ilə dəyişsin. Korlanmış bülletenin kənarlarını seçicinin yanında kəsib və korlanmış yazılmalı, imza atın və ayrı saxlayın.
- Əgər seçici seçki bülletenini müstəqil doldura bilmirsə, diqqət yetirin ki səsvermə kabinasına kömək etmək üçün seçki komissiya üzvü, namizədi, seçki subyektinin nümayəndəsi, mətbuat və kütləvi informası vasitəsinin nümayəndəsi və müşahidəçi dəvət olunmasın. Seçici üçün yuxarıda qeyd olunanlardan başqa hər bir şəxs kömək edə bilər.
- Əgər seçici fiziki vəziyyətinə görə (yuxarı əzələləri olmadığı) səsvermə prosedurunu müstəqil yerinə yetirə bilmirsə, belə halda qeydiyyatçının yadına salın ki, seçiciyə seçki bülletenini verərkən müvafiq siyahının "seçicinin imzası" qrafayasına "fiziki şəxs" qeyd etsin və onu imzası ilə təsdiqləsin.
- Vahid siyahıda "xaricdə yerləşir" və yaxud "konsulluq qeydiyyatındadır" statusa malik olan seçici, səsvermədə ümumi qaydada iştirak edir.

---

**Saat 09:00-dan**

- ☐ Püşkatama yolu ilə müəyyənləşdirilmiş komissiyanın 2 nəfər üzvünə aparılası seçki qutusunun vasitəsilə səsvermə keçirməyi həvalə edin və onlara verin:
  - ☐ Aparılası seçki qutusunun siyahısını;
  - ☐ Seçicilərin qeydiyyatçısı tərəfindən imza və qeydiyyatçının möhürü ilə təsdiq olunmuş lazımi sayda seçki büllütenləri;
  - ☐ Xüsusi zərfləri (aparılası seçki qutusunun siyahısında olan seçicilərə uyğun olaraq);
  - ☐ Seçicilər üçün fərdi istifadə etmək üçün nəzərdə tutulmuş qələmlər (aparılası seçki qutunun siyahısında mövcud olan seçicilərə əsasən);
  - ☐ Möhürlənmiş aparılası seçki qutusu, ora nəzarət vərəqi yerləşdirilməlidir;
  - ☐ Aparılası seçki qutusunun kəsiyini möhürləmək üçün möhür (aparılası seçki qutusu aparılası seçki qutusunun vasitəsilə səsvermə bitdikdən sonra möhürlənir ).

Komissiya katibinə səsvermə günün Qeydlər kitabının 4-cü vərəqində aparılası seçki qutusunu apara komissiya üzvləri üçün veriləsi seçki bülletenlərinin sayını, həmçinin aparılası seçkii qutusunun seçki məntəqəsindən aparılan vaxtı qeyd edir.

**Nəzərə alın!**

Aparılası seçki qutunu aparan Məntəqə Seçki Komissiyasının üzvləri və nəzarətçilər aparılası seçki qutu ilə səsvermə prosessində təchiz olunmalıdırlar və maska, qoruyucu üz sipəri, əlcəklər və əlin dezinfeksiya edici məhluldan istifadə etməlidirlər

**Saat 10:00, 12:00, 15:00 və 17:00-da**

Qeydiyyatçılardan xahiş edin ki, səsvermə prosesinə mane olmadan, seçicilərin siyahılarında seçicilərin imzaları və onlar tərəfindən verilmiş bülletenlərin sayını (komissiyanın sədrinə verilmiş korlanmış seçki bülletenlərin sayı daxil olmaqla) saysınlar. Verilmiş seçki bülletenlərin sayını müəyyən etmək komissiya sədrindən alınmış seçki bülletenlərinin sayına qeydiyyatçıda qalan seçki bülletenlərinin sayına müqayisə etməklə mümkündür. Məlumatların düzgünlüyünü sonrakı formula ilə yoxlayın:

**Verilmiş seçki bülletenlərinin sayına** — **Korlanmış seçki bülletenlərinin sayını** = **Seçicilərin imzalarının sayı**

Əgər göstəricilər arasında fərq aşkar edilərsə, seçicilərin qeydiyyatçısı dərhal izahat yazmalıdır, bu izahatı səsvermə nəticələrin yekun protokolunu doldurarkən ona əlavə olunmasını nəzərə alın.

Hər bir qeydiyyatçı tərəfindən saat 10:00, 12:00, 15:00, 17:00-da alınan imzaların sayını onlar tərəfindən yazılmış izahatı (mövcud olduğu təqdirdə) nəzərdə tutaraq cəmləşdirin və məlumatları dərhal Dairə Seçki Komissiyasına qısa mesajla (sms-lə) göndərin.

Saat 12:00 və 17:00-da seçicilər siyahısında sayılmış seçkidə iştirak edən seçicilərin imzalarının sayını komissiya katibi Qeydlər kitabının 7-ci səhifəsinə və səsvermə nəticəsinin nümayiş protokoluna daxil edir.

**Tövsiyyə!**

Qeydiyyatçılardan alınan məlumatların qeyd edilməsi məqsədi ilə təqdim edilən cədvəli (əlavə N1) nümunə kimi istifadə edə bilərsiz.

---

**Saat 20:00-a dək**

Aparılası seçki qutusu seçki məntəqəsinə saat 20:00-da gec olmayaraq qaytarılmalıdır. Aparılası seçki qutusu seçki məntəqəsinə qaytarıldıqda komissiya katibinə aparılası qutunun siyahısında imzaların, istifadə edilməmiş və ya korlanmış seçki bülletenlərin və xüsusi zərflərin sayının düzgünlüyünü yoxlamasını söyləyin. Uyğunsuzluq aşkar olduğu təqdirdə aparılası seçki qutusunu aparan komissiya üzvləri izahat yazmalıdırlar səbəbi göstərməklə. İzahatda qeyd olunan məlumatları səsvermə nəticələrin yekun protokolunu doldurarkən nəzərə alın.

İstifadə olunmamış seçki bülletenlərin və xüsusi zərflərin künclərini kəsin, yazın korlanmışdır və imza atın. Komissiya katibinə seçicilərin imzalarının sayını aparılası seçki qutusunun siyahısında, istifadə edilməmiş seçki bülletenlərin sayını, həmçinin seçki məntəqəsində qutunun qaytarılma vaxtını Qeydlər kitabının 4-cü vərəqinə daxil edir.

---

**Saat 20:00 –dan seçki qutusunun açılmasına qədər**

- ☐ Saat 20:00-da seçkilərin başa çatdığını elan edin. Komissiya üzvlərindən birinə növbədə dayanmış seçiciləri saymağı həvalə edin (mövcud olduğu təqdirdə). Komissiya katibi qeyd olunan məlumatı səsvermə günün Qeydlər kitabının 4-cü vərəqinə daxil edir. Səsvermə başa çatdıqdan sonra seçki məntəqəsinin qapısını bağlayın və qutunun kəsiyini möhürləyin.

- ☐ Komissiya katibinə səsvermə günün Qeydlər kitabının 26-cı və 27-cı vərəqində səslərin sayılma vaxtında səsvermə binasında olan şəxsləri göstəricilərini daxil etməsini tapşırın.

- ☐ Səsvermə başa çatdıqdan sonra püşkatma keçirilənədək, hər bir qeydiyyatçıya tapşırın ki, verilmiş seçki bülletenlərinin sayını (aparılası seçki qutusunun sıyahısına uyğun olaraq verilmiş bülletenləri nəzərə alaraq), korlanmış seçki bülletenlərinin sayını, seçicilərin imzalarının sayını onların əlində olan vahid və xüsusi siyahılarda (onlar tərəfindən yazılmış izahatlarda qeyd olunan məlumatları nəzərə alaraq) və

aparılası seçki qutunun siyahısında (aparılası seçki qutunu aparan komissiya üzvlri tərəfindən yazılmış izahatlarda qeyd olunan məlumatları nəzərə alaraq) hesablasınlar.

Verilmiş seçki bülletenlərin sayını müəyyən etmək komissiya sədrindən alınmış seçki bülletenlərinin sayına qeydiyyatçıda qalan seçki bülletenlərinin sayına müqayisə etməklə mümkündür.

Məlumatların düzgünlüyünü sonrakı formula ilə yoxlayın:

**Verilmiş seçki bülletenlərinin sayına** — **Korlanmış seçki bülletenlərinin sayını** = **Seçicilərin imzalarının sayı**

Əgər bərabərlik arasında fərqlik aşkar edilsə, seçicilərin qeydiyyatçısına yenidən saymağı və miqdarını dəqiqləşdirməyi həvalə edin. Əgər bərabərlik arasında fərqlik yenidən aşkar edilsə, qeydiyyatçıdan izahat yazmağı xahiş edin, lakin orada qeyd olunan məlumatları səsvermə günün nəticələrinin yekun protokoluna əlavə edilməsini nəzərə alın.

---

☐ Yuxarıda göstərilən məlumatları müəyyən etdikdən sonra, qeydiyyatçıları səsvermədə iştirak edən seçicilərin bərabərlik məlumatlarını (qadınların sayı) bütün növ siyahıda saymağa tapşırıq verin. Məlumatları Dairə Seçki Komissiyasına verin.

---

☐ Səsvermə prosedurlarını başlamaq məqsədilə, komissiya üzvləri arasında dörd sayıcını seçməq üçün püşkatma keçirin. Komissiya katibi püşkatma nəticələrini səsvermə günün qeydlər kitabının 3-cü vərəqinə daxil edir.

---

☐ Püşkatma yolu ilə məntəqədə olan seçki subyektinin nümayəndəsindən 2 nəfərdən çox olmayaraq, nümayəndə seçin, bunlar isə sayıcılarla birlikdə həqiqi və batil olunmuş seçki bülletenlərinin hesablanması prosesində iştirak edirlər. Yadda saxlayın ki, o seçki subyektlərinin nümayəndələri püşkatmada iştirak etmirlər, hansılar tərəfindən ki, təyin olunmuş komissiya üzvləri püşkatma ilə seçilmiş sayıcılardılar. Komissiya katibi püşkatma nəticələrini səsvermə günün Qeydlər kitabının 3-cü vərəqinə daxil edir.

---

☐ Əgər müşahidəçilər öz tərkiblərindən, qarşılıqlı razılaşma əsasındamüşahidəçilər arasında 2 nəsarətçini seçmək üçün püşkatma keçirin. Komissiya katibi müvafiq məlumatları səsvermə günün Qeydlər kitabının 3-cü vərəqinə daxil edir.

---

☐ Sayıcılara göstəriş verin ki, seçicilərin vahid siyahısında, xüsusi siyahıda və aparılası seçki qutusunun siyahısında seçicilərin imzalarının sayını saysınlar (mövcud olduğu təqdirdə).

---

Komissiya katibi sayıcılar tərəfindən sayılmış seçicilərin imzalarının sayını, seçicilərin qeydiyyatçıları tərəfindən yazılmış izahatlarda qeyd olunan göstəriciləri nəzərə alaraq (mövcud olduğu təqdirdə), səsvermə günün Qeydlər kitabının 7-ci səhifəsinə və nümayiş protokoluna daxil edir.

---

☐ Komissiya katibinə göstəriş verin ki, seçicilərin vahid, xüsusi və aparılası seçki qutusunun siyahıları (mövcud olduğu təqdirdə) masaüstü versiyasını, istifadə edilməmiş və korlanmış bülletenləri ayrı-ayrı paketlərə yerləşdirsin. Komissiya katibi paketə yerləşdirmədikdən istifadə edilməmiş bülletenlərin künclərini kəsməlidir.

---

☐ Sayıcılara göstəriş verin ki, seçicilərin vahid, xüsusi və aparılası seçki qutusunun siyahılarının masaüstü versiyasını, istifadə edilməmiş və korlanmış bülletenlərinin paketlərini və seçicilərin qeydiyyatçılarının möhürlərini ayrı-ayrılıqda möhürləsinlər.

Möhür zolunu sayıcılarla birlikdə imzalayın. Möhürlənmiş zərfin üzərində Dairə və Məntəqə Seçki Komissiyasının adını, nömrəsini, seçki sənədlərinin növünü yazın.

**Yadda saxlayın!**

Seçki sənədlərinin / inventarının müəyyən edilmiş qaydalara uyğun olaraq möhürlənməsindən məsul daşıyırsız.

---

- ☐ Seçki məntəqəsində səslərin sayılması prosesi audio-video fiksasiyası (seçki qutusunun / qutularının açıldığı andan seçki bülletenlərinin dəstələrinin möhürlənməsi anı daxil olmaqla) həyata keçirilməlidir. Bu məqsədlə, video qeyd edən cihazı elə yerləşdirin ki, sayma prosesi və seçki bülletenlərinin yerləşdirildiyi yer tam görünsün.

**Yadında saxla!**

Video qeyd cihazının texniki cəhətdən zədələnməsi halında səs sayma prosesi dayanmır.

---

**Seçki qutusunun açılması, səsvermə nəticələrinin yekun protokolunun doldurulması**

- ☐ Seçki qutusunun, eləcə də aparılası seçki qutusunun (mövcud olduğu təqdirdə), möhürünün bütövlüyünü yoxlayın.
- ☐ İlk növbədə, aparılası seçki qutusunu (mövcud olduğu təqdirdə) açın. Sayıcılar seçki qutusunda yoxlama vərəqinin mövcudluğunu yoxlayırlar və komissiyada müqayisə məqsədilə saxlanılmış yoxlama vərəqinə oxşarlığını müəyyən edirlər.
- ☐ Əsas seçki qutusunu açın. Sayıcılar seçki qutusunda yoxlama vərəqinin mövcudluğunu yoxlayırlar və onun həqiqiliyini təsdiq etmək məqsədilə onu komissiyada müqayisə etmək üçün saxlanılmış yoxlam vərəqi ilə müqayisə edirlər.
- ☐ İstisna halında yaradılmış seçki məntəqəsinin seçki qutusunu (mövcud olduğu təqdirdə) açın. Sayıcılar seçki qutusunda yoxlama vərəqinin mövcudluğunu yoxlayırlar və onun həqiqiliyini təsdiqetmək məqsədilə onu komissiyada müqayisə etmək üçün saxlanılmış yoxlama vərəqi ilə müqayisə edirlər.
- ☐ Əgər hər şey öz qaydasında olarsa sayıcılar əsas, aparılası vı istisna halında yaradılmış seçki məntəqəsinin seçki qutusundan tökülmüş zərfləri bir-birinə qarışdırırlar.
- ☐ Yoxlama vərəqlərini möhürləyin. Möhürlənmiş paketə seçki məntəqəsinin adını, nömrəsini, sənədlərin növünü paketin üzərində qeyd edin və imzalayın.
- ☐ Sayıcılara göstəriş verin ki, seçki bülletenlərini çeşidləsinlər.

**Nəzərə alın!**

- ✓ Birinci sayıcı: xüsusi zərfdən seçki bülletenini çıxarır; seçki bülletenlərinin düzgünlüyünü yoxlayır; kimə səs verildiyini elan edir; seçki biuletlərini subyektlərə görə ikinci və üçüncü sayıcıya verir; batil sayılmış seçki bülletenləri, şübhəli hesab olunan seçki bülletenləri və müəyyən olunmamış nümunənin bülletenləri dördüncü sayıcıya verir; xüsusi zərfləri ayrıca qoyur.
- ✓ Sayıcılar: bülletenləri ayrı-ayrılıqda düzürlər, hər bir seçki subyektinə verilmiş səslərə uyğun olaraq; müəyyən olunmamış numunənin bülletenləirini; batil hesab olunmuş bülletenləri; şübhəli hesab olunan bülletenləri.

**DİQQƏT!**

Seçki məntəqəsində komissiya tərəfindən səsin sayılma prosesinin audio-video fiksasiyası həyata keçirilir, birinci seçici, xüsusi zərfdən götürülmüş seçki bülletenini, video çəkən cihazın seçki bülletenin ön səhifəsini görə bilməsi üçün əlində tutmağa borcludur.

- ☐ Komissiya ilə birlikdə şübhəli sayılan seçki bülletenlərinə bir-bir baxın (mövcud olduğu təqdirdə). Qərar səs çoxluğu ilə qəbul olunur. Səslərin bərabərliyi halda komissiya sədrinin səsi həlledicidir.

---

- ☐ Sayıcılara göstəriş verin ki, batil hesab olunmuş bülletenləri və hər bir seçki subyektinə verilmiş səsləri/seçki bülletenlərini hesablasınlar.

---

- ☐ Hər bir seçki subyekti tərəfindən alınan səslərin və batil bülletenlərin sayını və komissiya katibi ilə məlumatların düzgünlüyünü yoxlayın. Komissiya katibi alınan nəticəni səsvermə günün Qeydlər kitabının 7-ci səhifəsinə və səsvermə nəticələrin nümayiş protokoluna daxil edir.

---

- ☐ Sayıcılara göstəriş verin ki, paketləşdirib möhürləsinlər: batil seçki bülletenlərini (digər seçki məntəqisi üçün ayrılmış bülletenlər ayrıca möhürlənir, mövcud olduğu təqdirdə), hər bir seçki subyektinə məxsus olan seçki bülletenlərini.

  Hər bir seçki subyektinə məxsus olan seçki bülletenlərinin paketlərinə Dairə və Məntəqə Seçi Komissiyanın adını nömrəsini, seçki subyektlərinin göstəricilərini (adı və soyadı) və seçki bülletenlərinin sayını qeyd edin.

  Batil seçki bülletenlərinin paketlərinə Dairə və Məntəqə Seçki Komissiyalarının adı və nömrəsi, seçki bülletenlərinin növü və sayı qeyd olunmalıdır.

  Paketlərin möhür zolunda sayıcılarla birlikdə imza atın.

**Yadda saxlayın!**

Seçki sənədlərinin müəyyən edilmiş qaydalara uyğun olaraq möhürlənməsinə siz cavabdehsiniz.

---

- ☐ Komissiyanın katibi sizinlə razılaşma əsasında, səsvermənin nəticələrinin yekun protokoluna doldurur. Səsvermənin nəticələrinin yekun protokolunu tərtib edərkən qeydiyyatçıların izahatlarında (mövcud olduğu təqdirdə) göstərilən göstəricilər nəzərə alınmalıdır.

  Komissiyanın bütün üzvü səsvermə nəticələrinin yekun protokolunu imzalamağa məcburdur, bununla onların seçki məntəqəsində olduqları təsdiqlənir. Səsvermə nəticələrinin yekun protokolunu komissiyanın xüsusi möhürü ilə təsdiqləməlisiz.

  Komissiya katib səsvermə nəticələrinin yekun protokolunu Qeydiyyat jurlanında verilmiş sənədlərin hissəsində qeydiyyatdan keçirir.

**Nəzərə alın!**

Məntəqə Seçki Komissiyası tərəfindən tərtib edilmiş səsvermə nəticələrinin yekun protokolu, məntəqə seçki komissiyası üzvlərinin əksəriyyəti tərəfindən imzalanarsa hüquqi qüvvəyə malikdir.

Səsvermə nəticələrinin yekun protokoluna daxil olunmuş göstəriciləri düzəltmək qadağandır.

Səsvermə nəticələrinin yekun protokolu və dəyişirilmə protokolunun tərtib edilmə qaydası Məntəqə Seçki Komissiya üzvlərinin dərslik təlimatında - III hissə, IV fəsil “Səsvermə nəticələrinin yekun protokolunun tərtib edilməsi” yarımbəndinə baxın.

☐ Seçki nəticələrini yekun protokolunun fotosurətini verərkən (istənilən halda) katiblə birlikdə imza atmalı və komissiyanın xüsusi möhürü ilə təsdiq etməlisiniz. Fotosurəti alan şəxs Qeydlər kitabında onun almasınıimzası ilə təsdiqləyir.

**Nəzərə alın!** Səsvermə nəticələrinin yekun protokolu/dəyişirilmə protokolu ilə əlaqədar komissiya üzvlərinin izahatları (mövcud olduğu təqdirdə), tələb olunma əsasında Dairə Seçki Komissiyası tərəfindən tələb olunuqdan 2 gün ərzində verilir.

---

☐ Komissiyanın xüsusi möhürünü ayrı-ayrı zərflərdə möhürləyin (komissiyanın xüsusi möhürünün möhürlənmiş zərfinə komissiyanın bütün üzvləri imza atırlar); səsvermə günün Qeydlər kitabı ərizə/şikayətlərlə birlikdə.

**Yadda saxlayın!** Seçki sənədlərinin / inventarının müəyyən edilmiş qaydalara uyğun olaraq möhürlənməsindən məsuliyyət daşıyırsız. Qeydiyyat jurnalı və səsvermə nəticələrinin yekun protokolu möhürlənmir.

---

☐ Möhürlənmiş seçki sənədini böyük qutuya/torbaya yerləşdiri və Dairə Seçki Komisiyasına aparın. Qutudan/torbadan ayrı səsvermə nəticələrinin yekun protokolu, dəyişirilmə protokolu ilə birlikdə (mövcud olduğu təqdirdə) və qeydiyyat jurnalını, komissiya üzvlərinin izahatları ilə birlikdə (mövcud olduğu təqdirdə), həmçinin seçki gününün Qeydiyyat kitabını və ərizə-şikayətlərin möhürlənmiş paketlərini aparın.

**Nəzərə alın!**

Məntəqə Seçki Komissiya sədri ərizə/şikayətə (movcud olduqda) dərhal müvafiq reaksiya etməyə və mövcud olan pozuntunu aradan qaldırmağa məcburdur.

Səsvermə günün ərizə/şikayətlərlə bağlı komissiya sədri tərəfindən həyata keçiriləsi səlahiyyətləri detallı olaraq seçki komissiya üzvlərinin dərslik təlimatının IV hissndə baxın.

**DİQQƏT!**

Seçki məntəqəsində komissiya tərəfindən səs sayılma prosesinin audio-video fiksasiyası həyata keçirildiyi təqdirdə, məntəqə seçki komissiyasının sədri, sənədlərlə birlikdə video cihazını səslərin sayılması prosesinin videoqeydi ilə birlikdə Dairə Seçki komissiyasına təqdim etməlidir.

**Əlavə #1**

<table>
<tr><th colspan="8">Qeydiyyatçılardan qəbul olan məlumatları cədvələ əks edin</th></tr>
<tr><th colspan="2" rowspan="2">Məlumatları yoxlayın</th><th colspan="5">Qeydiyyatçı</th><th rowspan="2">SMS-lə göndərin</th></tr>
<tr><th>I</th><th>II</th><th>III</th><th>IV</th><th>V</th></tr>
<tr><td rowspan="4">Saat 10</td><td>Verilmiş bülletenlər</td><td></td><td></td><td></td><td></td><td></td><td rowspan="2">İmzaların cəmi</td></tr>
<tr><td>Korlanmış bülletenlər</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>İmzaların sayı bütün növ siyahıda</td><td></td><td></td><td></td><td></td><td></td><td rowspan="2"></td></tr>
<tr><td>İmzaların sayı izahatlara əsasən</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="4">Saat 12</td><td>Verilmiş bülletenlər</td><td></td><td></td><td></td><td></td><td></td><td rowspan="2">İmzaların cəmi</td></tr>
<tr><td>Korlanmış bülletenlər</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>İmzaların sayı bütün növ siyahıda</td><td></td><td></td><td></td><td></td><td></td><td rowspan="2"></td></tr>
<tr><td>İmzaların sayı izahatlara əsasən</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="4">Saat 15</td><td>Verilmiş bülletenlər</td><td></td><td></td><td></td><td></td><td></td><td rowspan="2">İmzaların cəmi</td></tr>
<tr><td>Korlanmış bülletenlər</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>İmzaların sayı bütün növ siyahıda</td><td></td><td></td><td></td><td></td><td></td><td rowspan="2"></td></tr>
<tr><td>İmzaların sayı izahatlara əsasən</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="4">Saat 17</td><td>Verilmiş bülletenlər</td><td></td><td></td><td></td><td></td><td></td><td rowspan="2">İmzaların cəmi</td></tr>
<tr><td>Korlanmış bülletenlər</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>İmzaların sayı bütün növ siyahıda</td><td></td><td></td><td></td><td></td><td></td><td rowspan="2"></td></tr>
<tr><td>İmzaların sayı izahatlara əsasən</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="5">Saat 20:00 (yekun)</td><td>Verilmiş bülletenlər</td><td></td><td></td><td></td><td></td><td></td><td rowspan="2">İmzaların cəmi</td></tr>
<tr><td>Korlanmış bülletenlər</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>İmzaların sayı bütün növ siyahıda</td><td></td><td></td><td></td><td></td><td></td><td rowspan="2"></td></tr>
<tr><td>İmzaların sayı izahatlara əsasən</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Seçkilərdə iştirak edən qadınların sayı</td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
</table>

**Diqqət**!

Məlumatların düzgünlüyünü sonrakı formula ilə yoxlayın: qeydiyyatçılar tərəfindən verilmiş bülletenlərin sayına – korlanmış bülletenlərin sayını = seçicilərin imzalarının sayı.

## ƏLAVƏ #4

### Səsvermə günü (2 aprel)
### Məntəqə Seçki Komissiya katibinin səlahiyyətləri

Yeni koronavirus (SARS-CoV-2) səbəb olduğu infeksiyanın (COVID-19) yayılmasının prevensiyası məqsədi ilə, səsvermə binasında girən/çıxan və binada olma/hərəkət edərkən riayət edilәsi sanitariya-gigiyenik tədbirlər:

Məntəqə Seçki Komissiyasının qeydiyyat jurnalında qeydə almaq:

- Seçki məntəqəsinə daxil olan şəxslərin sağlamlıq vəziyyətinin yoxlanılması nəticəsində qızdırma halları aşkar olduqda;
- Seçki məntəqəsindəki şəxslərin təkrar termoskrininqdən keçirilməsi nəticəsində qızdırma halları aşkar olduqda;
- Maska taxmaq qaydasını pozan şəxslər haqqında məlumat.

**Saat 07:00 – 08:00**

☐ Seçki məntəqəsi açılarkən komissiya sədrindən seçkilər gününün Qeydlər kitabını, Qeydiyyat jurnalını, səsvermə nəticələrinin yekun protokolunu və nümayiş protokolunu təhvil alın. Səsvermə nəticələrinin yekun protokolunu seçki məntəqəsində gözəçarpan yerə asın.

---

☐ Səsvermə günün Qeydlər kitabının birinci və ikinci səhifələrinə seçki məntəqəsinin açılışı zamanı səsvermə binasında olmaq hüququna malik şəxslərin adı və soyadını (onları seçən/təyin edən subyektləri göstərməklə), həmçinin səsvermə binasında olmaq hüququna malik olan bütün digər şəxslərin adı və soyadını (onları təqdim edən təşkilatı və seçki subyektləri göstərməklə) daxil edin və imza ilə təsdiqləyin.

Səsvermə günün Qeydlər kitabının ikinci, həmçinin lazım gəldikdə 10-cu və sonrakı səhifəsinə seçki məntəqəsinin açılışından sonra səsvermə binasında təqdim olunmuş komissiya üzvünün, səsvermə binasında olmaq hüququna malik olan digər şəxslərin göstəricilərini, səsvermə binasında daxil ola vaxtını göstərməklə daxil edin və onları imza ilə təsdiqləyin.

---

☐ Komissiyanın sədri tərəfindən komissiyanın xüsusi möhürü və qeydiyyatçıların möhürləri ilə möhürlənmiş paketi açdıqdan sonra, qeyd olunmuş möhürün nömrələrinini səsvermə günün Qeydlər kitabının 9-cu səhifəsində qeyd edin.

---

☐ Komissiya üzvləri arasında funksiyaların bölüşüdürülməsi üçün püşkatmanın nəticələrini səsvermə gününün Qeydlər kitabının 3-cü səhifəsinə daxil edin.

**Nəzərə alın!**

- ✓ Əgər kkomissiya üzvü püşkatma ilə verilmiş funksiyanı yerinə yetirilməsindən imtina edərsə, onun göstəricilərini səsvermə günün Qeydlər kitabının 25-ci səhifəsinə daxil etməlisiz.
- ✓ Komissiya üzvü püşkatma ilə müəyyən olunmuş funksiyalarının digər üzvləri üçün müvəqqəti olaraq verildikdə, məlumat səsvermə günün Qeydlər kitabının 5-ci səhifəsində daxil olmalıdır.

---

☐ Səsvermə günün Qeydlər kitabının 7-ci səhifəsinə və səsvermə nəticələrinin nümayiş protokoluna seçicilərin vahid siyahısında və aparılası seçki qutusu siyahısında (mövcud olduğu təqdirdə) mövcud

olan seçicilərin sayını daxil edin. Səsvermə bitdikdən sonra xüsusi siyahıda seçicilərin sayahısını nümayiş protokoluna və səsvermə günün Qeydlər kitabına daxil edin.

- ☐ Qəbul edilmiş seçki bületenlərinin sayını seçki gününün Qeydiyyat kitabının 7-ci səhifəsinə səhifəsində və səsvermə nəticələrinin nümayiş protokolunda göstərin.
- ☐ Seçki qutusunun möhürlənmə vaxtını və seçki qutularının möhürlənməsinin fərdi nömrələrini səsvermə günün qeydlər kitabının 4-cü səhifəsində qeydə alın.
- ☐ Səsvermə günü Qeydiyyat kitabının 3-cü səhifəsində hər bir seçicinin qeydiyyatçıya verdiyi möhür nömrəsini qeyd edin.
- ☐ Səsvermə başlanana qədər komissiyanın sədri ilə birlikdə (birinci seçicinin göstəricilərindən başqa) yoxlama vərəqinin öz surətini çıxartma formasını doldurmaq tövsiyyə edilir. Ona da diqqət yetirin ki, komissiyanın iştirak edən bütün üzvləri yoxlama vərəqəsində imza atsınlar.

**Saat 08:00-dan**

- ☐ Seçki məntəqəsinə birinci seçici gələn kimi qeydiyyatdan keçirin, bülleten götürün və bundan sonra birinci seçicinin göstəricilərini (adı, soyadı və Gürcüstan vətəndaşının şəxsi nömrəsi) yoxlama vərəqinə daxil edin və ona imza atdırın. Birinci seçicinin göstəricilərin Qeydlər kitabının 4-cü səhifəsinə daxil edin.

**Səsvermə prosesinin gedişatını nəzərə alın:**

- Əgər markirovkanı yoxladıqda aşkar olunar ki, seçicidə markirovka vardır, onun kimliyinin seçkilər günün Qeydlər kitabının 4-cü səhifəsinə daxil edin.
- Əgər seçicinin surətinin və təqdim etdiyi sənədlə/sənədlərlə/ seçicinin siyahısında olan fotoşəkilin bir- birinə uyğun olmadığı hesab olunsa, müvafiq məlumatları seçkilər günün Qeydlər kitabının 29-31-ci səhifələrində qeyd edin və imza ilə təsdiqləyin. Qeydlər kitabına sizin tərəfinizdən imza ilə təsdiqlənmiş seçici tərəfindən təqdim edilmiş şəxsiyyət vəsiqəsini təsdiq edən sənədin fotosurətini əlavə edin.

**Saat 09:00-dan**

- ☐ Aparılası seçki qutusunun daşıyıcıları olan komissiya üzvlərinə neçə ədəd seçki bülleteni verildiyini və seçki məntəqəsindən aparılası seçki qutusunun aparılma vaxtını Qeydlər kitabının 4-cü səhifəsində qeyd edin.

**Saat 12:00-da**

- ☐ Qeydiyyatçılar tərəfindən sayılmış seçkilərdə iştirak edən seçicilərin imzalarının sayını Qeydlər kitabının 7-ci səhifəsinə və səsvermə nəticələrinin nümayiş protokoluna daxiledin.

**Saat 17:00**

- ☐ Qeydiyyatçılar tərəfindən sayılmış seçkilərdə iştirak edən seçicilərin imzalarının sayını Qeydlər kitabının 7-ci səhifəsinə və səsvermə nəticələrinin nümayiş protokoluna daxil edin.

**Saat 20:00-a kimi**

- ☐ Aparılası seçki qutunun seçki məntəqəsinə gəldikdə komissiya katibinə aparılası qutunun siyahısında imzaların, istifadə edilməmiş və ya korlanmış seçki bülletenlərin və xüsusi zərflərin sayının düzgünlüyünü yoxlamasını söyləyin. Uyğunsuzluq aşkar olduğu təqdirdə aparılası seçki qutusunu aparan komissiya üzvləri izahat yazmalıdırlar səbəbi göstərməklə. İzahatda qeyd olunan məlumatlar səsvermə nəticələrin yekun protokolunun məlumatlarında nəzərə alınmalı və əlavə olunmalıdır.

  Seçicilərin imzalarının sayını aparılası seçki qutusunun siyahısında, istifadə edilməmiş seçki bülletenlərin sayını, həmçinin Seçki Məntəqəsində qutunun gətirilmə vaxtını Qeydlər kitabının 4-cü səhifəsinə daxil edin.

---

**Saat 20:00-dan –qutunun açılışınadək**

- ☐ Səsvermə günün Qeydlər kitabının 4-cü səhifəsinə saat 20:00-dək növbədə duran seçicilərin sayını (mövcud olduğu təqdirdə) daxil edin.

---

- ☐ Səsvermə günün Qeydlər kitabının 26-cı və 27-ci səhifələrində səsvermə binasında olan bütün komissiya üzvünün adı və soyadını (onları seçən/təyin edən subyektləri göstərməklə), həmçinin səsvermə binasında olma hüququna malik olan bütün digər şəxsin adı, soyadı (onların təqdimetdiyi təşkilatın və yaxud seçki subyektini göstərməklə) daxil edin və imza ilə onları təsdiqləyin.

---

- ☐ Səsvermə günün Qeydlər kitabının 3-cü səhifəsində qeyd edin:
  - ☐ Komissiya üzvləri arasında püşkatma ilə sayıcıların funksiyalarının bölüşdürülmə nəticələri;
  - ☐ Püşkatma ilə seçilmiş seçki subyektlərinin nümayəndələrinin göstəricilərini, hansılar ki, sayıcılarla birlikdə həqiqi və ya batil seçki bülletenlərin sayılması prosesində iştirak edirlər;
  - ☐ Seçki bülleteninin sayılması prosesini nəzarət etmək üçün müşahidəçilərdən seçilmiş nəzarətçilərin göstəricilərini.

---

**Nəzərə alın!**

Əgər komissiya üzvü və ya seçki subyektlərinin nümayəndəsi püşkatma ilə verilmiş funksiyanı yerinə yetirməkdən imtina edərsə, onun göstəricilərini səsvermə günün Qeydlər gününün 25-ci səhifəsinə daxil edin.

---

- ☐ Sayıcılar tərəfindən sayılmış seçicilərin imzaların sayını, qeydiyyatçılar tərəfindən yazılmış izahatda qeyd olunmuş göstəriciləri nəzərə alaraq (mövcud olduğu təqdirdə), səsvermə günün Qeydlər kitabının 7-ci səhifəsinə və nümayiş protokoluna əlavə edin.

---

- ☐ Seçicilərin vahid siyahısının, xüsusi və aparılası seçki qutusunun siyahısının (mövcud olduğu təqdirdə) seçki versiyalarını, istifadə edilməmiş və korlanmış seçki bülletenlərini ayrı-ayrı paketlərə yerləşdirin. Paketə yerləşdirərkən istifadə edilməmiş seçki bülletenlərinin künclərini kəsin.

---

- ☐ Seçicinin təqdim etdiyi şəxsiyyətini təsdiq edən sənədlə/ seçicinin siyahısında olan fotoşəkilin bir-birinə uyğun olmadığı sənədlərin sayını qeyd edin. Qeyd olunan məlumatları, həmçinin şəxsiyyətini

təsdiq edən sənədin fotosurətinin sayını səevrmə günün Qeydlər kitabının 31-ci və səhifəsinə qeyd edin. Şəxsiyyətini təsdiq edən sənədin fotosurətini möhürləyin. Möhürlənmiş paketə seçki məntəqəsinin adını, nömrəsini, sənədin növünü qeyd edin və möhür zolağını imzalayın.

---

## Seçki qutusunun açılması, səsvermə nəticələrinin yekun protokolunun tərtibi

- ☐ Sayıcılar tərəfindən batil seçki bülletenlərini və seçki subyekti tərəfindən alınmış səslərin saylarını hesabladıqdan sonra, komissiya sədri ilə birlikdə məlumatların düzgünlüyünü yoxlayın. Alınan nəticələri səsvermə günün Qeydlər kitabının 7-ci səhifəsinə və səsvermə nəticələrinin nümayiş protokoluna daxil edin (başqa seçki məntəqəsinə mənsub batil seçki bülletenlərinin sayını yalnız Qeydlər kitabında göstərilir).

---

- ☐ Komissiyanın sədri ilə razılaşmaqla səsvermə nəticələrinin yekun protokolunu doldurun. Səsvermə nəticələrinin yekun protokolunu doldurarkən qeydiyyatçıların izahatlarında (mövcud olduğu təqdirdə) qeyd olunan göstəricilər nəzərə alınmalıdır.

  Komissiyanın bütün üzvü səsvermə nəticələrinin yekun protokoluna imza atmağa borcludur, bununla onların seçki məntəqəsində olması təsdiqlənir. Səsvermə nəticələrinin yekun protokolunu komissiyanın xüsusi möhürü ilə təsdiqləyin.

  Səsvermə nəticələrinin yekun protokolunu Qeydiyyat jurnalının verilmiş sənədlərin hissəsində qeyd edin.

**Nəzərə alın!**!

Məntəqə Seçki Komissiyası tərəfindən tərtib olunmuş səsvermə nəticələrinin yekun protokolunu, əgər Məntəqə Seçki Komissiyasının üzvlərinin əksəriyyəti imzaladıqda, o hüquqi qüvvəyə malikdir. Səsvermə nəticələrinin yekun protokoluna daxil edilmiş göstəriciləri düzəltmək qadağandır.

Səsvermə nəticələrinin yekun protokolunun və dəyişirilmə protokolunun tərtib edilmə qaydasına Məntəqə Seçki Komissiya üzvlərinin dərslik təlimatında - III hissə, IV fəsil “Səsvermə nəticələrinin yekun protokolunun tərtib edilməsi” yarımbəndinə baxın.

---

- ☐ Seçki nəticələrini yekun protokolunun fotosurətini verərkən (istənilən halda) katiblə birlikdə imza atmalı və komissiyanın xüsusi möhürü ilə təsdiq etməlisiniz. Verilmiş fotosurəti Qeydlər kitabında daxil edin. Fotosurətin alınmasını alan şəxsə imzası ilə təsdiqlədin.

  **Nəzərə alın!** Səsvermə nəticələrinin yekun protokolu / dəyişirilmə protokolu ilə əlaqədar komissiya üzvlərinin izahatları (mövcud olduğu təqdirdə), tələb olunma əsasında Dairə Seçki Komissiyası tərəfindən tələb olunuqdan 2 gün ərzində verilir.

---

- ☐ Səsvermə nəticələrin yekun protokolunu doldurarkən və fotosurətlərin verilməsindən sonra səsvermə günün Qeydlər kitabını və Qeydiyyat jurnalını bağlayın, sizin və komissiya sədrinin imzası və Məntəqə Seçki Komissiyanın möhrü ilə təsdiq edin.

---

**NƏZƏRƏ ALIN!**

Qeydiyyat jurnalında və səsvermə günün Qeydlər kitabının 21-ci – 24-cü səhifələrində səsvermə günün hər bir daxil olan ərizə/şikayəti qeydə alın və ərizəçi/şikayətçiyə arayışı verin, orada ərizə/şikayətin alınma tarixi, vaxtı və qeydiyyat nömrəsi qeydə alınır. Arayışı imza ilə təsdiqləyin.

Səsvermə günün ərizə/şikayətlərlə bağlı komissiya sədri tərəfindən həyata keçirilәsi səlahiyyətləri detallı olaraq Məntəqə Seçki Komissiya üzvlərinin dərslik təlimatının IV hissnə baxın.

## ƏLAVƏ #5

### Seçicilər axınını nizamlayan komissiya üzvünün funksiyaları

☐ Seçki məntəqəsinə gəlmiş seçicilər axınını nizamlayın.

**DİQQƏT!**

Yeni koronavirusun səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, seçicilər arasında təhlükəsiz məsafəni təmin edin (mümkün olduğu təqdirdə).

☐ Seçicilərdən Gürcüstan vətəndaşlığı haqqında şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstan vətəndaşlığı pasportunu təqdim etməyi və maskanı müvəqqəti olaraq çıxarmasını xahiş edin.

**DİQQƏT!**

✓ Əgər seçicinin Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsi və yaxud Gürcüstan vətəndaşlığı pasportu olmazsa, ona izah edin ki, səsvermədə iştirak edə bilməz.

✓ Əgər seçici Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsi və yaxud Gürcüstan vətəndaşlığı pasportunu təqdim etdiyi zaman maskanı çıxartmasa, o səsvermə binasına buraxılmayacaqdır.

☐ Ultrabənövşəyi fənərlə seçicidə markirovka olunub-olunmamasını yoxlayın və əmin olduqda ki, seçicidə markirovka nəzərə çarpmır, bundan sonra ona səsvermədə iştirak etmək hüququverin.

**DİQQƏT!**

✓ Əgər ultrabənövşəyi fənərlə aşkar olunsa ki, seçicinin artıq markirovkası var, ona səsvermədə iştirak etmək qadağan olunur. Seçicinin kimliyi barədə komissiya sədrinə məlumat verin.

✓ “Fiziki vəziyyətinə” əsasən də yuxarı ətraf orqanları olmadığına görə səsvermə prosedurunda müstəqil şəkildə iştirak edə bilməyən seçici markirovka yoxlanışı prosedurundan keçmir.

☐ Diqqət yetirin, seçicilərə mənsub qeydiyyat masasının yaxınlığında neçə nəfər seçici dayanmışdır. Əgər qeydiyyat masasının yanında iki nəfər seçici durmuşdursa, səsvermə binasına növbəti seçicinin daxil olmasını yubandır.

☐ Seçicilərə göstəriş verin ki, seçicilər siyahısına soyadının birinci hərfi və seçicilərin siyahısında seçicinin nömrəsi daxil edilmiş qeydiyyat masasına yaxınlaşsın.

**Nəzərə alın!**

✓ Yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, seçici və səsvermə binasında olma hüququ olan digər şəxs maskasız və dezinfeksiyaedici məhlulla əlini təmizləmədən səsvermə binasına buraxılmayacaqdır.

✓ Yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, səsvermə binasında olma hüququ olan şəxslərin termoskrininq keçmədən (temperatur yoxlama) səsvermə binasına buraxılmayacaqdır. Qızdırma - 37°C və ya 37°C-dən çox temperatur müəyyən olduqda, şəxs temperatur nəzarətinə məruz qalır (5 dəqiqəlik fasilələrlə). Təkrar qızdırma müəyyən olunduğu halda, şəxs seçki binasına buraxılmayacaq. Qızdırma halları müəyyən edildiyi barədə Məntəqə Seçki Komissiya sədrinə məlumat verilməlidir.

✓ Seçicilərə qarşı termoskrininq olmur.

✓ Səsvermə binasının çıxışında seçicilər üçün əllərin təmizlənməsinə görə dezinfeksiyaedici maye ilə təmin olunmalıdır.

## ƏLAVƏ #6

### Seçiciləri qeydə alan komissiya üzvlərinin funksiyaları

- Seçicilərdən Gürcüstan vətəndaşlığı haqqında şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstan vətəndaşlığı pasportunu təqdim etməyi və maskanı müvəqqəti olaraq çıxarmasını xahiş edin.

**DİQQƏT!**

Əgər seçici maskanı çıxartmayırsa, onun seçkilərdə iştirak etmə hüququ yoxdur və ona seçki bülletenini verməməlisiz.

- Yoxlayın, seçici seçicilərin vahid və ya xüsusi siyahısına daxil edilmişdirmi və seçicinin şəxsi nömrəsini seçicilər siyahısında mövcud olan nömrə ilə müqayisə edin.
- Təqdim edilən sənəddə qeyd edilən seçicinin qeydiyyat məlumatlarını və seçici siyahısında olan məlumatların uyğunluğunu yoxlayın.

**DİQQƏT!**

✓ Seçisi səsvermədə iştirak edir, əgər seçicinin müvafiq siyahısında Gürcüstan vətəndaşının şəxsi nömrəsi, cinsi və foto şəkli ilə siyahıda olan məlumatlarla üçü tam uyğun gəlirsə (adı, soyadı, doğum tarixi, ünvanı).

✓ Əgər seçicinin qeydiyyatçısı seçicinin üzünü təqdim olunan sənədlərdə/seçicilərin siyahısında olan fotoşəkilini bir-birinə uyğun gəlmədiyini hesab edərsə, o qeyd olunanın uyğun olmadığını təsdiq etmək üçün komissiya sədrinə müraciət etməli və onun işarəsini gözləyin. Əgər komissiyanın sədri uyğunsuzluğu təsdiq etməzsə, qeydlər kitabına sizin fərqli fikrinizi daxil etməyə hüququnuz var, bunu komissiyanın katibi ilə birlikdə imzanızla təsdiq edirsiniz. Seçicinin təqdim etdiyi şəxsiyyət vəsiqəsini təsdiq edən sənətdə/ seçicilərin siyahısında olan fotoşəkilini uyğun gəlmədiyini hesab etməsinə baxmayaraq, seçici seçkilərdə iştirak edir.

- Seçicinin sağ əlinin başbarmağının dırnağına markirovka edin, əgər qeyd olunan hərəkəti yerinə yetirmək mümkün olmazsa – sağ əlin digər barmaqlarına, lakin buda mümkün olmazsa, həmin qayda ilə sol ələ.

  **Nəzərə alın!** Əgər seçici markirovkadan keçməyə imtina edərsə, onun səsvermədə iştirak etmə hüququ yoxdur və seçki bülleteni verməməlisiz.

- Seçiciyə seçicinin siyahısının müvafiq qrafasının seçicinin soyadının kənarında imzalatdırın.
- Seçiciyə göstəriş verin ki, yeni koronavirus səbəb olduğu infeksiyanın yayılmasının prevensiyası məqsədi ilə, seçki bülletenin qəbul etməsini qeydiyyatçının masasında yerləşdirilən fərdi istifadə etmək üçün nəzərdə tutulmuş qələmlə seçicilərin siyahısında imza atsın. Seçiciyə izah edin ki, həmin qələmlə gizli səsvermə kabinəsində seçki bülleteni doldurarkən istifadə etməlidir və səsvermədən sonra istifadə etdiyi qələmi səsvermə binasında yerləşdirilən xüsusi konteynerə qoysun.

  **Nəzərə alın!** Əgər səsvermə prosesində aşkar olundu ki seçici seçki siyahısında digər seçicinin soyadının qrafasında imza atdı, belə halda hansı seçicinin qrafasında imza atıldı ora həm qrafada imza atmasını qeyd etməlisiniz. Bununla belə qeyd olunan haqqında izahat yazmalıdır (seçicinin adını, soyadını və siyahıda onun sıra nömrəsini qeyd etməklə).

- Seçki bülletenini verdikdə bülletenin arxa tərəfində müvafiq cədvəldə imza atın və qeydiyyatçının möhürü ilə təsdiq edin.

- Seçiciyə özünüzün imzaladığınız və qeydiyyatçının möhürü ilə təsdiq olunmuş seçki bülletenini təqdim edin.

  **Diqqət!** Əgər sizin və seçicinin seçki bülleteni korlanarsa, bu barədə dərhal komissiyanın sədrinə məlumat verin və seçiciyə yeni (sizin tərəfinizdən imzalanmış və qeydiyyatçının möhürü ilə təsdiqlənmiş) seçki bülleteni verin.

- Seçiciyə göstəriş verin ki, gizli səsvermə kabinəsinə daxil olsun.

**NƏZƏRƏ ALIN!**

✓ Fiziki vəziyyətinə əsasən yuxarı ətraf orqanları olmadığına görə səsvermə prosedurunda müstəqil şəkildə iştirak edə bilməyən seçici markirovka yoxlanışı və markirovka prosedurundan keçmir, ona seçki bülleteni verilərkən seçiciləri qeydə alan seçicilərin vahid siyahısında "Seçicinin imzası" qrafasında "Fiziki vəziyyət" adlı qeyd yazır və bunu şəxsi imzası ilə təsdiq edir.

✓ Tövsiyə olunur ki, qeydiyyatçılar saat 10:00, 12:00, 15:00, 17:00 və 19:00-da səsvermə prosesinə mane olmadan, komissiya sədrinin tapşırığı ilə siyahılarda seçicilərin imzalarını, sizin tərəfinizdən verilmiş bülletenlərin sayını və komissiya sədrinə təhvil verilmiş xarab olan bülletenlərin sayını sayın və göstəriciyi komissiya sədrinə bildirin. Verilmiş seçki bülletenlərinin sayını müəyyən etmək komissiya sədrindən alınmış seçki bülletenlərinin sayını qeydiyyatçının yanında qalan seçki bülletenlərin sayına müqayisə etməklə mümkündür.

Əgər göstəricilər arasında fərq aşkar edilərsə, dərhal izahatı göstərməklə izahat yazmalısız. Səsvermə bitdikdən sonra, komissiya sədrinin tapşırığı ilə yenidən göstəricilərin düzgünlüyünü yoxlamalısız.

Yuxarıda qeyd olunan göstəricilərin düzgünlüyünü yoxlamaq həmçinin qeydiyyatçının funksiyasının müvəqqəti verilməsi halında da həyata keçirməlisiz.

✓ Vahid siyahıda "xaricdə yerləşir" və yaxud "konsulluq qeydiyyatındadır" statusa malik olan seçici, səsvermədə ümumi qaydada iştirak edir.

## ƏLAVƏ #7

### Aparılası seçki qutusunu daşıyan komissiya üzvlərinin funksiyaları

- Aparılası seçki qutusunun vasitəsilə səsvermə seçkilər günü saat 09:00-da başlayır və saat 19:00-da bitir.
- Səsvermə günü saat 9:00-da komissiyasının sədri sizə təhvil verməlidir:
  - ✓ Aparılası seçki qutusunun siyahısını;
  - ✓ Seçicilərin qeydiyyatçısı tərəfindən imzalanmış və qeydiyyatçının möhürü ilə təsdiq edilmiş lazımi sayda seçki bülletenlərini;
  - ✓ Xüsusi zərfləri (aparılası seçki qutusunun siyahısında mövcud olan seçicilərə uyğun olaraq);
  - ✓ Seçicilər üçün istifadə edilməsinə görə nəzərdə tutulmuş qələmlər (aparılası seçki qutusunun siyahısında mövcud olan seçicilərə uyğun olaraq);
  - ✓ Yoxlama vərəqəsi yerləşdirilən möhürlənmiş aparılası seçki qutusunu;
  - ✓ Aparılası seçki qutusunun kəsiyini möhürləyən möhür (aparılası seçki qutusu aparılası seçki qutusunun köməyilə səsvermə bitdikdən sonra möhürlənir).

**DİQQƏT!**

Aparılası seçki qutunu aparan Məntəqə Seçki Komissiyasının üzvləri aparılası seçki qutu ilə səsvermə prosessində maska, qoruyucu üz sipəri, əlcəklər və əlin dezinfeksiya edici məhlulla təchiz olunmalıdırlar.

- Seçiciyə yaxınlaşan kimi ondan Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstan vətəndaşlığı pasportunun təqdim olunmasını xahiş edin;
- Seçicinin şəxsi nömrəsini aparılası seçki qutusunun siyahısında mövcud olan şəxsi nömrə ilə müqayisə edin.
- Təqdim olunan şəxsiyyətini təsdiq edən sənədlərdə qeyd olunan seçicinin qeydiyyat məlumatlarını və aparılası seçki qutusunun siyahısında olan məlumatların uyğunluğunu yoxlayın.

**Nəzərə alın!**

Əgər seçicilərin müvafiq siyahısında Gürcüstan vətəndaşının şəxsi nömrəsi və cinsiilə birlikdə siyahıda olan məlumatlarla üçü tam uyğun gəlirsə (adı, soyadı, doğum tarixi, ünvanı) seçici seçkilərdə iştirak edir.

- Aparılası seçki qutusunun siyahısında öz imzanızla seçki bülleteninin verilməsini təsdiq edin.
- Seçicidən xahiş edin ki, aparılası seçki qutusunun siyahısında öz soyadının qarşısında seçki bülleteni/bülletenlərinin almasını öz imzası ilə təsdiq etsin.

**DİQQƏT!**

Əgər səsvermə prosesində bəlli olsa ki, seçici seçki siyahısında digər seçicinin soyadının qrafasında imza atıb, bu zaman seçici soyadının ardınca həmin qrafada imza atmalı. Qeyd olunan haqqında izahat yazın (seçicinin adını, soyadını və vahid siyahısında sıra nömrəsini qeyd etməklə).

- Seçiciyə qeydiyyatçının imzası və möhürü ilə təsdiq olunmuş seçki bülletenini verin.
- Seçici tərəfindən bülleteni doldurduqdan sonra ona xüsusi zərf verin və göstərin ki, qatlanmış seçki bülletenini ona yerləşdirsin.
- Seçicidən xahiş edin ki, xüsusi zərfi aparılan seçki qutusuna salsın.

- Səsvermə başa çatdırıldıqdan sonra aparılası seçki qutusunun kəsiyini elə möhürləyin ki, möhürü zədələmədən onu açmaq mümkün olmasın.
- Aparılası seçki qutusunu saat 20:00-dan gec olmayaraq seçki məntəqəsinə qaytarın.
- Səsvermə binasına qayıtdıqdan sonra Məntəqə seçki komissiyasının katibinə istifadə olunmamış/korlanmış seçki bülletenləri, xüsusi zərfləri və komissiya üzvlərinin izahatlarını təhvil verin (mövcud olduğu halda).

**Nəzərə alın!**

✓ Aparılası seçki qutusu vasitəsi ilə səsvermədə iştirak edən seçiciyə markirovka tətbiq olunmur.

✓ Fiziki vəziyyətinə görə seçici tərəfindən aparılası seçki qutusu vasitəsilə səs verildiyi təqdirdə, aparılası seçki qutusu siyahısının "Seçicinin imzası" qrafasında –aparılası seçki qutusunu daşıyan komissiya üzvü "Fiziki vəziyyət" adlı qeyd yazır və bunu şəxsi imzası ilə təsdiq edir.

✓ Fiziki vəziyyətinə görə seçicinin (həmçinin seçki bülletenini sərbəst doldura bilmədikdə) yerinə onun seçdiyi şəxs onun yanında seçki bülletenini doldurur, xüsusi zərfə yerləşdirir və zərfi seçki qutusuna atır (o, seçki komissiyasının üzvü, namizəd, seçki subiyektinin nümayəndəsi, mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndələri və müşahidəçilərindən başqa).

✓ Əgər aparılası seçki qutusunun möhürünün bütövlüyü pozularsa, bu barədə dərhal komissiya sədrinə bildirin, səbəbi göstərməklə izahat tərtib edin və yanında olan şəxslərə imzalatdırın.

## ƏLAVƏ #8

### Seçki qutusuna və xüsusi zərflərə nəzarət edən komissiya üzvünün funksiyaları

- Daimi surətdə seçki qutusunun yanında olmalısınız.
- Seçki qutusuna və xüsusi zərflərə nəzarət etməlisiniz.
- Seçki qutusundakı xüsusi zərfin atıldığı kəsik qapalı olmalıdır.
- Səsvermə kabinəsindən seçici çıxdıqdan sonra ona göstəriş verin ki, ayrıca qoyulmuş masanın üzərindən müstəqil olaraq bir xüsusi zərf götürsün və qatlanmış seçki bülletenini ona yerləşdirsin.
- Seçicinin əlində yalnız bir zərf tutduğuna əmin olduqdan sonra, seçki qutusunun kəsiyini açın və seçiciyə xüsusi zərfi qutuya atmasına göstəriş verin.
- Xüsusi zərfi qutuya atdıqdan sonda seçicidən seçki məntəqəsini tərk etməyi xahiş edin.

**Nəzərə alın!**

- ✓ Yalnız seçicinin seçki bülletenini xüsusi zərfə yerləşdirmək hüququ vardır. Fiziki vəziyyətə malik seçici istisna olur, onun əvəzinə, onun iştirakı ilə bülleteni öz arzusu ilə seçdiyi şəxs xüsusi zərfdə yerləşdirir və zərfi seçki qutusuna atır, hansı ki, səsvermə kabinəsində seçki bülleteninin doldurulmasında ona yardım göstərir.
- ✓ Səsvermə qutusunun yanında eyni vaxtda bir nəfərdən çox seçicinin olması yolverilməzdir.
- ✓ Seçki komissiyasının üzvünün doldurulmuş seçki bülletenini açmaq hüququ yoxdur.
- ✓ Seçici xüsusi zərfə bülleteni yerləşdirənə qədər ondan əlində müvafiq sayda seçki bülleteni (elə ki, səsvermənin gizliliyi pozulmasın) və bir zərf olduğunu göstərməyi tələb etmək hüququnuz vardır. Seçici bu tələbi yerinə yetirməyə məcburdur.

## ƏLAVƏ #9

### Seçki məntəqəsində foto-video çəkiliş

(Gürcüstan Mərkəzi Seçki Komissiyasının 2012-ci 24 sentyabr №42/2012 saylı qərarı əsasında hazırlanmışdır)

**I** Səsvermə günü seçki məntəqəsinin açılmasından (səhər saat 7:00) Məntəqə Seçki Komissiyası tərəfindən səsvermənin nəticələrinin hazırlanması dövrü daxil olmaqla.

**Səsvermənin gizliliyini təmin etmək məqsədilə, yolverilməzdir:**

- Seçicinin seçiminin aşkar olmaması məqsədilə səsvermə kabinəsində foto-video çəkiliş aparmaq;
- Gürcüstan Seçki Məcəlləsinə görə kütləvi informasiyaya aid edilməyən seçki komissiyası üçün ayrılmış seçicilərin siyahılarının (masaüstü) variantının və başqa məlumat və ya materialın çəkilməsi.

**Səsvermə prosesinin maneəsiz davam etməsini təmin eləmək məqsədilə:**

- Səsvermə binasında olmaq hüququna malik şəxsdən müsahibə götürmək yalnız səsvermə binası xaricində yolverilәndir;
- Seçki komissiyası üzvləri tərəfindən müsahibənin verilməsi səsvermə prosesində onlara öz vəzifələrinin yerinə yetirilməsinə mane olmadan.

**Səsvermə binasında olmaq hüququna malikdirlər:**

- Seçicinin - səs vermək üçün lazım olan müddətdə;
- Məntəqə Seçki Komissiya üzvlərinin və yuxarı seçki komissiyası üzvlərinin/nümayəndələrinin;
- Seçki subyektlərinin nümayəndələrinin müvafiq seçki komisiyasında (eyni bir seçki subyektinin 1 nümayəndəsindən çox olmamaqla);
- Müvafiq seçki komissiyasında akreditə olunmuş medianın nümayəndələrinin (eyni bir mətbuat və KİV digər vasitəsinin 3 nümayəndəsindən çox olmamaqla);
- Müvafiq seçki komissiyasında qeydiyyatdan keçmiş yerli müşahidəçi təşkilatın müşahidəçilərinin (eyni bir yerli müşahidəçi təşkilatın1 müşahidəçisindən çox olmamaqla);
- MSK-da qeydiyyatdan keçmiş beynəlxalq təşkilatın müşahidəçilərinin (eyni bir beynəlxalq təşkilatın 2 müşahidəçisindən çox olmamaqla) (onlarla birlikdə tərcüməçi də ola bilər).

**II** Səsvermə günü, səhər saat 7:00-dan birinci seçicinin seçki məntəqəsinə gəlməsinə qədər və seçki məntəqəsində sonuncu seçicinin səs verməsindən sonrakı dövrdən yekun protokolların tərtnib olunması dövrü də daxil olmaqla.

**Seçki prosesinin şəffaflığını təmin etmək məqsədilə:**

Səsvermə binasında olmaq hüququna malik şəxslər yalnız Məntəqə Seçki Komissiyası sədri tərəfindən ayrılmış xüsusi yerdən foto-video çəkiliş apara bilərlər, haradan ki, səsvermə prosesi görünür.

| III | Səsvermə günü, seçki məntəqəsinə birinci seçicinin gəlməsi anından sonuncu seçicinin səs vermə müddətinədək. |
|---|---|

**Seçki prosesinin şəffavlığını təmin etmək məqsədilə:**

- Səsvermə binasında olmaq hüququna malik şəxslər seçki məntəqələrində səsvermənin elə anlarını maneəsiz çəkə bilərlər, orada yüksək ictimai maraq kəsb edən seçicilər (siyasi vəzifə daşıyan şəxslər, seçki subyektləri və siyasi birliklərin rəhbərləri, dini liderlər) səs verirlər, bunun nəticəsində foto-video aparatlar səsvermə binasından çıxarılmalıdır.
- Eyni bir mətbuat və kütləvi informasiyanın başqa vasitəsinin səsvermə prosesi müddətində bir dəfə ən çoxu 10 dəqiqə ərzində seçki məntəqəsində səsvermənin gizliliyini təmin etmək şərtilə, istənilən yerdən foto-video çəkiliş aparmaq hüququ var.
- Səsvermə binasında olmaq hüququna malik şəxslər (o cümlədən, 10 dəqiqədən artıq foto-video çəkiliş aparmaq istəyən media nümayəndələri) bütün gün ərzində məntəqə seçki komissiyası sədri tərəfindən xüsusi ayrılmış yerdə yerləşdirilən stasionar foto-video çəkiliş aparatı vasitəsilə foto-video çəkiliş apara bilərlər. Bu yerdən seçki qutusu görünməlidir.

| **Qaydalar pozulduqda hərəkət etmək** | Foto-video çəkilişi zamanı qaydaları pozduğu halda Məntəqə Seçki Komissiyası səs çoxluğu ilə müvafiq şəxsin səs vermə binasından qovulması haqqında qərar qəbul edir. |
|---|---|

# QEYDLƏR ÜÇÜN

# QEYDLƏR ÜÇÜN

# QEYDLƏR ÜÇÜN

# QEYDLƏR ÜÇÜN